RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 246 (9991) 20 noyabr 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Ağ günün mübarək, Ağdam!



Xalqın xilaskar oğlu İlham Əliyev ən əlverişli bir zamanda orduya hücum əmri verdi. Cəmi 44 gün çəkən müharibə Azərbaycanın tam və qəti qələbəsiylə başa çatdı. Azərbaycan tarixi Zəfərə, Ermənistan isə rüsvayçı kapitulyasiya aktına qol çəkdi. Beş il əvvəl bir payız günündə Qarabağa azadlıq günəşi doğdu. Bu günəşin yurdumuza, elimizə, obamıza, doğma Qarabağımıza əbədi bahar gətirəcəyi indi heç kəsdə şübhə doğurmur.

Çal-çağırlı, toy-büsatlı günlərinə yenidən qovuşan Ağdam vətən sevdalı oğullarının hərarətli əlləri ilə indi yenidən qurulur. Sinəsinə çəkilən çalın-çarpaz dağlar övladlarının doğma və isti nəfəsiylə əriyib yox olur. Ağdam sürətlə canlanır, hər gün bir qarış yox, min qarış boy atır. Prezident İlham Əliyevin hər bir ölkə vətəndaşına məlum olan istəyi budur ki, Ağdamı dünyanın ən gözəl şəhərlərindən biri kimi qursun. Məhz onun - xalqın xilaskar oğlunun tapşırığı ilə hazırlanan şəhərin baş planında Ağdamı Qarabağın incisinə çevirmək üçün hər şey nəzərdə tutulmuşdur. Çox keçməz ki, düşmənin "ruhlar şəhəri"nə çevirdiyi Ağdam tezliklə göz qamaşdıran gözəlliyi ilə ermənilərin gerçək gözdağına çevriləcək.

Bərdə-Ağdam istiqamətində yeni çəkilmiş avtomobil yolu Avropa standartlarından da üstündür. Yenidən bərpa edilmiş dəmiryol xətti Ağdama sürət qatarının qrafik əsasında işləməsini gerçəkləşdirdi. Artıq burada yeni fabrik və zavodlar Ağdam markası ilə məhsullar istehsal edir. Yaraşığı ilə diqqət çəkən Muğam mərkəzində vaxtaşırı maraqlı mədəni tədbirlər keçirilir. Yeni inşa olunan yaşayış məhəllələrin sırası getdikcə sıxlaşır. Gərgin iş qrafikinə baxmayaraq, Prezident İlham Əliyev tez-tez bölgəyə səfərlər edir. Aparılan tikinti-quruculuq işləri ilə tanış olan dövlət başçısı dəyərli məsləhətini verir, yeni layihələrin təməlqoyma mərasimlərində iştirak edir.

Bu günlər rayonda olduq, vətəndaşların qəbulu, müraciətlərə baxılması vəziyyəti ilə maraqlandıq. Görüşdüyümüz, həmsöhbət olduğumuz hər kəsdə böyük Zəfərin ilk yubileyinin yaratdığı xoş ovqatı hiss etdik. Rayon sakinləriylə söhbətlərdən sonra o qənaətə gəldik ki, Ağdam Rayon İcra Hakimiyyəti vətəndaşların müraciətlərinə həssaslıqla baxılmasını, onların qəbulunun təşkilini, qaldırdıqları problemlərin həll olunmasını, onlara vaxtında cavab verilməsini daim diqqət mərkəzində saxlayır, "Yerli İcra Hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" Prezident İlham Əliyevin imzaladığı sərəncamın tələblərinə ciddi əməl edir. Öyrəndik ki, cari ilin 10 ayı ərzində rayon icra hakimiyyəti başçısı aparatına 1984 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərin 1177-si, yaxud 59,3 faizi həll olunmuşdur. Hər həftənin 3-cü günü rayon icra hakimiyyəti başçısının qəbuludur. Bu, rəsmi qrafikdir. Əslində isə ara günlərində gələnlər də qəbul olunub, diqqətlə dinlənilir. Çalışılır ki, heç kəs yerli icra orqanından narazı qayıtmasın. Birmənalı demək olar ki, RİH-in başçısı hər kəs üçün əlçatandır. Rayon sakinləri Vaqif Həsənovla yolda, küçədə, el-obanın xeyir-şər məclislərində müxtəlif tədbirlərdə görüşüb dərdlərini, problemlərini deyə bilirlər.

8

# "Bu, tarixi miqyasda hadisədir"



Qurbanqulu Berdiməhəmmədov Mərkəzi Asiya və Azərbaycanın vahid geosiyasi və geoiqtisadi məkana çevrilməsi münasibətilə Prezident İlham Əliyevi və Azərbaycan xalqını təbrik edib.

Qurbanqulu Berdiməhəmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məktub ünvanlayıb.

3

# 2026-cı ilin dövlət büdcəsi layihəsinin müzakirəsi başladı

Noyabrın 19-da Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasda Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, iclasın gündəliyinə 8 məsələ daxildir. Onlardan 6-sı "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan sənədlərdir.

Spiker diqqətə çatdırıb ki, büdcə müzakirələri "Konstitusiya və Suverenlik İli"nə təsadüf edir. Noyabrın 12-də xalqımız Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Konstitusiyamızın 30 illiyini qeyd edib. Eyni zamanda bu ay Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində tarixi Zəfərinin 5-ci ildönümü də qürurla qeyd olunub. Dövlət suverenliyimizin tam bərpasını təcəssüm etdirən bu tarixi hadisələr gələn ilin dövlət büdcəsi haqqında qanun layihəsinin müzakirəsinə xüsusi bir məna verir.



Spiker qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyası ötən dövrdə ölkəmizin makroiqtisadi sabitliyini qorumağa imkan verib. Mürəkkəb beynəlxalq konyunkturaya baxmayaraq, iqtisadiyyatımızın dayanıqlığı və ardıcıl inkişafı təmin edilib. Cənubi Qafqaz bölgəsinin lider dövləti kimi Azərbaycanın iqtisadi müstəqilliyi də möhkəmlənib.

Qeyri-neft sektorunun artımı, ixrac potensialının genişlənməsi, energetika sisteminin fəal surətdə modernləşdirilməsi və "yaşıl enerji" layihələrinə yeni sərmayələrin qoyulması təsdiq edir ki, iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla davam etdirilir.

4

# Yeni Klinikada Yeni Robotik Reabilitasiya və Sümük İliyi Transplantasiyası mərkəzlərinin açılış mərasimi olub



Əsas məqsəd pasiyentlərin funksional müstəqilliyini bərpa etmək, həyat keyfiyyətini yüksəltmək və hərəkət imkanlarını maksimum səviyyəyə çatdırmaq, həmçinin ölkəmizdə əlillik səviyyəsini minimuma endirməkdir. Mərkəz həm ambulator, həm də stasionar müalicə xidmətləri təqdim edir.

Müəssisədə ümumilikdə 3 həkim-fizioterapevt, 1 həkim-travmatoloq, 4 həkim-nevroloq, 4 təcili və təxirəsalınmaz tibbi yardım üzrə həkim, 9 müalicəvi bədən tərbiyəsi (MBT) təlimatçısı, 32 fizioterapevt-reabilitoloq, 17 tibb bacısı/qardaşı, 2 masaj üzrə tibb bacısı/qardaşı və 20 kiçik tibb işçisi fəaliyyət göstərir.

5

# Uşaq hüquqlarının səmərəli müdafiəsində Ombudsmanın rolu

Uşaq hüquqlarının təmini, müdafiəsi və inkişafı Azərbaycan dövlətinin prioritet vəzifələri sırasındadır və bu istiqamətdə davamlı olaraq kompleks tədbirlər həyata keçirilməkdədir.

Azərbaycan Respublikası BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının fəal iştirakçısı olmaqla, bu sənəddə təsbit olunmuş müddəaların implementasiyası istiqamətində müvafiq islahatlar həyata keçirmiş, uşaqların müdafiəsinə dair milli qanunvericilik təkmilləşdirilmiş və müvafiq hüquqmüdafiə mexanizmləri yaradılmışdır.

Konvensiyanın tələbləri əsasında qəbul edilən "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu və bu sahədə qəbul olunmuş digər normativ-hüquqi aktlar uşaqların hüquqlarının qorunması, onların sosial müdafiəsinin gücləndirilməsi, təhsil, səhiyyə və digər xidmət sahələrinə bərabər çıxışının təmin olunması üçün hüquqi baza yaratmışdır.

7

# Dil itəndə, xalq susur




Hər bir xalqın gücü onun iqtisadiyyatında və texnologiyasında olduğu qədər, dilində və düşüncəsində də gizlidir. Ana dili yalnız keçmişin yadigarı deyil, həm də gələcəyin daşıyıcısıdır. Biz onu sadəcə öyrətmirik, onunla düşünür, sevinir, yaradır və yaşayırıq. Yeni terminlər, qlobal ünsiyyət formaları və texnoloji dillər, bunların hamısı həyatın bir parçasıdır. Amma bu reallıqlar içində öz dilinin səsini eşitməyən xalq, zamanla öz mədəni kimliyini də itirir. Məsələ yeni sözlərə qarşı olmaqda deyil, məsələ onları milli düşüncənin süzgəcindən keçirərək mənimsəməkdədir.

Dilin gələcəyi sadəcə dilçilərin yox, cəmiyyətin bütün təbəqələrinin məsuliyyətidir. Texnoloji əsrdə dillər yalnız məktəblərdə deyil, həm də internetdə, süni intellektdə, sosial şəbəkələrdə və rəqəmsal aləmdə yaşayır. Ona görə də gələcəyin ana dili həm kitab səhifələrində, həm də kod sətirlərində mövcud olan bir dildir.

10

# Qarakənd terroru tariximizin ən faciəvi səhifələrindən biridir



Qarakənd kəndi yaxınlığında Mİ-8 N72 hərbi vertolyotunun erməni silahlıları tərəfindən atəşə tutulması nəticəsində heyət üzvləri və sərnişinlərdən ibarət 22 nəfər həlak olublar. Həlak olanlar Azərbaycanın dövlət və hökumət nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər - dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri Məhəmməd Əsədov, baş nazirin müavini Zülfi Hacıyev, deputatlar Vaqif Cəfərov və Vəli Məmmədov, Prezidentin İcra Aparatının şöbə müdiri Osman Mirzəyev, nazir müavini Qurban Namazəliyev, DQMV prokuroru İqor Plavski, DQMV Daxili İşlər İdarəsinin rəisi Vladimir Kovalyov, Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsinin rəisi Sergey İvanov, fövqəladə vəziyyət rayonunun komendantı Nikolay Jinkin, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Serikov, milis general-mayoru Mixail Lukaşov, polkovnik-leytenant Oleq Koçerev, dövlət katibinin köməkçisi Rafiq Məmmədov, telejurnalist Alı Mustafayev, Azərbaycan Televiziyasının işıqçısı Arif Hüseynzadə, videooperator Fəxrəddin Şahbazov, vertolyot heyətinin komandiri Vyaçeslav Kotov, heyət üzvləri Gennadi Domov, Dmitri Yarovenko idi.

6

# Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13, № 4, maddələr 362, 367, № 5 (I kitab), maddə 484, № 6 (I kitab), maddə 637, № 12 (I kitab), maddə 1283; 2025, № 4 (I kitab), maddələr 308, 322, № 6, maddə 526, № 7, maddə 610, № 8, maddələr 736, 743) aşağıdakı məzmunda 67.3-cü maddə əlavə edilsin:

"67.3. Vəkil kassasiya instansiyası məhkəməsində özü-özünü təmsil edə bilər.".

**Maddə 2.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631; 2025, № 1, maddə 1, № 2, maddə 98, № 4 (I kitab), maddə 308, № 6, maddələr 529, 538, № 7, maddə 607, № 8, maddələr 736, 743) aşağıdakı məzmunda 92.3-1-ci maddə əlavə edilsin:

"92.3-1. Bu Məcəllənin 92.3.6-cı, 92.3.7-ci, 92.3.9 - 92.3.11-ci maddələrində nəzərdə tutulan şübhəli və ya təqsirləndirilən şəxs qismində vəkil çıxış etdikdə müdafiəçinin təmin edilməsindən imtina edə və özü-özünü təmsil edə bilər.".

**Maddə 3.** Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586 (Cild I); 2024, № 4, maddə 365, № 5 (I kitab), maddələr 489, 503, № 8, maddə 934; 2025, № 1, maddə 15, № 4 (I kitab), maddə 322, № 8, maddə 743) 81.9-cu maddəsinin birinci cümləsində "sənədi" sözü "sənədləri (vəkilin xidməti vəsiqəsi və vəkil orderi)" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 19 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 362) aşağıdakı dəyişikliklər edilsin:

4.1. preambulanın ikinci hissəsindən "fiziki və hüquqi şəxslərə" sözləri çıxarılsın;

4.2. 1-ci maddə üzrə:

4.2.1. adı aşağıdakı redaksiyada verilsin:

"Maddə 1. **Vəkillik fəaliyyətinin əsasları və prinsipləri";**

4.2.2. II hissədə "aşkarlıq" sözü "şəffaflıq, insan hüquqlarına hörmət" sözləri ilə əvəz edilsin;

4.2.3. III hissə üzrə:

4.2.3.1. ikinci abzasda "qanunlarına" sözü "normativ hüquqi aktlarına" sözləri ilə əvəz edilsin;

4.2.3.2. üçüncü abzasda ", digər dövlət orqanları, ictimai birliklər, hər hansı müəssisə, idarə, təşkilat və vəzifəli şəxs" sözləri "və digər dövlət orqanları (qurumları), habelə fiziki, vəzifəli və hüquqi şəxslər" sözləri ilə əvəz edilsin;

4.3. 2-ci maddənin II hissəsinə "məcəllələri" sözündən sonra "və digər qanunları" sözləri əlavə edilsin;

4.4. 3-cü maddənin mətninə "şəxslərin" sözündən sonra ", habelə dövlət orqanlarının (qurumlarının)" sözləri əlavə edilsin;

4.5. 4-cü maddə üzrə:

4.5.1. I hissə aşağıdakı redaksiyada verilsin:

"I. Vəkillik fəaliyyəti bu Qanuna və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq yalnız vəkil tərəfindən fiziki və hüquqi şəxslərin, habelə dövlət orqanlarının (qurumlarının) hüquqlarının təmin edilməsi və müdafiəsi məqsədilə peşəkarcasına həyata keçirilən müstəqil hüquq fəaliyyətidir.";

4.5.2. III hissə üzrə:

4.5.2.1. ikinci abzasa "şəxslərin" sözündən sonra ", habelə dövlət orqanlarının (qurumlarının)" sözləri əlavə edilsin;

4.5.2.2. beşinci abzasa "şəxslərə" sözündən sonra ", habelə dövlət orqanlarına (qurumlarına)" sözləri əlavə edilsin;

4.6. 5-ci maddə üzrə:

4.6.1. III hissəyə "bağlanmış" sözündən sonra "yazılı" sözü əlavə edilsin;

4.6.2. V hissə üzrə:

4.6.2.1. birinci abzasın birinci cümləsində "qanunvericiliyinin" sözü "normativ hüquqi aktlarının" sözləri ilə əvəz edilsin və həmin cümləyə "uyğun" sözündən sonra "olaraq Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının (konfransının) müəyyən etdiyi qaydalara əsasən" sözləri əlavə edilsin;

4.6.2.2. ikinci abzasda "vəkil (vəkillər)" sözləri "vəkillər" sözü ilə əvəz edilsin və həmin abzasa "əlaqələndirən" sözündən sonra "qeyri-kommersiya" sözləri əlavə edilsin;

4.6.3. VI hissənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu maddənin V hissəsinin birinci abzasında müəyyən edilmiş qaydalara uyğunluğu Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə təsdiqlənmiş vəkil qurumu seçilmiş təşkilati-hüquqi forma üzrə dövlət qeydiyyatından keçdikdən sonra fəaliyyətə başlayır.";

4.7. 6-cı maddənin III hissəsi aşağıdakı redaksiyada verilsin:

"III. Vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər yalnız öz fəaliyyətinin təbliği ilə bağlı vəkilliyin rəmzlərindən istifadə edə bilərlər.";

4.8. 7-ci maddə üzrə:

4.8.1. I hissə aşağıdakı redaksiyada verilsin:

"I. Hüquqi şəxslər və dövlət orqanları (qurumları) normativ hüquqi aktlarda müəyyən edilmiş hallarda öz peşə vəzifələrini yerinə yetirən vəkillərə yardım etməlidirlər.";

4.8.2. III hissənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Vəkilin vəkillik fəaliyyətinin həyata keçirilməsi ilə bağlı ona məlum olan hallar barədə dindirilməsi qadağandır.";

4.9. 8-ci maddənin I, IV və V hissələri aşağıdakı redaksiyada verilsin:

"I. Ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə bir ildən az olmayaraq iş stajı olan və ya elmi müəssisələrdə (təşkilatlarda) və təhsil müəssisələrində hüquq sahəsində bir ildən az olmayan müddətdə fəaliyyət göstərən, Vəkillərin İxtisas Komissiyasında peşə yararlığının müəyyən edilməsi məqsədilə yazılı testdən və müsahibədən ibarət ixtisas imtahanını müvəffəqiyyətlə vermiş, müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində icbari təlimi müvəffəqiyyətlə bitirmiş Azərbaycan Respublikasının vətəndaşları bu maddənin II hissəsində göstərilən hallara zidd olmamaq şərti ilə vəkil ola bilərlər.

Azərbaycan Respublikasının vətəndaşı olan, əvvəllər vəkil və ya hakim (intizam qaydasında vəkillik və ya hakimlik fəaliyyətinə xitam verilmiş şəxslər, həmçinin Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilən qiymətləndirmə nəticəsində səlahiyyətləri uzadılmamış hakimlər istisna olmaqla) olmuş şəxslər onların müraciətləri əsasında yazılı testi vermədən, müsahibədən keçərək icbari təlimə cəlb olunmaqla həmin təlimi müvəffəqiyyətlə keçdikdən sonra vəkilliyə qəbul olunurlar. Azərbaycan Respublikasının vətəndaşı olan, əvvəllər vəkil və ya hakim (intizam qaydasında vəkillik və ya hakimlik fəaliyyətinə xitam verilmiş şəxslər, həmçinin Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilən qiymətləndirmə nəticəsində səlahiyyətləri uzadılmamış hakimlər istisna olmaqla) olmuş şəxslər yazılı test vermədən, müsahibədə iştirak etmək hüququndan yalnız bir dəfə istifadə edə bilərlər.

Hüquq elmləri doktoru elmi dərəcəsi olan şəxslər, müvafiq icra hakimiyyəti orqanı tərəfindən hüquq sahəsində fəxri ad verilmiş şəxslər, habelə əvvəllər Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, apellyasiya və kassasiya instansiyası məhkəmələrinin sədri vəzifəsində işləmiş şəxslər onların müraciətləri əsasında yazılı testi vermədən, müsahibədə iştirak etmədən və icbari təlimə cəlb edilmədən vəkilliyə qəbul olunurlar.";

"IV. Vəkil dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) qəbul edildikdə onun vəkillik fəaliyyəti dövlət qulluğuna xitam veriləndək dayandırılır. Dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) qəbul edilməsi ilə əlaqədar vəkillik fəaliyyəti dayandırılmış və bundan sonra dövlət qulluğunda (dövlət qulluğunun xüsusi növündə) iki il və ya daha çox qulluq keçmiş şəxslər (hüquqşünaslıq ixtisası üzrə ali təhsil tələb edən vəzifələrdə qulluq keçən dövlət qulluqçuları istisna olmaqla) dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) xitam verildikdən sonra onların vəkillik fəaliyyətinə buraxılmalarına mane olan bu Qanunla müəyyən edilmiş hallar aşkar edilmədikdə onlar müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində icbari təlimi müvəffəqiyyətlə bitirdikdən sonra vəkillik fəaliyyəti ilə məşğul ola bilərlər.

Dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) qəbul edilməsi ilə əlaqədar vəkillik fəaliyyəti dayandırılmış və bundan sonra dövlət qulluğunda (dövlət qulluğunun xüsusi növündə) iki ildən az qulluq keçmiş şəxslər, habelə hüquqşünaslıq ixtisası üzrə ali təhsil tələb edən vəzifələrdə qulluq keçmiş dövlət qulluqçuları dövlət qulluğuna (dövlət qulluğunun xüsusi növünə) xitam verildikdən sonra onların müraciəti olduqda və vəkillik fəaliyyətinə buraxılmalarına mane olan bu Qanunla müəyyən edilmiş hallar aşkar edilmədikdə vəkilliyə buraxılırlar.

V. Vəkillər Kollegiyasının üzvü olmayan şəxs tərəfindən özünə münasibətdə və ya təşkilatının adında "vəkil" sözündən və bu sözün istifadə edildiyi ifadələrdən, eyni zamanda onların başqa dillərə tərcüməsindən istifadə olunması qadağandır.";

4.10. 8-1-ci maddə üzrə:

4.10.1. I hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu Qanunun 8-ci maddəsinin II hissəsində qeyd olunan şəxslər vəkil köməkçisi ola bilməzlər.";

4.10.2. II hissə aşağıdakı redaksiyada verilsin:

"II. Vəkilin köməkçisi vəkil qurumu ilə, vəkillik fəaliyyəti fərdi qaydada həyata keçirildikdə isə vəkillə bağlanmış əmək müqaviləsinə əsasən fəaliyyət göstərir.";

4.10.3. III hissənin birinci cümləsinə "onun" sözündən sonra "qanuni" sözü əlavə edilsin;

4.10.4. aşağıdakı məzmunda V hissə əlavə edilsin:

"V. Vəkil köməkçisinə dair məlumatlar vəkil reyestrinin xüsusi bölməsinə daxil edilir.";

4.11. 9-cu maddə üzrə:

4.11.1. I hissənin birinci cümləsinə "olduğu" sözündən sonra "vahid" sözü əlavə edilsin;

4.11.2. II hissəyə "Kollegiyası" sözündən sonra "qeyri-kommersiya" sözləri əlavə edilsin;

4.11.3. IV hissə aşağıdakı redaksiyada verilsin:

"IV.Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı), Vəkillər Kollegiyasının Rəyasət Heyəti, Vəkillərin İntizam Komissiyası və Vəkillərin İxtisas Komissiyası Vəkillər Kollegiyasının orqanlarıdır. Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə nəzərdə tutulmuş qaydada Vəkillər Kollegiyası tərəfindən regional qurumlar (mərkəzlər), hüquqi yardım mərkəzləri və tədris mərkəzləri təsis oluna bilər.";

4.11.4.V hissənin altıncı abzası yeddinci abzas hesab edilsin və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"dövlət hesabına göstərilən hüquqi yardıma görə haqqın (vəsaitin) vəkil qurumlarına və fərdi qaydada fəaliyyət göstərən vəkillərin bank hesablarına köçürülməsini təmin edir;";

4.12. 10-cu maddə üzrə:

4.12.1. I hissə aşağıdakı redaksiyada verilsin:

"I. Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının (konfransının) müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

Vəkillər Kollegiyasının Nizamnaməsini, Vəkillərin İntizam Komissiyasının Əsasnaməsini, Vəkillərin İxtisas Komissiyasının Əsasnaməsini və Vəkillərin etik davranış qaydaları haqqında Əsasnaməni təsdiq etmək və onlarda dəyişiklik etmək;

Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədrini, sədr müavinlərini və digər üzvlərini, Vəkillərin İntizam Komissiyasının sədrini, sədr müavinini və digər üzvlərini seçmək;

Vəkillər Kollegiyasının büdcəsini, üzvlük haqqının məbləğini, vəkillərin müraciətləri əsasında onların müəyyən dövr üzrə üzvlük haqqını ödəməkdən azad edilməsi və ya müəyyən dövr üzrə üzvlük haqqının məbləğinin azaldılması qaydasını, Vəkillər Kollegiyasının regional qurumlarının (mərkəzlərinin), hüquqi yardım mərkəzlərinin, tədris mərkəzlərinin, vəkil qurumlarının və fərdi qaydada fəaliyyət göstərən vəkillərin fəaliyyətinin monitorinqinin aparılması qaydasını, vəkil orderinin və order markasının forması, hazırlanması və istifadə qaydasını, order markasına görə ödəniş məbləğini, vəkil qurumlarının yaradılması qaydasını, vəkillərin il ərzində iştirak etməli olduğu icbari tədris tədbirlərinin minimal saat sayını müəyyən etmək;

vəkilliyin rəsmi embleminin, vəkillərin xüsusi geyim formasının təsvirini və Vəkillər Kollegiyasının maliyyə-təsərrüfat hesabatını təsdiq etmək.";

4.12.2. aşağıdakı məzmunda I-I hissə əlavə edilsin:

"I-I. Vəkillər Kollegiyası üzvlərinin sayı beş yüzdən çox olarsa, Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının səlahiyyətləri Vəkillər Kollegiyası üzvlərinin konfransı tərəfindən həyata keçirilə bilər.";

4.12.3. III hissə aşağıdakı redaksiyada verilsin:

"III.Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı) üç ildə bir dəfədən az olmayaraq Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən çağırılır. Vəkillər Kollegiyası üzvlərinin növbədənkənar ümumi yığıncağı (konfransı) Vəkillər Kollegiyası üzvlərinin üçdə birinin tələbi və ya Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı əsasında çağırıla bilər. Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı) çağırıldıqda Vəkillər Kollegiyasının Rəyasət Heyəti iki ay ərzində onun təşkilini və keçirilməsini təmin edir.";

4.13. 11-ci maddə üzrə:

4.13.1. II hissə üzrə:

4.13.1.1. birinci cümləyə "Rəyasət" sözündən əvvəl "Vəkillər Kollegiyası" sözləri, "yığıncağında" sözündən sonra "(konfransında)" sözü əlavə edilsin;

4.13.1.2. üçüncü cümlə çıxarılsın;

4.13.2. III hissə aşağıdakı redaksiyada verilsin:

"III. Vəkillər Kollegiyasının Rəyasət Heyəti:

Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağını (konfransını) çağırır və onun qərarlarının icrasını təşkil edir;

Vəkillər Kollegiyasının üzvlüyünə qəbul olunma məsələsini həll edir, bu Qanunun 23-cü maddəsində nəzərdə tutulmuş qaydada vəkillik fəaliyyətinə xitam verilməsi ilə bağlı səlahiyyətləri həyata keçirir, vəkil reyestrini aparır;

dövlət hesabına göstərilən hüquqi yardıma görə haqqın (vəsaitin) ödənilməsi ilə bağlı sənədləşmə qaydasını müəyyən edir, dövlət hesabına hüquqi yardım göstərən vəkillərin növbətçilik siyahılarını təsdiq edir və aidiyyəti dövlət orqanlarına (qurumlarına) təqdim edir;

Vəkillərin İxtisas Komissiyasının vəkil üzvlərini təyin edir;

ixtisas imtahanının qaydasını və onun keçirilməsinin dövriliyini (ildə bir dəfədən az olmayaraq) müəyyən edir;

vəkillik fəaliyyətinin statistikasını aparır, təcrübəni ümumiləşdirir və vəkillik fəaliyyətinin həyata keçirilməsi məsələlərinə dair metodik tövsiyələr hazırlayır;

vəkilləri həvəsləndirmə qaydasını müəyyən edir və vəkillərin həvəsləndirilməsini həyata keçirir;

vəkillər barəsində intizam icraatı başlayır və bu Qanunun 22-ci maddəsində nəzərdə tutulmuş qaydada intizam tənbehi tətbiq edir;

vəkillər arasında qanunvericilik və məhkəmə təcrübəsi sahəsində məlumatlandırma işinin aparılmasını təşkil edir;

Vəkillər Kollegiyası Rəyasət Heyəti aparatının strukturunu, ştat cədvəlini, xərclər smetasını və işçilərin əməkhaqqını təsdiq edir;

Vəkillər Kollegiyasının regional qurumlarını (mərkəzlərini), hüquqi yardım mərkəzlərini və tədris mərkəzlərini yaradır, onların aparatlarının strukturunu, ştat cədvəlini, illik büdcəsini və işçilərin əməkhaqqını təsdiq edir;

Vəkillər Kollegiyası orqanlarının qəbul etdikləri qərarların icrasının təmin edilməsi ilə bağlı Vəkillər Kollegiyasının regional qurumlarının (mərkəzlərinin), hüquqi yardım mərkəzlərinin və tədris mərkəzlərinin, vəkil qurumlarının və fərdi qaydada fəaliyyət göstərən vəkillərin fəaliyyətinin azı üç ay müddətində monitorinqini aparır, onların nəticəsində aşkar edilmiş nöqsanların aradan qaldırılması üzrə qərarlar qəbul edir;

vəkilliyə qəbul üzrə imtahanda iştirak haqqının məbləğini müəyyən edir;

Vəkillər Kollegiyasına daxil olmuş vəsaitlərin xərc istiqamətlərini müəyyən edir;

Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının (konfransının) müəyyən etdiyi qaydalara əsasən vəkilin müraciəti əsasında onun müəyyən dövr üzrə üzvlük haqqından azad edilməsi və ya müəyyən dövr üzrə üzvlük haqqının azaldılması barədə qərar qəbul edir;

vəkillərin fəaliyyətində "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozuntusu halını aşkar edərsə, həmin Qanuna müvafiq olaraq tədbirlər görür;

vəkilin xidməti vəsiqəsinin təsviri və nümunəsini müəyyən edir;

bu Qanun və öz Nizamnaməsində nəzərdə tutulmuş digər məsələləri həll edir.";

4.13.3. IV hissə üzrə:

4.13.3.1. birinci cümləyə "etdikdə" sözündən sonra "Vəkillər Kollegiyası" sözləri əlavə edilsin;

4.13.3.2. ikinci cümləyə "Rəyasət" sözündən əvvəl "Vəkillər Kollegiyası" sözləri, "qərarlar" sözündən sonra "açıq səsvermə yolu və" sözləri əlavə edilsin;

4.13.3.3. aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Səslər bərabər olduqda Vəkillər Kollegiyası Rəyasət Heyətinin iclasına sədrlik edənin səsi həlledicidir.";

4.14. 12-ci maddə üzrə:

4.14.1. ikinci abzasa "edir" sözündən sonra "və onun adından çıxış edir" sözləri əlavə edilsin;

4.14.2. üçüncü - yeddinci və doqquzuncu abzaslara "Rəyasət" sözündən əvvəl "Vəkillər Kollegiyası" sözləri əlavə edilsin;

4.14.3. onuncu abzas on birinci abzas hesab edilsin və aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

"Vəkillər Kollegiyasının regional qurumlarının (mərkəzlərinin), hüquqi yardım mərkəzlərinin və tədris mərkəzlərinin rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir;";

4.15. 13-cü maddə üzrə:

4.15.1. I hissəyə "üçün" sözündən sonra "Vəkillərin" sözü əlavə edilsin;

4.15.2. II hissə aşağıdakı redaksiyada verilsin:

"II. Vəkillərin İxtisas Komissiyası yeddi vəkil, üç hakim və üç hüquqşünas alimdən, ümumilikdə isə on üç üzvdən ibarət olmaqla fəaliyyət göstərir. Vəkillərin İxtisas Komissiyasının səlahiyyət müddəti beş ildir.";

4.15.3. III hissənin birinci və ikinci cümlələrinə, IV-VI hissələrə "İxtisas" sözündən əvvəl "Vəkillərin" sözü əlavə edilsin;

4.15.4. VII hissədə "qanunvericiliyin" sözü "normativ hüquqi aktların" sözləri ilə əvəz edilsin;

4.15.5. X hissəyə "İxtisas" sözündən əvvəl "Vəkillərin" sözü əlavə edilsin və həmin hissədə "Kollegiyasının Ümumi yığıncağı" sözləri "Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı)" sözləri ilə əvəz edilsin;

4.16. 14-cü maddə üzrə:

4.16.1. II hissədə "vəkillər" sözü "onlar haqqında məlumatlar" sözləri ilə, "edilirlər" sözü "edilir" sözü ilə əvəz edilsin;

4.16.2. III hissədə "mətninə imza edir" sözləri "mətnini imzalayır" sözləri ilə əvəz edilsin;

4.17. aşağıdakı məzmunda 14-1-ci maddə əlavə edilsin:

"Maddə 14-1. **Vəkilin xidməti vəsiqəsi**

I. Vəkil andı içmiş vəkillərə xidməti vəsiqə verilir. Xidməti vəsiqənin forması, verilməsi qaydası və etibarlılıq müddəti Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən müəyyən edilir. Vəkilin xidməti vəsiqəsi onun Vəkillər Kollegiyasına üzvlüyünü təsdiq edir. Xidməti vəsiqə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin aparatı tərəfindən hazırlanır.

II. Vəkil fəaliyyəti dövründə xidməti vəsiqədən istifadə edir. Xidməti vəsiqədə göstərilən məlumatlar dəyişdikdə, məlumatların səhv olduğu müəyyənləşdirildikdə, xidməti vəsiqə itirildikdə, yararsız hala düşdükdə, habelə xidməti vəsiqənin etibarlılıq müddəti qurtardıqda ona yeni xidməti vəsiqə verilir.

III. Vəkilin fəaliyyəti dayandırıldıqda və ya onun fəaliyyətinə xitam verildikdə xidməti vəsiqə Vəkillər Kollegiyası Rəyasət Heyətinin aparatına qaytarılır.

IV. Vəkilin fəaliyyətinin dayandırılması barədə qərar qəbul olunduğu gündən dayandırma müddəti bitənədək o, xidməti vəsiqəsindən istifadə etmək hüququnu itirir. Vəkilin fəaliyyətinə xitam verilməsi barədə qərar qüvvəyə mindiyi gündən etibarən xidməti vəsiqə öz qüvvəsini itirir.";

4.18. 15-ci maddənin II hissəsi üzrə:

4.18.1. ikinci və dördüncü abzaslar aşağıdakı redaksiyada verilsin:

"hüquqi yardım üçün müraciət etmiş fiziki və hüquqi şəxslərin müdafiəçisi olmaq, onların, habelə dövlət orqanlarının (qurumlarının) hüquqlarını, qanuni maraq və mənafelərini təhqiqat, istintaq, məhkəmə, digər dövlət orqanlarında (qurumlarında), yerli özünüidarəetmə orqanlarında, hüquqi şəxslərdə, o cümlədən xarici ölkələrdə və beynəlxalq təşkilatlarda müdafiə və təmsil etmək;";

"vəkillik fəaliyyətini həyata keçirməklə əlaqədar sənəd toplamaq, hüquqi yardım göstərmək üçün zəruri olan arayışları (məlumatları) və digər sənədləri dövlət orqanlarından (qurumlarından), yerli özünüidarəetmə orqanlarından, hüquqi şəxslərdən tələb etmək, onlarla tanış olmaq və həmin sənədlərin surətlərini çıxarmaq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının alınması ilə bağlı yazılı sorğular vermək;";

4.18.2. beşinci abzasa "rəy" sözündən sonra "və məlumatlar" sözləri əlavə edilsin;

4.18.3. yeddinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"kassasiya instansiyası məhkəməsində özü-özünü təmsil etmək.";

4.19. aşağıdakı məzmunda 15-1-ci və 15-2-ci maddələr əlavə edilsin:

"Maddə 15-1. **Vəkil orderi**

I. Vəkil orderi vəkil qurumu və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən vəkilə verilən, özündə tapşırıq üzrə istintaq (təhqiqat), prokurorluq orqanında və ya bir məhkəmə instansiyasında (işin mahiyyəti ilə əlaqəli olmayan məhkəmə aktlarından apellyasiya və kassasiya instansiyasına verilən şikayətlər üzrə məhkəmə iclasları istisna olmaqla) təmsilçilik və hüquqi yardımın göstərilməsini, hüquqi şəxslərdə təmsilçilik səlahiyyətlərinin verilməsini təsdiq edir.

II. Vəkil orderi dövlət hesabına göstərilən hüquqi yardıma görə təhqiqat, istintaq, prokurorluq orqanlarının və ya məhkəmənin müvafiq qərarı və ya müraciət edən şəxslə vəkil (vəkil qurumu) arasında hüquqi yardımın göstərilməsi ilə əlaqədar bağlanmış müqavilə əsasında verilir.

III. Dövlət hesabına göstərilən hüquqi yardıma görə verilən vəkil orderi vəkilin təmsilçilik səlahiyyətlərini müəyyən edən və vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin möhürü ilə təsdiq olunan sənəddir.

IV. Müqavilə əsasında verilən vəkil orderi vəkilin təmsilçilik səlahiyyətlərini müəyyən edən, vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin möhürü ilə təsdiq olunan və üzərində onun həqiqiliyini əks etdirən order markası olan sənəddir. Order markası özündə vəkil orderinin unikal seriya və nömrəsini əks etdirən xüsusi nişandır.

V. Vəkil orderinin və order markasının forması, hazırlanması, istifadə qaydası və order markasına görə ödənişin məbləği Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı) tərəfindən müəyyən olunur.

Maddə 15-2. **Vəkil sorğusu**

I. Vəkil sorğusu peşəkar hüquqi yardımın göstərilməsi üçün zəruri olan məlumatların (sənədlərin) əldə olunması məqsədilə dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, habelə qanuna uyğun olaraq fəaliyyət göstərən digər hüquqi və fiziki şəxslərə həmin şəxslərin səlahiyyət hədləri nəzərə alınmaqla vəkil tərəfindən verilən və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş hallarda cavablandırılmalı olan yazılı müraciətdir.

II. Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə başqa qayda nəzərdə tutulmadıqda vəkil sorğusu daxil olduğu gündən ən qısa müddətdə, lakin yeddi iş günündən gec olmayaraq cavablandırılmalıdır. Bu müddət ərzində sorğunun cavablandırılması mümkün olmadıqda, həmin müddət əlavə olaraq yeddi iş günü uzadıla bilər.

III. Vəkil tərəfindən göndərilən sorğuya onun sorğu göndərilən iş üzrə səlahiyyətli olduğunu müəyyən edən vəkil orderinin vəkil qurumunun rəhbəri və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən təsdiq olunmuş surəti əlavə olunur. Vəkil sorğusu vəkil qurumunun sorğu göndərən vəkili və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən müvafiq blankda çap və imza edilməklə, habelə vəkil qurumunun rəhbəri və fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən möhürlənməklə təsdiqlənir.";

4.20. 16-cı maddə üzrə:

4.20.1. I hissə üzrə:

4.20.1.1. birinci abzasda "Peşə fəaliyyətini həyata keçirərkən" sözləri "Vəkillər Kollegiyasına üzv olduğu dövrdə" sözləri ilə əvəz edilsin;

4.20.1.2. ikinci abzasa "tələblərini" sözündən sonra "rəhbər tutmalı və" sözləri əlavə edilsin;

4.20.1.3. dördüncü abzas ləğv edilsin;

4.20.1.4. yeddinci abzasa "vəkil" sözündən əvvəl "qanunla müəyyən edilmiş hallar istisna olmaqla" sözləri əlavə edilsin;

4.20.1.5. səkkizinci abzas on ikinci abzas hesab edilsin və aşağıdakı məzmunda səkkizinci - on birinci abzaslar əlavə edilsin:

"üzvlük haqqını hər ay ödəməlidir;

normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada və hallarda hüquqi yardım haqqını ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə dövlət hesabına hüquqi yardım göstərməlidir;

il ərzində minimal icbari tədris saatlarını toplamalıdır;

Vəkillər Kollegiyası orqanlarının bu Qanuna əsasən müəyyən etdiyi qaydalara əməl etməli və həmin orqanların qəbul etdiyi qərarları icra etməlidir;";

4.20.2. III hissə aşağıdakı redaksiyada verilsin:

"III.Vəkilin mülki işlər, kommersiya mübahisələri, inzibati icraat üzrə, inzibati xətalar haqqında işlər və ya cinayət işləri üzrə icraatda müvafiq olaraq nümayəndə və müdafiəçi qismində iştirakını istisna edən hallar Azərbaycan Respublikasının prosessual qanunvericiliyi və inzibati xətalar haqqında qanunvericiliyi ilə müəyyən edilir.";

4.20.3. IV hissəyə "şəxslərə" sözündən sonra ", habelə dövlət orqanlarına (qurumlarına)" sözləri əlavə edilsin;

4.21. 16-1-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Vəkillər öz peşə hazırlığı və ixtisaslarının artırılması məqsədilə il ərzində icbari qaydada Vəkillər Kollegiyası üzvlərinin ümumi yığıncağının (konfransının) müəyyən etdiyi müddətdən az olmamaqla müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsinin təşkil etdiyi tədris tədbirlərində və ya digər tədris tədbirlərində iştirak edirlər.";

4.22. 17-ci maddə üzrə:

4.22.1. I hissə aşağıdakı redaksiyada verilsin:

"I. Vəkilin peşə vəzifələrinin həyata keçirilməsi ilə əlaqədar aldığı məlumatlar, verdiyi məsləhətlər, hazırladığı hüquqi sənədlər, rəylər və arayışlar, habelə hüquqi yardım üçün müraciət faktı, hüquqi yardım haqqında bağladığı müqavilənin mətni və müqavilənin bağlanılması faktı, müraciətin mahiyyəti, vəkilin göstərdiyi hüquqi xidmətdən imtina edildikdə imtinanın əsasları vəkil sirrini təşkil edir. Vəkildən imtina edilməsi vəkil sirrinin açıqlanması üçün əsas ola bilməz. Vəkil sirri təşkil edən məlumatların vəkillərdən, vəkil köməkçisindən, vəkil qurumlarından, eləcə də vəkil kimi fəaliyyət göstərdiyi dövr üzrə fəaliyyəti dayandırılmış və ya fəaliyyətinə xitam verilmiş vəkillərdən tələb edilməsi yolverilməzdir.";

4.22.2. III hissədə "qanunvericiliyi" sözü "normativ hüquqi aktları" sözləri ilə əvəz edilsin;

4.23. 18-ci maddənin mətnində "Vəkil peşə fəaliyyətini həyata keçirərkən" sözləri "Vəkillər Kollegiyasına üzv olduğu dövrdə vəkil" sözləri ilə, "Kollegiyasının Ümumi yığıncağı tərəfindən qəbul olunmuş Vəkillərin" sözləri "Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı) tərəfindən qəbul olunmuş Vəkillərin etik" sözləri ilə əvəz edilsin;

4.24. 19-cu maddə üzrə:

4.24.1. I hissədən "Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun vəkil (vəkillər) tərəfindən yaradılmış" sözləri çıxarılsın;

4.24.2. III hissənin üçüncü cümləsində "Vəkilin xidmətlərini" sözləri "Hüquqi yardım haqqını" sözləri ilə, "qanunvericiliyi" sözü "normativ hüquqi aktları" sözləri ilə əvəz edilsin;

4.25. 20-ci maddə üzrə:

4.25.1. I hissənin birinci cümləsinə "şəxslərə və" sözlərindən sonra "qanunla müəyyən edilmiş digər hallarda" sözləri əlavə edilsin və həmin cümlədə "vəkilin xidmətlərini" sözləri "hüquqi yardım haqqını" sözləri ilə əvəz edilsin;

4.25.2. II hissənin birinci abzasında "Vəkillər Kollegiyasının müəyyən olunmuş qaydada tərtib edilən" sözləri "vəkillərin" sözü ilə əvəz edilsin;

4.26. 21-ci maddə üzrə:

4.26.1. I hissə üzrə:

4.26.1.1. "tərəfindən peşə vəzifələrinin həyata keçirilməsi ilə bağlı yol verilən intizam pozuntularına dair" sözləri "barəsində verilən" sözləri ilə əvəz edilsin;

4.26.1.2. aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Vəkillərin İntizam Komissiyasının səlahiyyət müddəti beş ildir.";

4.26.2. II hissədə "Kollegiyasının Ümumi yığıncağı" sözləri "Kollegiyası üzvlərinin ümumi yığıncağı (konfransı)" sözləri ilə əvəz edilsin;

4.26.3. aşağıdakı məzmunda III hissə əlavə edilsin:

"III. Barəsində intizam icraatı aparılan vəkillər intizam icraatı zamanı qanunla və Vəkillərin İntizam Komissiyasının Əsasnaməsi ilə təsbit olunan hüquq və vəzifələrə malikdirlər.";

4.27. 22-ci maddə üzrə:

4.27.1. I hissə aşağıdakı redaksiyada verilsin:

"I. Vəkil tərəfindən bu Qanunun və digər normativ hüquqi aktların və Vəkillərin etik davranış qaydaları haqqında Əsasnamənin tələblərinin pozulması, habelə vəkilin il ərzində minimal icbari tədris saatlarının toplanmaması halları aşkar olunduqda, o, intizam məsuliyyətinə cəlb edilir.";

4.27.2. III hissədə "altı ay" sözləri "bir il" sözləri ilə, "bir" sözü "iki" sözü ilə əvəz edilsin;

4.27.3. V və VI hissələr aşağıdakı redaksiyada verilsin:

"V. Vəkillərin İntizam Komissiyası intizam icraatının başlandığı gündən üç ay müddətində vəkilin iştirakı ilə araşdırma aparır və müvafiq rəyini Vəkillər Kollegiyasının Rəyasət Heyətinə təqdim edir. Əlavə araşdırmanın aparılmasına zərurət yaranarsa, həmin müddət üç ayadək uzadıla bilər.

VI. Vəkillərin İntizam Komissiyasının rəyi əsasında Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən vəkilə aşağıdakı intizam tənbehlərindən biri tətbiq edilə bilər:

xəbərdarlıq;

töhmət;

üzvlük haqqının 10 misli həcmində cərimə;

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsində göstərilən hüquqpozmalara təkrarən yol verilməsinə və ya vəkil etikasına dair tələblərin üç dəfədən artıq pozulmasına görə pozuntunun dərəcəsindən və vəkilin peşəkarlıq səviyyəsindən, stajından, əvvəllər intizam tənbehi alıb-almamasından asılı olaraq üç aydan bir il müddətinədək vəkillik fəaliyyəti ilə məşğul olmanın dayandırılması;

vəkil adına ləkə gətirməklə vəkil peşəsinin nüfuzuna xələl gətirən hərəkətə yol verilməsinə və ya icraatında olan işlə bağlı normativ hüquqi aktların tələblərini kobud və ya mütəmadi olaraq pozmaqla təmsil etdiyi şəxsin maraqlarına ziyan vurulmasına görə Vəkillər Kollegiyasının üzvlüyündən xaric edilmə.";

4.27.4. aşağıdakı məzmunda VI-I hissə əlavə edilsin:

"VI-I. Vəkillər barəsində intizam icraatı aparılarkən bu Qanunla yanaşı Vəkillərin etik davranış qaydaları haqqında Əsasnamənin və Vəkillərin İntizam Komissiyası haqqında Əsasnamənin tələbləri rəhbər tutulur.

Vəkilin hərəkətində pozuntu müəyyən edilmədikdə və ya icraata başlama müddəti keçdikdə intizam icraatı başlanılmır və ya başlanılmış icraata xitam verilir.";

4.27.5. VII hissədən ikinci cümlə çıxarılsın;

4.27.6. VIII hissə ləğv edilsin;

4.27.7. aşağıdakı məzmunda IX hissə əlavə edilsin:

"IX. Vəkillər Kollegiyası Rəyasət Heyətinin intizam tənbehi barədə qərarından bir ay müddətində məhkəməyə şikayət verilə bilər.";

4.28. 23-cü maddə üzrə:

4.28.1. I hissənin doqquzuncu abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

"Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə.";

4.28.2. II hissənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Vəkilin fəaliyyətinə xitam verilməsi barədə Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarından bir ay müddətində məhkəməyə şikayət verilə bilər.";

4.29. 24-cü maddənin I hissəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Vəkillər Kollegiyasının vəsaiti daxil olan üzvlük haqqından, order markasına görə ödənişdən, bu Qanunun 16-cı maddəsinin II hissəsində nəzərdə tutulmuş vəsaitdən və qanunla qadağan edilməyən digər mənbələrdən formalaşır.";

4.30. 25-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Vəkillərin pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2025-ci il*

## "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 281-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 281-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1."Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin I hissəsinin üçüncü abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2.həmin Qanunun 8-ci maddəsinin I hissəsinin birinci abzasında, IV hissəsinin birinci abzasının ikinci cümləsində və 16-1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 31oktyabr tarixli 281-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 254 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 33 (Cild I) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"2. Müəyyən edilsin ki:

2.1. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin I hissəsinin üçüncü abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 20-ci maddəsinin I hissəsinin dördüncü cümləsində müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 13-cü maddəsinin III hissəsinin ikinci cümləsində və "Keçid müddəaları"nın III hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;

2.4. həmin Qanunun 8-ci maddəsinin I hissəsinin birinci abzasında, IV hissəsinin birinci abzasının ikinci cümləsində və 16-1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsi" dedikdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası nəzərdə tutulur.".

4. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 102 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 610 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

5. "Məhkəmələr və hakimlər haqqında", "Bələdiyyə qulluğu haqqında", "Prokurorluq haqqında", "Notariat haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Bələdiyyə üzvünün statusu haqqında", "Dövlət qulluğu haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 23 noyabr tarixli 185 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 11, maddə 888 (Cild I) 2-ci hissəsindən "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin birinci hissəsinin birinci cümləsində və 16-1-ci maddəsində," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 noyabr 2025-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Əziz qardaşım.

Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə "Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu iştirakı haqqında" qərarın yekdilliklə qəbul edilməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sözsüz ki, bu, tarixi miqyasda hadisədir. O, Mərkəzi Asiya və Azərbaycanın vahid geosiyasi və geoiqtisadi məkana çevrilməsini, beləliklə, xalqlarımızın və dövlətlərimizin qardaşlıq, mehriban qonşuluq, bərabərhüquqlu və əməkdaşlıq zəminində güclü birliyini, onların ayrılmazlığı və bölünməzliyi üzrə tarixi talelərinin düzgün qavranılmasını təcəssüm etdirir.

Qəti əminəm ki, qəbul edilən qərar tamamilə qanunauyğundur, Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın tarixi inkişaf yolunu, onların zəruri ehtiyaclarını və həqiqi maraqlarını obyektiv şəkildə əks etdirir.

Əsrlər boyu xalqlarımızı coğrafi qonşuluq, ortaq sivilizasiya kökləri, mədəniyyət, adət-ənənə və mənəvi dəyərlərin yaxınlığı birləşdirib. Bununla da müstəqillik şəraitində qarşılıqlı münasibətlərin nadir arxetipik nümunəsi yaradılıb və bu gün o, hazırkı və gələcək kontinental proseslərin inkişafında - siyasətdə, iqtisadiyyatda, sosial məsələlərdə və humanitar sahələrdə güclü amildir.

Məhz Mərkəzi Asiya və Azərbaycan transkontinental, çoxvektorlu qarşılıqlı əlaqədə əsas vəsilə olmaq vəzifəsini öz öhdələrinə götürüblər, bu olmadan tarazlaşdırılmış, uğurlu və davamlı müasir iqtisadi arxitekturanın yaradılması mümkün deyil. Artıq ölkənizin bu ali məqsədin reallaşmasında iştirakı əlavə güclü siyasi-hüquqi təməllə möhkəmləndirilib.

Əziz qardaşım, Məşvərət Görüşü formatı bütün iştirakçılar üçün sülh, etimad, harmoniya, mehriban qonşuluq və qarşılıqlı faydalı tərəfdaşlığın təmin edilməsi üçün vacib platforma rolunu oynayır. Fəxr edirəm ki, Türkmənistan bu siyasi qarşılıqlı fəaliyyət formasının başlanğıcında dayanıb. Ölkəmizin Məşvərət Görüşünün yaradılması təşəbbüsü on beş ildən də çox əvvəl Özbəkistanda elan edilib və tam şəkildə dəstəklənib.

Növbəti addım Qazaxıstanda ilk rəsmi Məşvərət Görüşü oldu, burada çoxtərəfli dialoqun ideoloji təməlləri qoyuldu, onun uzunmüddətli məqsədləri və perspektivləri müəyyən edildi.

Bunun ardından razılaşdırılmış plana uyğun olaraq görüşlər Türkmənistanda, Qırğızıstanda və Tacikistanda keçirildi. Regiondaxili əməkdaşlığın əsas məsələləri və beynəlxalq gündəlik etimad əsasında və açıq atmosferdə müzakirə edildi, əhəmiyyətli qərarlar və razılaşmalar əldə olundu. Zaman bu formatın yaradılmasının düzgünlüyünü, onun aktuallığını və səmərəliliyini, xalqların və istisnasız olaraq bütün iştirakçı dövlətlərin fundamental maraqlarına uyğunluğunu göstərdi.

Qarşılıqlı anlaşmanın inkişafında, Məşvərət görüşlərinin əhəmiyyətinin və nüfuzunun artmasında yeni bir mərhələ Mərkəzi Asiya Dövlət Başçılarının Fəxri nişanının təsis edilməsi idi. Onun ilk laureatı Tacikistan Respublikasının Prezidenti oldu.

Hörmətli İlham Heydər oğlu, mənim üçün xüsusi qürur və şərəf hissi doğuran fakt ondan ibarətdir ki, ölkəmizin təklifi ilə bu ilin avqust ayında "Avaza" Milli Turizm Zonasında BMT-nin Dənizə Çıxışı Olmayan İnkişaf Etməkdə Olan Ölkələr üzrə üçüncü Konfransı (UNCLDC) zamanı Mərkəzi Asiya Dövlət Başçılarının növbədənkənar Məşvərət Görüşü təşkil edildi. Məhz bu görüşdə Türkmənistan Azərbaycanın Məşvərət Görüşünə tamhüquqlu üzv kimi qoşulmasını və bununla da bu formatda əsas iştirakçıya çevrilməsini, əlaqələrini və qardaş xalqlar ailəsinə hərtərəfli inteqrasiyasını daha da gücləndirməsini təklif etdi. Böyük sevinc hissi ilə qeyd etmək istəyirəm ki, bu təşəbbüs Daşkənddə Mərkəzi Asiya ölkələrinin prezidentləri tərəfindən tam dəstəklənib və ortaq rifaha doğru irəliləyişimiz üçün olduqca əhəmiyyətli və perspektivli bir fakta çevrilib.

İnanıram ki, Sizin ölkənizin siyasi nüfuzunu, onun nəhəng resurs, sənaye, texnoloji potensialını, mədəni və humanitar sahələrdə əldə olunmuş nailiyyətlərini nəzərə alaraq, Azərbaycanın Məşvərət görüşləri formatına qoşulması ölkələrimizin və xalqlarımızın hərtərəfli yaxınlaşmasında həlledici amil, müasir regional və beynəlxalq inkişaf istiqamətlərində fəal iştirakın stimulu olacaq, məsuliyyətli, vahid mövqedən çıxış edən tərəfdaşlar, qlobal koordinasiya sistemində özünün layiqli rolunu və yerini dərk edən, qarşıya qoyulan məqsədlərə birlikdə çatmağa hazır olan Mərkəzi Asiya dövlətlərinin və Azərbaycanın rolunu, çəkisini artıracaq.

Hörmətli İlham Heydər oğlu, Sizi gələn il Türkmənistanda keçiriləcək Mərkəzi Asiya Dövlət Başçılarının 8-ci Məşvərət Görüşündə əziz qardaş və dost qismində gözləyirik.

Ən səmimi təbriklərimi qəbul etməyinizi bir daha xahiş edirəm.

Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti vəzifənizdə və beynəlxalq fəaliyyətinizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, səadət, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri, Mərkəzi Asiya Dövlət Başçılarının Fəxri nişanının laureatı***

## K.B.Əliyevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının prokurorluq orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Kamran Bayram oğlu Əliyev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 noyabr 2025-ci il*

## "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə əlaqədar maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət, habelə dövlət büdcəsindən və qanunla qadağan olunmayan digər mənbələrdən kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə əlaqədar ayrılan vəsaitin istifadəsi üzərində maliyyə nəzarəti tədbirlərinin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 10 dekabr tarixli 85-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1."Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə əlaqədar maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət, habelə dövlət büdcəsindən və qanunla qadağan olunmayan digər mənbələrdən kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti ilə əlaqədar ayrılan vəsaitin istifadəsi üzərində maliyyə nəzarəti tədbirlərinin həyata keçirilməsi Qaydası" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 noyabr 2025-ci il*

## Ceyhun Bayramov ABŞ Dövlət katibinin müavini ilə regional məsələlər ətrafında fikir mübadiləsi aparıb

**Noyabrın 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Hukerlə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan-ABŞ ikitərəfli əməkdaşlığının cari vəziyyəti və inkişaf perspektivləri, Azərbaycan-Ermənistan sülh prosesi, eləcə də regional və qlobal təhlükəsizlik məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Avqustun 8-də tarixi Vaşinqton görüşü zamanı əldə edilmiş razılıqlar məmnunluqla xatırlanaraq iki ölkə arasında strateji tərəfdaşlığın inkişafı istiqamətində birgə səylərin vacibliyi qeyd olunub. Regional sabitlik, enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərinin genişləndirilməsi sahəsində əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti vurğulanıb. Bu çərçivədə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" üzrə işlərin sürətləndirilməsində maraqlı olduğumuz diqqətə çatdırılıb.

Qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupunun fəaliyyət istiqamətləri nəzərdən keçirilib, ikitərəfli praktiki əməkdaşlıq üçün institusional çərçivənin təsis edilməsinin vacibliyi diqqətə çatdırılıb.

Cənubi Qafqaz regionunda sülh və sabitlik gündəliyi, ikitərəfli və çoxtərəfli platformalar çərçivəsində qarşıdakı dövr üçün fəaliyyət istiqamətləri müzakirə olunub.

Ceyhun Bayramov qarşı tərəfə normallaşma prosesi çərçivəsində atılan addımlar, postmünaqişə dövründə bərpa-quruculuq işləri barədə məlumat verib.

Görüşdə həmçinin Yaxın Şərqdə vəziyyət və qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"

**Azərbaycanın Almaniyadakı səfirliyinin, Alman İqtisadiyyatının Şərq Komitəsinin və "Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti"nin birgə təşkilatçılığı ilə Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi üzrə təqdimat keçirilib.**

AZƏRTAC xəbər verir ki, ölkəmizin Almaniyadakı səfiri Nəsimi Ağayev tədbirdə çıxış edərək, Azərbaycan-Almaniya münasibətlərinin bir çox istiqamətdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyini diqqətə çatdırıb. Diplomat Prezident İlham Əliyevin son iki ildə Almaniyaya dörd dəfə səfər etməsinin, Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin bu ilin aprelində ölkəmizə ilk rəsmi səfərinin ikitərəfli münasibətlərin yüksək səviyyəsinin göstəricisi olduğunu vurğulayıb. Almaniyanın yeni hökuməti ilə dialoqun da yüksələn xətt üzrə davam etdiyini bildirən diplomat alman iqtisadiyyatının Azərbaycana artan marağının bu dinamikanı daha da möhkəmləndirdiyini qeyd edib. Bu kontekstdə Azərbaycanın regionda artan geosiyasi və geoiqtisadi çəkisinin, Mərkəzi Asiya ölkələrinin əməkdaşlıq formatına qoşulmasının, Orta dəhlizdə oynadığı açar rolun, Ermənistanla sülh müqaviləsi istiqamətində sürətli irəliləyişin və nəqliyyat-logistika sahəsinin inkişafının Almaniyanın bu strateji bölgədə iqtisadi iştirakı üçün geniş imkanlar yaratdığı diqqətə çatdırılıb.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamasından söz açan N.Ağayev Azərbaycanın hazırda Avropanın 10 ölkəsinə qaz tədarük etdiyini qeyd edib. Diplomat ildə 3 milyard kubmetrlik Azərbaycan qazının Almaniyaya ixracını nəzərdə tutan müqavilələrin əhəmiyyətini vurğulayaraq, bunun enerji sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından önəmini qeyd edib. Səfir, eyni zamanda "yaşıl enerji"yə keçid sahəsində ölkəmizin son illərdə qazandığı nailiyyətləri qeyd edərək, əldə olunacaq enerjinin Avropaya ixracı layihəsinin böyük perspektivlər vəd etdiyini və bu sahədə də alman şirkətlərinin fəal iştirakının arzuedilən olduğunu vurğulayıb.

Alman İqtisadiyyatının Şərq Komitəsinin Şərqi Avropa üzrə regional direktoru Alena Akuliç çıxışında assosiasiyanın fəaliyyət istiqamətləri və Azərbaycanla iqtisadi əməkdaşlığın genişlənən gündəliyi barədə məlumat verib. O bildirib ki, Komitə Cənub-Şərqi Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiyada fəaliyyət göstərən 350-dən çox alman şirkətini dəstəkləyir və bu iş Almaniya hökuməti, tərəfdaş qurumlar, eləcə də Azərbaycanın Almaniyadakı səfirliyi ilə səmərəli əməkdaşlıq şəraitində həyata keçirilir.



A.Akuliç Azərbaycanın regionda aparıcı iqtisadi platforma kimi yüksələn rolunu qeyd edərək, tərəfdaşlığın əsas istiqamətlərinin "yaşıl enerji", rəqəmsal transformasiya, innovasiya və institusional islahatların dəstəklənməsi olduğunu bildirib. O bu il imzalanan ticarət, iqtisadiyyat və investisiyalara dair birgə yol xəritəsində kimya sənayesi, səhiyyə, rəqəmsallaşma və "yaşıl keçid" üzrə 10-dan çox konkret layihənin əksini tapdığını qeyd edib.

Regional direktor "Yaşıl Enerji Dəhlizi" üzrə üçtərəfli və çoxtərəfli əməkdaşlıq imkanlarının genişləndirilməsi, eləcə də yeni layihələrin işə salınması perspektivlərinin komitə üçün prioritet istiqamətlərdən olduğunu qeyd edərək, Bakıya son səfəri zamanı bir sıra müqavilələrin imzalanmasının biznes marağının artmasını göstərdiyini deyib.

Sonra "Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti"nin (GECO) baş direktoru Fərhad Məmmədov "Yaşıl Enerji Dəhlizi" və layihənin reallaşması istiqamətində görülən işlər, eləcə də bu prosesdə Azərbaycanın fəal rolu barədə geniş təqdimatla çıxış edib.

Qeyd olunub ki, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanı birləşdirən "Yaşıl Enerji Dəhlizi" bu dörd ölkənin təmiz və təhlükəsiz enerjinin ötürülməsi üzrə ortaq strateji baxışına əsaslanır. Sazişin 2022-ci ildə imzalanmasından sonra dörd ölkə arasında 11 nazirlər görüşü keçirilib, texniki-iqtisadi əsaslandırma üzrə razılaşma əldə olunub və birgə müəssisə yaradılıb.

F.Məmmədov qeyd edib ki, Avropa İttifaqının layihəni prioritet dənizüstü enerji dəhlizləri sırasında tanıması İttifaqın bölgəyə və layihəyə siyasi dəstəyini nümayiş etdirir.

Məlumat verilib ki, ümumi uzunluğu 3 min kilometr olan dəhliz vasitəsilə "yaşıl enerji" Qara dənizin dibi ilə Avropaya ötürüləcək. Bu kabel vasitəsilə ildə təxminən 4 qiqavat gücündə "yaşıl enerji"nin Avropaya ötürülməsi planlaşdırılır. Hazırda layihə Avropa Elektrik Ötürücü Sistem Operatorları Şəbəkəsinin (ENTSO-E) növbəti Onillik Şəbəkə İnkişaf Planına (TYNDP) daxil edilmə, qarşılıqlı maraq doğuran layihə statusu alma və genişləndirilmiş texniki-iqtisadi əsaslandırma mərhələsindədir.

Baş direktor həmçinin dənizaltı kabel texnologiyaları, istehsalçı şirkətlərlə danışıqlar, potensial tərəfdaşlıq modelləri və layihənin reallığa çevrilməsi mərhələsi üçün mümkün inkişaf variantları barədə məlumat verib. Bundan əlavə, layihənin uğurla icrası üçün qarşıdakı dövrdə müxtəlif maraqlı tərəflər və potensial enerji alıcıları ilə əməkdaşlığın daha da gücləndiriləcəyi vurğulanıb.

Daha sonra Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) törəmə müəssisəsi olan "SOCAR Green"in baş direktoru Elmir Musayev şirkətin bərpaolunan enerji sahəsində fəaliyyəti barədə təqdimatla çıxış edib. Bildirilib ki, SOCAR artıq yalnız neft-qaz sahəsində deyil, inteqrasiya olunmuş enerji şirkəti kimi fəaliyyət göstərir. Bu çərçivədə 2024-cü ilin martında yaradılmış "SOCAR Green" bərpaolunan enerji təşəbbüslərinə öncüllük edir. "SOCAR Green"in uğurlu əməkdaşlığından söz açan E.Musayev "Masdar", BP və Çin şirkətləri ilə irimiqyaslı layihələrin həyata keçirildiyini qeyd edib.

Ölkəmizin nəhəng bərpaolunan enerji potensialının mövcudluğunu və bu mənbələr hesabına enerji gücünün artırıldığını vurğulayan baş direktor bildirib ki, Azərbaycan özünü enerji keçidinə uyğunlaşdırır. Bu baxımdan Braziliyada Azərbaycan tərəfindən yeni "Milli Səviyyədə Müəyyən Edilmiş Töhfə"nin elan olunduğu qeyd edilərək bildirib ki, əvvəlki hədəf 2050-ci ilədək istixana qazı emissiyalarını 40 faizədək azaltmaq idisə, hazırda bu hədəfə 2035-ci ilə qədər nail olmaq qarşıya məqsəd qoyulub.

Çıxış və təqdimatlardan sonra tədbir iştirakçılarının sualları cavablandırılıb və mövzu ətrafında səmərəli müzakirələr aparılıb.

## Milli Məclisin iclasında

# 2026-cı ilin dövlət büdcəsi layihəsinin müzakirəsi başladı





*Əvvəli 1-ci səh.*

Milli Məclisin Sədri vurğulayıb ki, azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri xüsusi olaraq qeyd edilməlidir. Bu gün Qarabağda və Şərqi Zəngəzurda innovasiyalar və enerji səmərəliliyi üzərində qurulan yeni iqtisadi model formalaşır.

Qeyd edilib ki ölkəmizdə sosial sahəyə böyük diqqət yetirilir. İnsanların rifah halının daha da yaxşılaşdırılması, əhalinin gəlirlərinin artırılması üçün lazımi tədbirlər görülür. Qlobal çağırışların gücləndiyi şəraitdə Azərbaycan nəinki maliyyə intizamını qoruyub saxlayıb, həm də büdcə gəlirlərinin artımını, büdcə xərclərinin sosial yönümünü və maliyyə ehtiyatlarının möhkəmlənməsini təmin edib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib edib ki, 2026-cı ilin dövlət büdcəsi ölkəmizin sosial-iqtisadi inkişaf dinamikasını əks etdirir və iqtisadi sabitliyin daha da mökəmləndirilməsinə, insanların sosial müdafiəsinin gücləndirilməsinə yönəlib.

Gələn il üçün dövlət büdcəsinin gəlirləri 38,6 milyard manat, xərcləri 41,7 milyard manat məbləğində proqnozlaşdırılıb. Nəzərdə tutulan dövlət büdcəsi gəlirlərinin 57,4 faizi qeyri-neft-qaz sektorunun payına düşəcək.

O bildirib ki, 2025-ci ilin proqnoz göstəricisi ilə müqayisədə qeyri- neft-qaz sektorunun gəlirləri təqribən 11 faiz çox olacaq. Həmişə olduğu kimi, dövlət büdcəsinin prioritetləri ölkənin milli təhlükəsizliyinin və müdafiə potensialının gücləndirilməsi, Silahlı Qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması, sosial müdafiə, təhsil, işğaldan azad olunmuş ərazilərin bərpası və Böyük qayıdışın həyata keçirilməsi ilə bağlı olacaq. Əminliklə söyləmək olar ki, Azərbaycan hökumətinin səmərəli fəaliyyəti büdcə siyasətinin bütün istiqamətlərində qarşıya qoyulan hədəflərin əldə olunmasına imkan yaradacaq.

Spiker diqqətə çatdırıb ki, 2026-cı ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan sənədlər parlament komitələrinin iclaslarında geniş müzakirə olunub və Milli Məclisin plenar iclasına tövsiyə edilib. Son illərdə yaranmış ənənəyə uyğun olaraq, parlamentdə təmsil olunan siyasi partiyaların rəhbərləri və nümayəndələri İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasına dəvət edilib və iclasda onların hər birinə öz fikirlərini ifadə etməsi üçün şərait yaradılıb.

Hesablama Palatası büdcə zərfi barəsində müsbət rəyini bildirib.

Milli Məclisin Sədri müzakirələrin səmərəli olacağına inamını ifadə edib və millət vəkillərini müzakirələrdə fəal iştiraka dəvət edib.

Sonra iclasda parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov çıxış edib. O bu gün öz dövlət suverenliyini, iqtisadi müstəqilliyini əldə etmiş Azərbaycanın qətiyyətli, ləyaqətli və nüfuzlu dövlətə çevrildiyini vurğulayıb. Ölkəmizdə siyasi və iqtisadi müstəqilliyin uzlaşdırılmasının dövlət siyasətinin əsas prinsiplərindən biri kimi müəyyən edildiyini deyərək, Prezident İlham Əliyevin bu siyasətin mahiyyəti ilə bağlı səsləndirdiyi "İqtisadiyyatımız nə qədər güclü olsa, bizim siyasi addımlarımız da o qədər cəsarətli və uğurlu olacaqdır... İqtisadi müstəqillik siyasi müstəqilliyimiz üçün əsas şərtdir..." kimi fikirlərinin önəmli olduğunu qeyd edib.

Komitə sədri 2026-cı ilin büdcə layihəsinin dövlət başçısının iradəsini, irəli sürdüyü təşəbbüsləri, müəyyən etdiyi strateji vəzifələri özündə əks etdirdiyini və onların reallaşdırılması üçün maliyyə təminatını yaratdığını bildirib. O, büdcənin gəlir və xərcləri barədə söhbət açaraq, büdcə zərfinin makroiqtisadi sabitliyi səciyyələndirən proqnozlara əsaslandığını, növbəti ildə iqtisadi artımın 2,9 faiz, orta illik inflyasiya səviyyəsinin 4,8 faiz nəzərdə tutulduğunu, qlobal iqtisadi təsirlərə baxmayaraq, iqtisadiyyatımızı konyunktur risklərdən sığortalamaq üçün ölkəmizin 82,5 milyard dollarlıq strateji valyuta ehtiyatlarına malik olduğunu deyib. Qeyd edib ki, Böyük qayıdış proqramının icrasına növbəti il üçün planlaşdırılan 3,5 milyard manat da nəzərə alınmaqla, 2020-2026-cı illərdə 25,3 milyard manat büdcə vəsaiti ayrılıb. Təsdiq edilmiş iqtisadi inkişaf strategiyasının və digər dövlət proqramlarının da icrası üçün milyardlarla manat vəsaitə ehtiyac var. Belə bir şəraitdə, büdcə prosesinə rasional və realistik yanaşma zərurəti yaranır.

Diqqətə çatdırılıb ki, büdcə zərfinin əsas xüsusiyyətlərindən biri, ənənəvi olaraq, onun sosial xarakteri ilə bağlıdır. Sosialyönümlü xərclərin17,1 milyard manat olmaqla dövlət büdcəsi xərclərinin 41 faizini təşkil etməsi sosial siyasətin növbəti ildə də prioritetliyini ifadə edir. Eyni zamanda təhsil, sosial müdafiə və təminat xərcləri üzrə artımlar nəzərdə tutulur. Bu artımlar icmal səhiyyə xərclərini də əhatə edir. Qeyd edilib ki, növbəti ilin büdcə zərfi həm də təhlükəsizlik büdcəsidir. Layihədə müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə 8,7 milyard manat nəzərdə tutulur. Müdafiə qabiliyyətimizin gücləndirilməsi, müasir ordu quruculuğu prosesinin hələ davam etməsi büdcə vasitəsilə hərbi gücün artırılmasını tələb edir.

Azər Əmiraslanov söyləyib ki, son illər milli iqtisadiyyatımızda nəzərə çarpan ciddi struktur dəyişikliklərinin büdcə zərfini müşayiət etməsi onun vacib xüsusiyyətlərindən biridir. Belə ki, növbəti ildə neft-qaz ÜDM-nin 2,4 faiz azalması fonunda qeyri-neft qaz ÜDM 5 faizlik artımla proqnozlaşdırılır. Bununla da, ölkə iqtisadiyyatının strukturunda qeyri-neft-qaz sektorunun payının 2025-ci ildəki 72 faizdən 2026-cı ildə 76 faizə, 2029-cu ildə isə 80 faizə çatacağı gözlənilir. Neft sektorunda azalmanın qeyri-neft iqtisadiyyatında artımla müşayiət edilməsi, ÜDM-də özəl bölmənin payının 81 faizə, təkcə xidmət sektorunun payının isə 43 faizə çatması, hərbi sənayenin inkişafı, nəqliyyat-tranzit potensialının reallaşması ölkəmizdə iqtisadi artımın keyfiyyətini yüksəltməkdədir.

Komitə sədri qeyd edib ki, 2026-cı il üzrə proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin 43 faizi və ya 16,4 milyard manatı neft, 57 faizi və ya 22,2 milyard manatı qeyri-neft iqtisadiyyatının payına düşür. 2025-ci ilin proqnozu ilə müqayisədə neft-qaz gəlirləri 1,9 milyard manat və ya 10,2 faiz azaldığı halda, qeyri-neft-qaz iqtisadiyyatının gəlirləri 2,1 milyard manat və ya 10,6 faiz çox nəzərdə tutulur. Cari xərclərin qeyri-neft-qaz gəlirləri hesabına örtülməsi 2025-ci il üçün 81 faiz proqnozlaşdırıldığı halda, 2026-cı ildə onun 88 faizə, 2029-cu ildə 100 faizə çatdırılması nəzərdə tutulur. Bununla yanaşı, qeyd olunub ki, Dövlət Neft Fondunun, hətta transfertləri nəzərə alınmasa belə, büdcə gəlirləri artım dinamikasına malikdir. Belə ki, transfertsiz büdcə gəlirləri 2023-cü ildə 23,5 milyard manat təşkil etdiyi halda, cari ilin sonuna 24,7 milyard manat, 2026-cı ildə isə 25,8 milyard manat gözlənilir.

Azər Əmiraslanov deyib ki, dövlətin gəlir və xərclərinin konservativ artımı növbəti ildə nəzərdə tutulan büdcə siyasətinin mahiyyətindən və fəlsəfəsindən irəli gəlir. 2026-cı ildə gəlirlərin 253 milyon manat, xərclərin isə 296 milyon manat olmaqla 0,7 faizlik mühafizəkar artımı dövlət büdcəsinin zəif deyil, güclü tərəfidir. Bəzi göstəricilər qısamüddətli dövrdə zəif bənd təəssüratı yaratsa da, perspektiv dövrdə o güclü bənd kimi çıxış edir. O qeyd edib ki, büdcənin qiymətləndirmə meyarı onun artım dinamikası deyil, dayanıqlı olması, maliyyə resurslarının ünvanlı bölgüsü və səmərəli istifadəsidir. Büdcənin dinamikası iqtisadi artımla, inflyasiya səviyyəsi ilə uzlaşdırılmalıdır. Xərclərin daha az artımı maliyyə-büdcə problemini deyil, hökumət tərəfindən xərclərin optimallaşdırılması və maliyyə intizamının gücləndirilməsi təşəbbüslərini göstərir. Eyni zamanda nəzərə çatdırılıb ki, yeni büdcə zərfi vergi yükünün artırılmasını deyil, gəlir mənbələrini şaxələndirərək vergi bazasının genişləndirilməsini, kölgə iqtisadiyyatının daralmasını, vergi-gömrük təşviqləri vasitəsilə qeyri-neft sektorunun inkişafına təkan verilməsini nəzərdə tutur.

Azər Əmiraslanov "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin büdcə qanunvericiliyinin tələblərinə və ölkəmizin strateji inkişaf hədəflərinə cavab verdiyini bildirib.

İclasda çıxış edən maliyyə naziri Sahil Babayev müstəqillik tariximizin ən böyük büdcə zərfi olan 2026-cı ilin büdcə layihəsinin müzakirəsinin Şanlı Zəfərimizin beşinci ildönümünə təsadüf etdiyini söyləyib. Böyük qürurla qeyd etdiyimiz bu qələbənin məhz Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasəti, dövlət və ordu quruculuğunda həyata keçirilən ardıcıl islahatlar, eləcə də iqtisadi və maliyyə imkanlarımızın səmərəli səfərbər olunması nəticəsində əldə edildiyini vurğulayıb. Diqqətə çatdırılıb ki, təqdim edilən dövlət büdcəsinin xərc prioriteti kimi ilk sıralarda Böyük Qayıdışa dair I Dövlət Proqramı durur. Bu, Prezident tərəfindən qarşıya qoyulmuş ali vəzifədir və büdcə imkanları artdıqca, ilk növbədə azad edilmiş ərazilərdə quruculuq işlərini sürətləndirməli və insanların öz doğma yurdlarına qayıdışını daha tez təmin etməliyik. Bununla yanaşı, Cənubi Qafqaz regionunda sülhün və təhlükəsizliyin, Azərbaycanın haqlı mövqeyinin və maraqlarının müdafiəsi, ərazi bütövlüyümüzün və sərhədlərimizin toxunulmazlığı, müdafiə qabiliyyətimizin və milli təhlükəsizliyin daha da möhkəmləndirilməsi sahəsində maliyyə təminatı növbəti il üçün prioritet olaraq qəbul edilib.

Nazir bildirib ki, növbəti ildə Böyük qayıdış proqramı çərçivəsində işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulmasına büdcə xərclərinin 8,4 faizinə bərabər, yaxud 3,5 milyard manat məbləğində vəsait ayrılacaq. Müdafiə və milli təhlükəsizlik məqsədilə dövlət büdcəsi xərclərinin 21 faizi həcmində və ya 8,7 milyard manat məbləğində vəsait nəzərdə tutulur və bu, cari illə müqayisədə 319 milyon manat çoxdur. 2026-cı ildə dövlət büdcəsi xərclərinin 41faizi, cari xərclərin isə 68 faizi və yaxud 17,1 milyard manat sosialyönlü xərclərə yönəldiləcək. Bu, 2024-cü ilin icra göstəricisi ilə müqayisədə 2,5 milyard manat və ya 17 faiz çoxdur. Əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən xərclər üçün gələn ilin dövlət büdcəsində 4,9 milyard manat vəsait nəzərdə tutulur. Bu, 2025-ci ilə nisbətən 121 milyon manat, 2024-cü ilin icra göstəricisinə nisbətən isə 722 milyon manat çoxdur. Cari illə müqayisədə 151 milyon manat artımla proqnozlaşdırılan sosial müavinətlərə, təqaüdlərəvə digər sosial ödənişlərə 2,8 milyard manat vəsait sərf ediləcək. Keçmiş məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclər növbəti ildə 285 milyon manat proqnozlaşdırılır.

Bununla yanaşı, qeyd olunub ki, 2026-cı ilin dövlət büdcəsindən səhiyyə xərcləri üçün 2 milyard manat vəsait ayrılacaq ki, bu da 2024-cü ilin icra göstəricisinə nisbətən 11 faiz çoxdur. Bütövlükdə, gələn il üçün icmal büdcədən səhiyyə xərclərinə 3,7 milyard manat vəsait ayrılacaq. Təhsil və elm xərclərinə 5,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da 2024-cü ilin icra göstəriciləri ilə müqayisədə 658 milyon manat və ya 14,3 faiz çoxdur. Növbəti ildə dövlət sifarişi və dövlət hesabına kadr hazırlığı üzrə təhsil alanların sayı 150 min nəfərə, təqaüd alanların sayı isə 121 min nəfərə çatacaq. Gələn il əlilliyi olan, valideyin himayəsindən məhrum olmuş, şəhid ailələri və müharibə veteranı statusu almış güzəştli kateqoriyaya aid olan 18,5 min tələbənin təhsil və təqaüd xərcləri üçün 42 milyon manat vəsait proqnozlaşdırılır.

Növbəti ildə kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi ilə bağlı tədbirlərin maliyyə təminatı üçün dövlət büdcəsindən 1,2 milyard manat vəsait ayrılacaq. Qeyri-neft sektorunda investisiyaların və iqtisadi artımın dəstəklənməsi, o cümlədən enerji, qaz, su təchizatı, nəqliyyat, kənd təsərrüfatı, meliorasiya təyinatlı infrastrukturun, sosial-mədəni və digər layihələrin maliyyələşdirilməsi üçün dövlətəsaslı vəsait qoyuluşu xərclərinə 2,7 milyard manat nəzərdə tutulur.

Gələn il üçün dövlət büdcəsinin yerli xərcləri 759 milyon manat həcmində proqnozlaşdırılır. Görülən tədbirlər nəticəsində regionların dövlət büdcəsindən asılılığının aradan qaldırılması tendensiyası öz tempini qoruyur. Növbəti ildə cəmi 1 rayon üçün dotasiyanın ayrılmasına ehtiyac olacaq. 2026-cı il üçün bələdiyyə büdcələrinə13,5 milyon manat vəsait nəzərdə tutulur.

Maliyyə naziri nəzərə çatdırıb ki, 2026-cı ildə dövlət büdcəsinin gəlirləri 38,6 milyard manat məbləğində proqnozlaşdırılır. Gəlirlərin 22,2 milyard manatı və ya 57,4 faizi qeyri-neft sektoru üzrə daxilolmalar hesabına reallaşacaq və bu cari illə müqayisədə 2,1 milyard manat və ya 10,6 faiz çoxdur. Qeyri-neft sektorundan gəlirlərin 13,3 milyard manatını vergi orqanlarının, 6,9 milyard manatını gömrük orqanlarının xətti ilə daxilolmalar, 1 milyard manatını büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə daxilolmalar, 531 milyon manatını sair daxilolmalar, 450 milyon manatını isə dividendlər təşkil edəcək. Neft-qaz sektorundan gəlirlər isə 16,4 milyard manat və ya büdcə gəlirlərinin 42,6 faizi məbləğində proqnozlaşdırılır.

2026-cı ildə büdcə kəsiri 3,1 milyard manat məbləğində proqnozlaşdırılır.

Nazir habelə 2026-cı il üçün icmal büdcənin əsas göstəriciləri ilə bağlı məlumatı da təqdim edib. O bildirib ki, növbəti il üçün icmal büdcənin gəlirləri 45 milyard manat, xərcləri 48,8 milyard manat, kəsiri isə 3,9 milyard manat məbləğində proqnozlaşdırılır. 2026-cı il üçün Dövlət Neft Fondunun büdcəsinin gəlirləri və xərcləri eyni səviyyədə, 13 milyard manat məbləğində, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri 8,3 milyard manat, xərcləri 8,5 milyard manat, İcbari Tibbi Sığorta Fondunun büdcəsinin gəlirləri 2 milyard manat, xərcləri 2,6 milyard manat, İşsizlikdən Sığorta Fondunun büdcəsinin gəlirləri 238 milyon manat, xərcləri 266 milyon manat təşkil edəcək. Növbəti il üçün Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərcləri bərabər olmaqla 483 milyon manat məbləğində olacaq.

Sonra iclasda çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov ölkə iqtisadiyyatının son illər ərzində keçdiyi inkişaf yoluna nəzər salaraq, 2018-ci ildən başlayaraq vergi-gömrük və əmək bazarı sahəsində islahatlara start verildiyini, 2019-2025-ci illərdə ölkə iqtisadiyyatının inkişafında çox mühüm keyfiyyət və struktur dəyişiklikləri baş verdiyini söyləyib. Bildirib ki, bu dövr ərzində qeyri-neft-qaz sektorunun iqtisadiyyatda payı 2018-ci ildəki 58 faizdən cari ilin son tarixinə 70 faizə yüksəlib. 2019-2025-ci illərdə qeyri-neft-qaz sektorunda ÜDM-in nominal həcmi 2 dəfə, real həcmi isə 1,4 dəfə böyüyüb.

Nazir diqqətə çatdırıb ki, 2018-ci ilin faktiki göstəricisi ilə müqayisədə 2025-ci ilin təsdiq edilmiş dövlət büdcəsinin gəlirləri 1,7 dəfə, o cümlədən qeyri-neft-qaz gəlirləri 2,2 dəfə artıb. Qeyri-neft-qaz vergi daxilolmaları isə dövr ərzində 2,3 dəfə artıb. Qeyri-neft-qaz gəlirlərinin büdcədə payı 2018-ci ildəki 40,5 faizdən 2025-ci ilin təsdiq edilmiş büdcəsində 52 faizə yüksəlib, 2026-cı ilin büdcə layihəsində isə bu göstərici 57 faiz nəzərdə tutulub.1 yanvar 2019-cu il ilə müqayisədə 1 noyabr 2025-ci il tarixinə ölkədə aktiv vergi ödəyicilərinin sayı 2 dəfə artaraq 845 mini ötüb. 2019-2024-cü illərdə ölkədə qeyri-neft-qaz sənaye istehsalı 1,9 dəfə artıb.

Mikayıl Cabbarov təqdim edilən dövlət büdcəsi layihəsinin fiskal dayanıqlığın gücləndirilməsini hədəfləməklə, büdcə konsolidasiyası siyasətini, o cümlədən fiskal nəzarət mexanizminin gücləndirilməsini özündə ehtiva etdiyini deyib. Bildirib ki, ölkə Prezidentinin təşəbbüsü ilə əmək bazarında leqallaşma prosesinin davam etməsi üçün yaradılmış münbit şəraitin qorunması məqsədilə daha aşağı gəlirlərə aşağı vergi yükünün müəyyən edilməsi və bunun mərhələli şəkildə həyata keçirilməsi məqsədəuyğun hesab edilir. Bu çərçivədə qeyri-neft-qaz özəl sektorunda əmək haqlarının tədricən, mərhələli şəkildə vergiyə cəlb edilməsinə dair təklif verilib.

Habelə bildirilib ki, son illərdə dövlət büdcəsinin qeyri-neft-qaz gəlirlərinin, o cümlədən vergi daxilolmalarının artması vergi dərəcələrinin artırılması hesabına deyil, şəffaflaşma və keyfiyyətli inzibatçılıq sayəsində vergitutma bazasının genişlənməsi yolu ilə təmin edilib. Nəticədə iqtisadiyyatda, xüsusilə də qeyri-neft-qaz sektorunda vergitutma bazası genişlənib, büdcənin gəlir və xərclərinin artımı ilə yanaşı, əhalinin gəlirləri və müəssisələrin sərmayələri əhəmiyyətli dərəcədə artıb.

Nazir iqtisadi artım proqnozlarına dair nəzərə çatdırıb ki, ÜDM-in növbəti ildə 2,9 faiz, 2026-2029-cu illərdə orta illik hesabla 3,5 faiz, qeyri-neft-qaz ÜDM-in növbəti və ortamüddətli dövrdə isə orta illik hesabla 5 faiz ətrafında artacağı proqnozlaşdırılır. Bununla yanaşı, qeyd edilib ki, icrası tamamlanmış və ya 2027-ci ilədək reallaşması nəzərdə tutulan 2 QVt civarında sənaye miqyaslı 8 günəş və külək-elektrik stansiyası üzrə təxminən 2,8 milyard ABŞ dolları həcmində xarici və yerli investisiyanın cəlb edilməsi iqtisadi artıma töhfə verməklə yanaşı, "yaşıl iqtisadiyyat"ın inkişafı üçün yeni imkanlar açır.

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair Birinci Dövlət Proqramının icrası ilə bağlı qeyd edilib ki, bu ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirilməsi məqsədilə 2021-2025-ci illərdə 22 milyard manatdan çox vəsait ayrılıb. 2026-2029-cu illərdə isə bu məqsədlə 13,5 milyard manat ayrılması nəzərdə tutulub. Təqdirəlayiq hal kimi işğaldan azad olunmuş ərazilərin maliyyələşməsinin tam olaraq Azərbaycanın öz vəsaiti hesabına təmin edildiyi vurğulanıb.

Sonra iclasda Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımov çıxış edərək vurğulayıb ki, 2025-ci ildə dəyişkən qlobal iqtisadi şəraitə baxmayaraq Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu siyasət sayəsində Azərbaycan iqtisadiyyatı dayanıqlı və inklüziv inkişaf xəttini qoruyub.

2025-ci ilin 10 ayında ölkə iqtisadiyyatının müsbət dinamikasından danışan Taleh Kazımov deyib ki Mərkəzi Bankın valyuta ehtiyatları oktyabr ayının sonuna 11,4 milyard ABŞ dollarına bərabər olub ki, bu da son 3 il üzrə 45,7 faiz artım deməkdir.

Taleh Kazımovun sözlərinə görə, 2025-ci ildə pul siyasəti monetar şərait vasitəsilə inflyasiyanın hədəf daxilində saxlanılmasına yönəldilib. O, inflyasiyaya təsir edən amilləri diqqətə çatdıraraq qeyd edib ki, 2025-ci ilin sonuna illik inflyasiya 6 faiz səviyyəsində olacaq.

Mərkəzi Bankın sədri 2025-ci ilin ötən dövründə bank sektorunun fəaliyyəti ilə bağlı göstəriciləri də diqqətə çatdırıb. Qeyd olunub ki, cari ilin 10 ayında kredit portfeli 7 faiz artaraq 29,4 milyard manata çatıb. Dövr ərzində əhalinin əmanətləri 8,7 faiz, sığorta haqları 12,9 faiz, sığorta ödənişləri isə 24,2 faiz artıb. Qiymətli kağızlar bazarında ticarət dövriyyəsinin ümumi həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 7 faiz artaraq 55 milyard manat təşkil edib.

Taleh Kazımov gələn ilin büdcə layihəsi ilə bağlı bildirib ki, ümumilikdə, Mərkəzi Bank 2026-cı il və ortamüddətli dövr üçün təqdim edilən makrofiskal çərçivəni makroiqtisadi sabitlik və fiskal dayanıqlılıq baxımından optimal və effektiv hesab edir. Qeyd olunub ki, 2026-cı ildə büdcə kəsiri inflyasiya yaratmır və ümumilikdə, 2026-cı ilin icmal və dövlət büdcələri Mərkəzi Bank tərəfindən müsbət qiymətləndirilir.

2026-cı il üzrə Mərkəzi Bankın pul siyasətinin prioritetləri barədə danışan Taleh Kazımov deyib ki, əsas məqsəd inflyasiyanın hədəf daxilində saxlanılması olacaq. O, Mərkəzi Bankın 2026-cı il üzrə maliyyə sisteminin əsas sektorları üzrə proqnozları və qarşıya qoyduğu hədəfləri barədə məlumat verib.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinə dair Palata tərəfindən hazırlanmış rəyi təqdim edib. Bildirilib ki, büdcə layihəsi və ona əlavə olunan sənədlər "Büdcə sistemi haqqında" qanuna uyğun tərtib olunub və proqnoz göstəriciləri düzgün müəyyən edilib. Palatanın əvvəlki rəylərində göstərilən bir çox məqam büdcə zərfində tam və ya qismən nəzərə alınıb. Gələn ilin büdcəsi ölkənin ortamüddətli strateji məqsədlərini, sosial-iqtisadi inkişaf strategiyasının və Böyük qayıdış proqramının sonuncu il tədbirlərinin maliyyələşdirilməsini əhatə edir, həmçinin rəqəmsal iqtisadiyyat və süni intellekt kimi prioritetlərin maliyyə təminatını nəzərdə tutur.

Fiskal intizam normaları ilə bağlı qeyd olunub ki, hesablamalar icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbətinin hüquqi aktlarda nəzərdə tutulan hədləri üstələdiyini göstərir. Büdcə qaydasının fəlsəfəsində cari ildə edilən dəyişikliklər həmin hüquqi aktlara yenidən baxılmasını zəruri edir. Qaydanın digər göstəricisi olan dövlət borcunun ÜDM-ə nisbəti isə müəyyən edilmiş hədəf diapazonunda qalmaqdadır.

Gələn ilin dövlət büdcəsinin gəlir və xərc parametrləri ilə bağlı danışan Palata sədri bildirib ki, növbəti il üçün dövlət büdcəsinin gəlirləri cari ilin göstəriciləri ilə müqayisədə ümumi həcmdə ciddi dəyişiklik nümayiş etdirməsə də, gəlirlərin tərkibində struktur dəyişikliklərinin baş verməsi proqnozlaşdırılır. Belə ki, layihəyə əsasən, gəlir mənbələrindən 12-si üzrə artım, 7-si üzrə azalma nəzərdə tutulub, 1 mənbənin həcmi dəyişməz qalıb, 1 mənbə üzrə isə proqnoz nəzərdə tutulmayıb.

Növbəti ildə Dövlət Neft Fondundan transfert 11,4 faiz azalma ilə planlaşdırılır ki, bu da neft asılılığının azalması və fondun vəsaitlərinin qorunması baxımından müsbət qiymətləndirilib. Əsas fiskal qurumlar üzrə gəlir artımı proqnozlaşdırılır və palata növbəti ildə gəlir inzibatçıları üzrə proqnozların icrasında ciddi risklərin olmayacağı qənaətindədir.

Növbəti ildə büdcə xərclərinin strukturunda da dəyişikliklərin nəzərdə tutulduğunu deyən Vüqar Gülməmmədov, bunun əsasən uçot siyasətində edilən dəyişikliklərlə bağlı olduğunu bildirib. Növbəti ildə borca xidmət xərcləri gəlirlərin 6,4 faizi, xərclərin isə 5,9 faizi həcmində proqnozlaşdırılır ki, bu da məqbul səviyyədir.

Palata sədri çıxışında xərclərin səmərəli planlaşdırılması, büdcə və maliyyə hesabatlılığı ilə bağlı palatanın bəzi tövsiyələrini də diqqətə çatdırıb.

Vüqar Gülməmmədov sonda təhlillərin nəticələrini ümumiləşdirərək, "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsinin qanunvericiliyin müvafiq tələblərinə uyğun hazırlandığını bildirib.

Fasilədən sonra iclasda "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi ətrafında müzakirələr aparılıb.

Müzakirələrdə Milli Məclisin komitə sədrləri Fazil Mustafa, Zahid Oruc, Əhliman Əmiraslanov, Anar İsgəndərov, Tahir Rzayev, komissiya sədri Eldar Quliyev, deputatlar Azər Badamov, Vüqar Bayramov, Asif Əsgərov, Heydər Əsədov, İlham Məmmədov, Fariz İsmayılzadə, Mircəlil Qasımlı, Bəxtiyar Əliyev, Azər Allahverənov, Soltan Məmmədov, Aydın Mirzəzadə, Rəşad Mahmudov, Rövşən Muradov, Qüdrət Həsənquliyev, Naqif Həmzəyev, Ceyhun Məmmədov, Hikmət Məmmədov, Tahir Mirkişili, Əli Məsimli, Nəsib Məhəməliyev çıxış ediblər.

Millət vəkilləri gələn ilin dövlət büdcəsi layihəsinin əsas məqsədinin sosial-iqtisadi prioritetlərə uyğun xərclərin həyata keçirilməsi, qeyri-neft sektorunda davamlı artımın təmin edilməsi, büdcənin neft gəlirlərindən asılılığının azaldılması və fiskal dayanıqlılığın gücləndirilməsi olduğunu bildiriblər, bir sıra məsələlərlə bağlı rəy və təkliflərini səsləndiriblər.

2026-ci ilin dövlət büdcəsi layihəsinin müzakirəsi bu gün davam etdiriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Füzuli sakinləri şəhərdə məscid inşa etmək təşəbbüsünə görə Qurbanqulu Berdiməhəmmədova təşəkkür məktubu ünvanlayıblar

Azərbaycan Respublikasının Füzuli şəhərinin sakinləri şəhərdə məscid inşa etmək təşəbbüsünə görə türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədova təşəkkür məktubu ünvanlayıblar.

AZƏRTAC məktubu təqdim edir:

**Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri zati-aliləri cənab Qurbanqulu Berdiməhəmmədova**

Hörmətli Qurbanqulu Məlikquliyeviç.

Azərbaycan və türkmən xalqları arasında əsrlər boyu formalaşmış dərin tarixi, mədəni, etnik, dil və dini bağlar iki qardaş ölkə arasındakı münasibətlərin etibarlı təməlini təşkil edir. Bu möhkəm təməllər üzərində qurulan dostluq və qardaşlıq münasibətlərimiz zati-alilərinizin humanitar təşəbbüsləri ilə daha da dərinləşib.

Fəxrlə qeyd etməliyik ki, zati-alilərinizin adını daşıyan Qurbanqulu Berdiməhəmmədov adına Himayəyə Ehtiyacı Olan Uşaqlara Yardım Fondu mərhəmət, xeyirxahlıq, humanizm kimi ali mənəvi dəyərlərin yaşadılması ilə yanaşı, dost və qardaş xalqlarımız arasında mənəvi körpü missiyasını böyük uğurla həyata keçirir.

Bu nəcib missiyanın ən parlaq nümunələrindən biri də Sizin Azərbaycanın işğaldan azad edilmiş Füzuli şəhərində məscid inşa etmək təşəbbüsünüzdür. Biz bu təşəbbüsü böyük məmnuniyyət və dərin minnətdarlıq hissi ilə qarşıladıq. Qarabağın bərpa prosesinə dəyərli töhfə olan bu humanist addımınız iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin, dini-mənəvi həmrəyliyin, humanitar əməkdaşlığın və qarşılıqlı etimadın bariz təcəssümüdür.

Oktyabrın 7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Zirvə Görüşü çərçivəsində türk dövlət və hökumət başçıları ilə birgə Füzulidə inşa ediləcək məscidin onlayn formatda təməlinin qoyulması bu xeyirxah layihəyə əlavə mənəvi və tarixi məna qazandırıb. Bu təşəbbüs, həmçinin türk dünyasının ortaq dəyərlərinə, islam mədəniyyətinə və azad olunmuş torpaqlarımızın mənəvi dirçəlişinə verilən yüksək önəmin göstəricisidir.

Xüsusilə qeyd etmək istərdik ki, Türk Dövlətləri Təşkilatı, eləcə də təşkilatın Ağsaqqallar Şurasındakı uğurlu fəaliyyətiniz, türk dünyasının birliyi, həmrəyliyi və inkişafı naminə səsləndirdiyiniz müdrik çağırışlar və verdiyiniz mesajlar böyük hörmət, ehtiramla izlənilir və yüksək qiymətləndirilir.

2025-ci ilin iyul ayında zati-alilərinizin Qarabağa səfəri, o cümlədən Şuşa şəhərində yerləşən Yuxarı Gövhər ağa məscidini ziyarətiniz zamanı Vətən uğrunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın ruhuna etdiyiniz dualar qardaşlıq, mənəvi dəyərlərə sədaqət və tarixi irsə hörmətin parlaq nümunəsi kimi xalqımız tərəfindən böyük ehtiramla qarşılanıb.

İnanırıq ki, zati-alilərinizin təşəbbüsü ilə Füzuli və Arxadağ şəhərlərinin qardaşlaşması insanlararası təmasların daha da intensivləşməsinə təkan verəcəkdir.

Hörmətli Qurbanqulu Məlikquliyeviç, Sizin yüksək diqqət və mənəvi dəstəyiniz Füzuli sakinləri tərəfindən böyük rəğbətlə qarşılanır və qəlbimizdə dərin minnətdarlıq hissi oyadır, bölgənin mənəvi həyatına yeni ruh, inam və ümid gətirir. Bu nəcib addım qardaşlığımızın və həmrəyliyimizin tərənnümü kimi qədirbilən Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır.

Füzuli şəhərində inşa edilən və Azərbaycan-Türkmənistan qardaşlığının mənəvi rəmzinə çevriləcək bu məscidin yaxın zamanda zati-alilərinizin iştirakı və xeyir-duaları ilə açılışını biz Füzuli sakinləri olaraq böyük səbirsizliklə gözləyirik.

Fürsətdən istifadə edərək, göstərilən yüksək diqqət və qayğı üçün bütün Füzuli sakinləri adından zati-alilərinizə bir daha dərin təşəkkürümüzü bildirir, Sizə möhkəm cansağlığı, uzun ömür və Türkmənistan xalqının rifahı naminə gələcək fəaliyyətinizdə davamlı uğurlar arzu edirik. Ulu Tanrıdan qardaş Türkmənistana və xalqına firavanlıq, sülh, əmin-amanlıq və daimi tərəqqi diləyirik.

Azərbaycan Respublikasının Füzuli şəhərinin sakinləri adından dərin hörmətlə,

***Əliyev Vidadi Əziz oğlu***
***Hüseynov Məhəmməd Səyyad oğlu***
***Rzayev Atabəy Saleh oğlu***
***Əhmədov Taleh Famil oğlu***
***Xanlarov Vaqif Əsgər oğlu***
***Əliyeva Sevda Yaqub qızı***
***Quliyeva Aygün Oktay qızı***
***Abdullayev Nizami Ağabala oğlu***
***Qəhrəmanova Xuraman Hüseyin qızı***
***Quliyev Elman Süleyman oğlu***
***Əliyev Füzuli İbrahim oğlu***
***Camalxanov Tehran Məmmədəli oğlu***
***Abdullayev Məmmədbağir Abdulla oğlu***
***Məmmədov Alik Calal oğlu***
***Məmmədova Nüşabə Həmid qızı***
***Hüseynova Mahnur Eldar qızı***
***Əliyeva Fəridə Kamil qızı***
***Əliyeva Rəhilə Ənvər qızı***
***Nəsirova Gülbahar Allahverdi qızı***
***Hüseynova Fəridə Rəhbər qızı***

*Füzuli şəhəri, 19 noyabr 2025-ci il*

# Yeni Klinikada Yeni Robotik Reabilitasiya və Sümük İliyi Transplantasiyası mərkəzlərinin açılış mərasimi olub

**Noyabrın 19-da Yeni Klinikada Yeni Robotik Reabilitasiya və Sümük İliyi Transplantasiyası mərkəzlərinin açılış mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Əvvəlcə Yeni Robotik Reabilitasiya Mərkəzi ilə tanışlıq keçirilib. Bildirilib ki, 3 min 600 kvadratmetr ərazidə yerləşən Yeni Robotik Reabilitasiya Mərkəzi Azərbaycanın reabilitasiya sahəsində texnoloji inqilab yaradan ilk mərkəzlərindən biridir.

Əsas məqsəd pasiyentlərin funksional müstəqilliyini bərpa etmək, həyat keyfiyyətini yüksəltmək və hərəkət imkanlarını maksimum səviyyəyə çatdırmaq, həmçinin ölkəmizdə əlillik səviyyəsini minimuma endirməkdir. Mərkəz həm ambulator, həm də stasionar müalicə xidmətləri təqdim edir.

Müəssisədə ümumilikdə 3 həkim-fizioterapevt, 1 həkim-travmatoloq, 4 həkim-nevroloq, 4 təcili və təxirəsalınmaz tibbi yardım üzrə həkim, 9 müalicəvi bədən tərbiyəsi (MBT) təlimatçısı, 32 fizioterapevt-reabilitoloq, 17 tibb bacısı/qardaşı, 2 masaj üzrə tibb bacısı/qardaşı və 20 kiçik tibb işçisi fəaliyyət göstərir.

Mərkəzin Neyrotravma şöbəsində kəllə-beyin və onurğa-beyin travmaları, eləcə də ölkənin müxtəlif tibb müəssisələrindən reanimasiyadan sonra reabilitasiyaya ehtiyacı olan vətəndaşların stasionar müalicəsinin həyata keçirilməsi nəzərdə tutulub.

Bundan əlavə, mərkəzdə bir sıra sahələr üzrə robotik və klassik reabilitasiya xidmətləri təqdim olunur. Nevrologiya istiqamətində insult, beyin və onurğa beyini zədələnmələri, həmçinin sinir sistemi xəstəliklərindən sonra bərpa prosesi aparılacaq.

Ortopedik reabilitasiya çərçivəsində travmalardan və ortopedik əməliyyatlardan sonra hərəkətin bərpası təmin ediləcək.







Pediatrik və neonatoloji reabilitasiya uşaqlarda hərəkət, inkişaf və koordinasiya pozuntularının erkən korreksiyasına yönəlib. İdmanda reabilitasiya xidməti idman zədələrindən sonra funksional hazırlığın və performansın bərpasını hədəfləyir.

Əl reabilitasiyası sahəsində əl cərrahiyyəsi və yuxarı ətrafların motor funksiyalarının inkişafı, eləcə də incə hərəkətlərin bərpası həyata keçiriləcək. Kardiopulmonar reabilitasiya ürək-damar və tənəffüs sistemi xəstəliklərindən sonra fiziki dözümlülüyün artırılmasına xidmət edir. Geriatrik reabilitasiya isə yaşlı pasiyentlərdə hərəkət imkanlarının genişləndirilməsi və həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlib.

Onkoloji reabilitasiya onkoloji müalicələrdən sonra fiziki və psixoloji adaptasiyanın təmin edilməsini əhatə edir. Bundan əlavə, ginekoloji və androloji reabilitasiya kiçik çanaq disfunksiyalarında, kiçik çanaq əzələlərinin funksional bərpası, gücünün və elastikliyinin artırılması məqsədilə tətbiq olunan hədəfli fizioterapevtik yanaşma ilə həyata keçiriləcək. Onurğa sağlamlığı xidmətləri onurğa sütunu problemlərinin qarşısının alınmasına və müalicəsinə istiqamətlənib.

Reanimasiya və intensiv terapiyada reabilitasiya ağır vəziyyətdən çıxmış pasiyentlərin erkən mərhələdə bərpasını təmin edir və hədəf Azərbaycandakı böyük dövlət xəstəxanalarında reanimasiya şəraitində reabilitasiya xidmətlərinin gücləndirilməsidir.

Yeni Robotik Reabilitasiya Mərkəzi dünyada həm robotik, həm də klassik reabilitasiya sahəsində lider mövqeyini möhkəmləndirməyi, elmi və texnoloji yenilikləri reabilitasiya proseslərinə inteqrasiya edərək Azərbaycanı innovativ reabilitasiya mərkəzinə çevirməyi hədəfləyir. Həmin istiqamətdə beynəlxalq akkreditasiyalar üçün rəsmi danışıqlara artıq başlanılıb.

Mərkəzin üstünlüklərinə dünyasəviyyəli robotik lokomasiya və yuxarı ətraf reabilitasiya sistemləri, 3D hərəkət analizi, balans və koordinasiya ölçmə texnologiyaları, süni intellekt əsaslı qiymətləndirmə və fərdiləşdirilmiş reabilitasiya alqoritmləri, fizioterapevtlər, reabilitoloqlar, neyroloqlar, ortopedlər, psixoloqlar və ergoterapevtlərdən ibarət multidisiplinar komanda, eləcə də beynəlxalq təlim, sertifikasiya və elmi əməkdaşlıq imkanları daxildir. Bütün bu xüsusiyyətləri ilə mərkəz Azərbaycanın reabilitasiya sahəsində texnoloji inqilab yaradan, həm ambulator, həm də stasionar müalicə xidmətləri təqdim edən qabaqcıl bir qurum kimi fəaliyyətə başlayır.

Yeni Robotik Reabilitasiya Mərkəzinin noyabrın 20-dən etibarən fəaliyyətə başlayacağı diqqətə çatdırılıb.

Daha sonra Sümük İliyi Transplantasiyası Mərkəzinə baxış keçirilib. Qeyd olunub ki, mərkəz müasir tələblərə cavab verən yüksək ixtisaslaşmış tibbi mərkəz kimi formalaşdırılıb. Şöbənin hemato-onkoloji xəstəliklərin müalicəsində ən son elmi nailiyyətləri tətbiq edən, geniş təcrübəyə malik multidisiplinar komanda tərəfindən idarə olunması planlaşdırılır.

Tibbi xidmətlər çərçivəsində qeyd olunan diaqnozlarla müalicə alan pasiyentlər üçün həm allogen, həm də autogen sümük iliyi transplantasiyasının həyata keçirilməsi nəzərdə tutulur.

Mərkəz 22 çarpayılıq şöbə ilə böyüklər və uşaqlar üçün fəaliyyət göstərəcək. Həm autogen, həm də allogen sümük iliyi transplantasiyası beynəlxalq protokollara uyğun şəkildə həyata keçiriləcək. Leykoz, talassemiya, aplastik anemiya, limfoma və mieloma kimi xəstəliklərdən əziyyət çəkən pasiyentlər üçün bu mərkəz yüksəksəviyyəli, inteqrasiya olunmuş müalicə şəraiti yaradacaq və xaricə bağlılığı əhəmiyyətli dərəcədə azaldacaq.

Transplantasiya blokları müasir sterilizasiya standartlarına cavab verən HEPA filtrasiyalı hava axını, tam izolyasiya rejimi və yüksəksəviyyəli infeksion nəzarət sistemi ilə təchiz edilib.

Mərkəzin əsas məqsədi pasiyentlərə təhlükəsiz, effektiv və yüksəkkeyfiyyətli müalicə təqdim etmək, elmi yenilikləri praktikaya gətirmək və ölkədə sümük iliyi transplantasiyası xidmətlərinin əlçatanlığını artırmaqdır.

Yeni yaradılmış mərkəz ilə tibb müəssisəsi hemato-onkoloji xəstəliklərin müalicəsində daha geniş imkanlar yaradacaq və müasir tibb standartlarının tətbiqində nümunəvi səhiyyə ocağı kimi fəaliyyət göstərməyə davam edəcək.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Beynəlxalq STEAM Azərbaycan Festivalını ziyarət edib

**Noyabrın 19-da Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva Elm və Təhsil Nazirliyinin dəstəyi və "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində keçirilən Beynəlxalq STEAM Azərbaycan Festivalını (SAF 2025) ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, elm və təhsil naziri Emin Əmrullayev qonaqlara festivalın məqsədləri, proqramı və müxtəlif istiqamətlər üzrə təqdim olunan layihələr haqqında ətraflı məlumat verib.

Ziyarət zamanı onlar stendlərə baxış keçirib, festival iştirakçıları ilə görüşərək gənc ixtiraçıların innovativ layihələri ilə tanış olublar.





Bundan əlavə, Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirakçılarla səmimi söhbət edib və onlarla xatirə şəkilləri çəkdiriblər.

Qeyd edək ki, noyabrın 17-19-u tarixlərini əhatə edən Beynəlxalq STEAM Azərbaycan Festivalı robototexnika, süni intellekt, bərpaolunan enerji, dron və peyk texnologiyaları, incəsənət, innovativ layihələr və mühəndislik kimi sahələri əhatə edən kateqoriyaları ilə seçilir. Final mərhələsinə 1400-dən çox iştirakçı vəsiqə qazanıb, onların 202-si müxtəlif xarici ölkəni təmsil edir. Festivalda ümumilikdə 22 ölkə iştirak edir.

# Bakıda tanınmış özbək miniatür ustası Cahangir Aşurovun sərgisi açılıb

**"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı ilə noyabrın 18-də tanınmış özbək miniatür ustası Cahangir Aşurovla görüş və ustad dərsi keçirilib, daha sonra isə sənətkarın əsərlərindən ibarət sərgi açılıb.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva, eləcə də sənət adamları tədbirdə iştirak ediblər.

Bakı Fotoqrafiya Evində keçirilən görüş zamanı Cahangir Aşurov iştirakçılarla yaradıcılıq təcrübəsini bölüşüb, iş texnikasını nümayiş etdirib və sualları cavablandırıb.

Tədbirdə rəssamlar, dizaynerlər, incəsənət araşdırmaçıları və sənətsevərlər iştirak edərək miniatür sənətinin incəliklərini yaxından tanımaq və onun sehrini hiss etmək imkanı əldə ediblər.

Daha sonra Bakı Fotoqrafiya Evindəki sərgi zalında Cahangir Aşurovun "Şərq miniatürü: Zamanla səyahət" sərgisinin açılış mərasimi təşkil olunub.

Sərgi miniatür sənətinin zəngin tarixini izləyicilərə çatdırmaq baxımından xüsusi əhəmiyyət daşıyır.



# Yeni regional reallıq



**Son illər Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında münasibətlər sürətlə inkişaf edir. Prezident İlham Əliyevin Özbəkistanın Milli İnformasiya Agentliyinə verdiyi müsahibədə bu əlaqələrin dərin mahiyyəti və gələcək istiqamətləri aydın şəkildə təsvir olunur.**

Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyev arasında formalaşan şəxsi dostluq münasibətləri ölkələr arasında müttəfiqlik xarakterli tərəfdaşlığın əsas hərəkətverici qüvvəsinə çevrilib. İki ölkə arasında imzalanmış müttəfiqlik haqqında müqavilə, strateji tərəfdaşlığın möhkəmləndirilməsi ilə bağlı bəyannamə və 2025-2029-cu illər üçün "Yol Xəritəsi" münasibətlərin hüquqi bazasını daha da gücləndirir. Qarabağda Özbəkistan tərəfindən inşa edilən məktəb isə bu qardaşlığın rəmzi nümunələrindəndir.

Deputat bildirib ki, iqtisadi əlaqələr də dinamik şəkildə inkişaf edir. 2024-cü ildə iki ölkə arasındakı ticarət dövriyyəsi 252 milyon dollara çatıb. 2025-ci ilin ilk doqquz ayında isə bu göstərici 87,5 faiz artıb: "Xankəndidə Azərbaycan-Özbəkistan birgə sənaye müəssisəsinin açılması əməkdaşlığın Qarabağın bərpasına praktiki töhfəsini göstərir. Nəqliyyat sahəsində isə Orta dəhliz xüsusi əhəmiyyət daşıyır. Azərbaycan yerləşdiyi coğrafi mövqedən strateji şəkildə istifadə edərək Mərkəzi Asiyadan Avropaya uzanan əsas tranzit marşrutlarının formalaşmasında aparıcı rol oynayır. Ələt dəniz limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, genişləndirilən hava limanı şəbəkəsi və Zəngəzur dəhlizinin perspektivləri regionun nəqliyyat xəritəsini yenidən şəkilləndirir".

P.Vəliyeva qeyd edib ki, enerji əməkdaşlığı da strateji tərəfdaşlığın vacib istiqamətlərindəndir. Neft-qaz sahəsində əməkdaşlıqla yanaşı, bərpaolunan enerji və enerji sistemlərinin inteqrasiyası üzrə imzalanan yeni sənədlər "yaşıl transformasiya" prosesində güclü birgəlik nümayiş etdirir. Mədəni-humanitar sahədə əlaqələr xüsusilə diqqət çəkir. Şəhərlərin qardaşlaşması, mədəniyyət günlərinin keçirilməsi, qarşılıqlı park və meydan layihələri xalqlar arasında yaxınlığı daha da gücləndirir. Gənclər və idman sahəsində birgə təşəbbüslər, xüsusən 2027 U-20 Dünya Çempionatının iki ölkənin birgə təşkil edəcəyi faktı əməkdaşlığı yeni müstəviyə daşıyır.

Deputat deyib ki, Prezident İlham Əliyevin Özbəkistan Milli İnformasiya Agentliyinə müsahibəsində Azərbaycan və Mərkəzi Asiya ölkələrinin yalnız siyasi tərəfdaş deyil, həm də ortaq tarixi köklərə, mədəni dəyərlərə və strateji maraqlara əsaslanan geniş bir əməkdaşlıq məkanının üzvləri olduğu vurğulanır. "Bütün bu proseslər təsdiq edir ki, Azərbaycan Mərkəzi Asiya ilə vahid siyasi, iqtisadi və mədəni məkanın əsas oyunçusuna çevrilib. Yeni regional reallıq Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında həm təhlükəsizlik, həm iqtisadi inkişaf, həm də humanitar sahədə davamlı tərəfdaşlığın bünövrəsini formalaşdırır", - deyə o əlavə edib.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Azərbaycan-Mərkəzi Asiya əməkdaşlığı daha da möhkəmlənir



**Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında əlaqələr yüksələn xətlə inkişaf edir. Özbəkistanın paytaxtı Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü tarixi hadisə kimi yadda qaldı. Prezident İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə iştirak etmək üçün bu ölkəyə səfəri, həmçinin onun tədbirdəki çıxışı, qəbul olunan qərarlar, imzalanan sənədlər tarixi əhəmiyyət kəsb edir.**

Milli Məclisin deputatı Vüqar Rəhimzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, ölkəmizin Mərkəzi Asiya platformasında tamhüquqlu iştirakçı statusu qazanması xarici siyasətimizin növbəti uğurudur: "Bu qərar Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında strateji qarşılıqlı əlaqəni və dayanıqlılığı gücləndirəcək. Tərəflər arasında həmrəyliyin gücləndirilməsi Azərbaycan və Mərkəzi Asiya ölkələrinin beynəlxalq mövqeyinin daha da möhkəmlənməsinə və qlobal rolunun artmasına töhfə verəcək".

Deputat qeyd edib ki, Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında əlaqələrin yeni mərhələyə yüksəlməsi beynəlxalq tranzit, logistika və energetika sahələrində yeni imkanlar, geniş əməkdaşlıq üfüqləri açacaq. Azərbaycanın tamhüquqlu üzv qismində Məşvərət görüşləri formatına qoşulması ölkəmizin artan beynəlxalq nüfuzunun, qlobal proseslərdə söz sahibliyinin göstəricisidir.

Azərbaycanın beynəlxalq əməkdaşlığa töhfələrinin davamlı olduğunu vurğulayan V.Rəhimzadə deyib ki, xarici siyasətimizin əsas tərkib hissələrindən biri ikitərəfli və beynəlxalq təşkilatlar daxilində əlaqələrin qurulması və yeni prioritetlər üzrə inkişaf etdirilməsidir: "Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə tamhüquqlu iştirakçı kimi qəbul edilməsi dövlətimizin xarici siyasət uğurlarının əsas tərkib hissələrindəndir. Dövlət başçısı İlham Əliyev sözügedən tədbirdə çıxışında "Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlər xüsusi xarakter daşıyır. Bizi çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir. Biz bu əlaqələri nəinki qoruyub saxlamışıq, həm də onlara strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika bəxş etmişik" söyləyərək bu əminliyi də ifadə etdi ki, indi qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur. Azərbaycan-Mərkəzi Asiya əməkdaşlığının daha da möhkəmlənməsi tərəflərlə yanaşı, bütövlükdə regionun da maraqlarına xidmət edir".

*Ə.QARDAŞXANOVA, "Azərbaycan"*

# Qarakənd terroru tariximizin ən faciəvi səhifələrindən biridir

**1980-ci illərin sonlarından etibarən erməni şovinistləri azərbaycanlıları tarixən yaşadıqları ərazilərdən deportasiya etmək, Qarabağı Ermənistana birləşdirmək üçün neçə müddətdir planlaşdırdıqları qanlı ssenariləri həyata keçirməyə, separatçı hərəkatlara, milli zəmində təxribatlara, o cümlədən xalqımıza qarşı soyqırımlarına, kütləvi qətliamlara başladılar. 20 fevral 1988-ci ildə ermənilər azərbaycanlı deputatların iştirakı olmadan Dağlıq Qarabağ Muxtar Vilayətinin İcraiyyə Komitəsinin sessiyasını çağırdılar və bu vilayətin Azərbaycanın tərkibindən çıxıb Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdilər. Həmin gündən cəmi iki gün sonra - fevralın 22-də erməni millətçiləri Qarabağda ağdamlı gənclər Əli Hacıyev və Bəxtiyar Quliyevi öldürdülər. Bununla da münaqişənin ilk qanını tökdülər və xalqımıza qarşı silsilə cinayət əməllərinə başladılar. Milli kimliyimizə düşmən kəsilərək müxtəlif vaxtlarda Qaradağlıda, Xocalıda, Ballıqayada, Ağdabanda, Başlıbeldə və daha neçə-neçə ərazilərimizdə dinc əhalimizə qarşı qətliamlar törətdilər.**

**34 il əvvəl, 20 noyabr 1991-ci ildə Xocavənd rayonunun Qarakənd kəndində törədilən terror aktı da erməni faşizminin qanlı əməllərinin davamı idi.**



## Erməni separatçılarının terrorçu siması

Həmin vaxt Qarakənd kəndi yaxınlığında Mİ-8 N72 hərbi vertolyotunun erməni silahlıları tərəfindən atəşə tutulması nəticəsində heyət üzvləri və sərnişinlərdən ibarət 22 nəfər həlak olub. Həlak olanlar Azərbaycanın dövlət və hökumət nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər - dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri Məhəmməd Əsədov, baş nazirin müavini Zülfi Hacıyev, deputatlar Vaqif Cəfərov və Vəli Məmmədov, Prezidentin İcra Aparatının şöbə müdiri Osman Mirzəyev, nazir müavini Qurban Namazəliyev, DQMV prokuroru İqor Plavski, DQMV Daxili İşlər İdarəsinin rəisi Vladimir Kovalyov, Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsinin rəisi Sergey İvanov, fövqəladə vəziyyət rayonunun komendantı Nikolay Jinkin, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Serikov, milis general-mayoru Mixail Lukaşov, polkovnik-leytenant Oleq Koçerev, dövlət katibinin köməkçisi Rafiq Məmmədov, telejurnalist Alı Mustafayev, Azərbaycan Televiziyasının işıqçısı Arif Hüseynzadə, videooperator Fəxrəddin Şahbazov, vertolyot heyətinin komandiri Vyaçeslav Kotov, heyət üzvləri Gennadi Domov, Dmitri Yarovenko idi.

Həmin zaman əvvəlcə rəsmi olaraq vertolyotun dumana düşərək qayaya çırpılması ehtimalı irəli sürülsə də, bir neçə gündən sonra onun vurulması faktı təsdiqlənib. Belə ki, Xocavənd rayonunun Qarakənd kəndində hadisə yerinə baxış keçirilib, vertolyotun güllə deşmiş qırıqları və sair aşkar edilib.

Erməni separatçılarının terrorçu mahiyyətlərini bir daha danılmaz şəkildə ortaya qoyan bu cinayət faktı ilə bağlı 1991-ci ildə Azərbaycanın Hərbi Qarnizon Prokurorluğu tərəfindən cinayət işi açılıb, istintaqın aparılması Respublika Prokurorluğuna verilib. Terror aktının baş verdiyi ərazinin vaxtilə işğal altında olması səbəbindən cinayət işi üzrə istintaq dayandırılıb.

## Onların da qisası alındı

Azərbaycan 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağda apardığı ildırım sürətli antiterror tədbirləri ilə erməni separatizminin başını "dəmir yumruq"la əzdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndidə, Ağdərədə, Xocalıda, Xocavənddə bayrağımızı əbədi ucaltdı. Dövlət suverenliyimiz tam təmin edildi, Konstitusiyamız bütün ərazilərimizdə qüvvəyə mindi. Bununla da ikiəsrlik erməni şovinizminə, dünya erməniçiliyinə bir daha özlərinə gələ bilməyəcəkləri sarsıdıcı zərbə vuruldu, xəstə erməni təfəkkürünün məhsulu olan "miatsum" ideyası birdəfəlik cəhənnəmə göndərildi.

Azərbaycan xalqına qarşı cinayət əməlləri törətmiş erməni hərbi cinayətkarları indi Bakıda ədalət mühakiməsinə çıxarılıblar.

44 günlük Vətən müharibəsi sayəsində işğaldan azad edilən ərazilərimiz minalardan təmizləndikcə, bu yerlərdə kütləvi məzarlıqlar aşkarlanır və Birinci Qarabağ müharibəsi dövründə erməni terrorçularının həyata keçirdikləri qətliamlar üzə çıxır. Kütləvi məzarlıqlar Ermənistanın niyə bu günədək 4 minə yaxın azərbaycanlı itkin barədə məlumat verməkdən yayındığını izah edir.

Ermənistan silahlı qüvvələrinin və qanunsuz silahlı birləşmələrinin apardığı təcavüzkar müharibə nəticəsində Azərbaycanın suveren əraziləri olan 12 şəhər, 18 qəsəbə, 895 kənd, ümumilikdə 925 yaşayış məntəqəsi işğal olundu və uzun illər ərzində işğal altında saxlanıldı. Bununla da ölkəmizə xüsusi və dövlət mülkiyyətində olmuş ümumilikdə 37 min 168 əmlak üzrə 19 milyard manatdan artıq maddi ziyan vuruldu.

Təcavüzkar müharibə gedişində Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı, habelə soyqırımı əlamətləri olmadan əhalinin bütövlükdə və ya qismən məhv edilməsi faktları araşdırılaraq açıqlandı.

Məlum olub ki, Xocalı rayonunun ərazisində yaşayan azərbaycanlı əhalini kütləvi şəkildə milli-etnik mənsubiyyətinə görə bir qrup kimi məhv etmək niyyəti ilə onları öldürmək, sağlamlıqlarına ağır və əqli qabiliyyətlərinə ciddi zərər vurmaq məqsədilə rayona və ətraf yaşayış məntəqələrinə silahlı basqınlar edilib, azərbaycanlıların baş dərisinin soyulması, qulaq, burun, cinsiyyət üzvlərinin kəsilməsi, gözlərinin çıxarılması, diri-diri yandırılması, erməniəsilli şəxslərin qəbirləri üzərində başlarının qurbanlıq kimi kəsilməsi, qadına, qocaya və uşağa da fərq qoymadan qəddarlıqla müxtəlif işgəncələr verilməsi ilə ümumilikdə 613 şəxs qəsdən öldürülüb məhv edilməklə Xocalı soyqırımı törədilib.

1988-2024-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 18 850 nəfər azərbaycanlı qəsdən öldürülüb. Sözügedən illər ərzində 3493 nəfəri mülki, 15 min 357 nəfəri hərbi qulluqçu həyatını itirib, 4435 nəfəri mülki, 51 min 803 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 56 min 268 şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə onların qəsdən öldürülmələrinə cəhd edilib.

1988-2023-cü illərdə ermənilər tərəfindən Azərbaycanın Qarabağ bölgəsi və ətraf ərazilərində yüzdən çox fərqli-fərqli işgəncə metodları tətbiq edilməklə 1698 azərbaycanlı girov götürülüb.

Əsir və girov götürülən 1284 dinc sakindən 122-si mülki sakin, əsir götürülmüş 414 nəfər hərbi qulluqçudan isə 48 nəfəri, ümumilikdə 170-i işgəncələr və qeyri-insani rəftar tətbiq edilməklə qəsdən öldürülüb.

Birinci Qarabağ savaşında olduğu kimi, 44 günlük müharibədə də dinc azərbaycanlılar erməni terrorçularının cinayət əməlləri ilə üz-üzə qaldılar. Həmin vaxt Gəncəni, Bərdəni, Tərtəri, Mingəçeviri və digər yaşayış ərazilərimizi raket atəşinə tutan düşmən əlini yenə körpələrimizin, uşaqlarımızın, qadınlarımızın, qocalarımızın qanlarına buladılar.

Azərbaycanın Ermənistan tərəfindən hərbi təcavüzlə üz-üzə qaldığı 1988-ci ildən 2023-cü il sentyabrın 20-nə qədər ötən 35 illik zaman ərzində xalqımız çox faciələrə tuş gəldi. 20 noyabr 1991-ci ildə Qarakənd kəndində ermənilərin törətdiyi terror aktı da qan yaddaşımızdır.

İşğaldan azad edilən torpaqlarımızda, Xocavənddə indi Azərbaycan bayrağı dalğalanır. Bu isə Qarakənd kəndində törədilən faciə zamanı, eləcə də digər ərazilərimizdə vətən torpaqlarımızın bütövlüyü uğrunda qurban gedən oğul və qızlarımızın qisaslarının alındığının göstəricisidir.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# *Türkiyənin keçmiş dövlət naziri:* "Azərbaycan Mərkəzi Asiyanın enerji və strateji resurs tədarükündə əsas vasitəçi ölkəyə çevrilir"

**"Mərkəzi Asiya dövlətlərini təşkil edən Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan tərəfindən formalaşdırılmış birliyə Azərbaycanın tamhüquqlu üzv qəbul edilməsi, başqa sözlə, Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tam iştirakçı statusu qazanması iki əsas aspektdən mühüm əhəmiyyət kəsb edir.**

Birincisi, Çindən başlayaraq, Mərkəzi Asiya ölkələri vasitəsilə Avropaya uzanan ticarət marşrutlarının təkmilləşdirilməsi, təhlükəsizliyinin təmin olunması və regionun strateji xammal və məhsullarının effektiv qiymətləndirilməsi baxımından bu addım yeni imkanlar yaradır".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyənin iqtisadiyyata cavabdeh keçmiş dövlət naziri Masum Türker söyləyib.

O bildirib ki, Azərbaycanın üzvlüyü Mərkəzi Asiya dövlətlərinin rəsmi Bakı ilə siyasi, iqtisadi və logistik münasibətlərinin daha səmərəli inkişafına şərait yaradacaq. Bu kontekstdə Azərbaycanın regional nəqliyyat layihələri və tələb olunan infrastruktur yatırımları gündəlikdə ön plana çıxacaq.

"İkincisi, bu status Mərkəzi Asiya ilə əlaqələrin daha geniş miqyasda inkişafına töhfə verəcək.

Üçüncüsü, Azərbaycanın qoşulmasından sonra birliyin adının "Mərkəzi Asiya dövlətləri və Azərbaycan birliyi" kimi dəyişdirilməsi



və yeni əməkdaşlıq modelinin hazırlanması üçün xarici işlər nazirlərindən ibarət komitənin yaradılması birliyin strateji vizyonunun yenidən formalaşdırılmasına və siyasi koordinasiyanın gücləndirilməsinə yönəldiyini göstərir.

Bu yanaşma, həm Mərkəzi Asiya, həm də Cənubi Qafqazla münasibətləri inkişaf etdirmək istəyən dövlətlərin Azərbaycanla daha fəal əməkdaşlıq qurmasını zəruri edir", - deyə M.Türker vurğulayıb.

Ekspert əlavə edib ki, gələcəkdə Mərkəzi Asiyada hasil olunan enerji resurslarının, qızıl və uran kimi strateji məhsulların tədarükündə Azərbaycanın vasitəçilik imkanlarına ehtiyac artacaq. Bu isə Azərbaycanın üçüncü dövlətlərlə münasibətlərdə də yeni strateji rol qazanmasına şərait yaradacaq. Su ehtiyatları, iqlim dəyişikliyi və regional təhlükəsizlik məsələlərində də Azərbaycan lider dövlət kimi irəli çıxacaq.

# "Altıtərəfli yeni model regional koordinasiyanı daha dayanıqlı edir"

**"Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə tamhüquqlu iştirakçı qismində qoşulması region üçün həqiqətən strateji addımdır. Bu qərar həm siyasi dinamikada yeni mərhələnin başlanmasını, həm də türk coğrafiyasının daha sıx inteqrasiyasını təmin edir".**

Bunu AZƏRTAC-a açıqlamasında Qazaxıstan Respublikası Prezidenti yanında Qazaxıstan Strateji Tədqiqatlar İnstitutunun Asiya Araşdırmaları şöbəsinin müdiri Aydar Kurmaşev bildirib.

Onun sözlərinə görə, əvvəllər əməkdaşlıq modeli "5+1" formatı üzərində qurulurdusa, bu gün artıq altı dövlətin ümumi regional gündəliyi formalaşdırdığı vahid platforma yaranır. Bu isə siyasi dialoqun genişlənməsi və Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında daha dayanıqlı koordinasiya mexanizmlərinin formalaşması deməkdir.

"Azərbaycanın tamhüquqlu iştirakı Türk Dövlətləri Təşkilatının (TDT) potensialını əhəmiyyətli dərəcədə artırır. Dövlət başçıları səviyyəsində müzakirə olunan məsələlərin TDT-nin strateji çərçivəsinə inteqrasiyası asanlaşır. Bununla yanaşı, əsas istiqamətlər üzrə mövqelərin daha sıx uzlaşdırılması mümkün olur. Azərbaycan öz coğrafi mövqeyi, xüsusən də Mərkəzi



Asiyanı Türkiyə ilə birləşdirən mühüm tranzit rolu sayəsində iki region arasında təbii körpü funksiyasını yerinə yetirir", - deyə ekspert bildirib.

A.Kurmaşev qeyd edib ki, Azərbaycanın Orta dəhlizin inkişafında mühüm rol oynaması, Mərkəzi Asiya ilə Türkiyə arasında unikal coğrafi mövqeyə malik olması ölkəni iki region arasında infrastruktur və iqtisadi marşrutları birləşdirən əsas əlaqələndirici halqaya çevirir. Bu isə regional bağlantının möhkəmlənməsinə və TDT çərçivəsində irimiqyaslı təşəbbüslərin daha səmərəli həyata keçirilməsinə şərait yaradır.

"Bu proses Türkiyənin son illərdə sistemli şəkildə irəli sürdüyü türk inteqrasiyası xətti ilə də tam uyğundur. "Azərbaycanın Məşvərət görüşünə tamhüquqlu üzv kimi qoşulması türk dünyasında daha sıx, koordinasiyalı və məqsədyönlü əməkdaşlıq mühitini gücləndirir".

Ekspert əlavə edib ki, Azərbaycanın iştirakı Mərkəzi Asiya ölkələri üçün də mühüm üstünlüklər yaradır: "Bu addım regionu Cənubi Qafqaz və Avropa bazarları ilə birbaşa əlaqələndirir, xarici siyasət və tranzit istiqamətlərinin şaxələndirilməsini gücləndirir, beynəlxalq platformalarda ümumi regional mövqenin təsirini artırır. Qlobal qeyri-müəyyənlik şəraitində belə koordinasiya regionun dayanıqlığını artırır".

Aydar Kurmaşevin fikrincə, Azərbaycanın qoşulması ilə formalaşan yeni altıtərəfli model əməkdaşlığın daha sistemli, institusional və uzunmüddətli strateji maraqlara əsaslanan xarakter almasına imkan yaradır.

## 20 Noyabr Ümumdünya Uşaqlar Günüdür

# Uşaq hüquqlarının səmərəli müdafiəsində Ombudsmanın rolu

**Uşaqların sağlam, təhlükəsiz, qayğı ilə əhatə olunan mühitdə böyüməsi cəmiyyətin dayanıqlı inkişafının əsas şərtlərindəndir. Uşaq hüquqlarının qorunması dövlətin insan hüquq və azadlıqlarının təmininə verdiyi dəyərin göstəricisi olmaqla, ölkənin tərəqqisini, gələcək inkişaf potensialını müəyyən edən strateji istiqamətdir.**



Birləşmiş Millətlər Təşkilatının (BMT) "Uşaq hüquqları haqqında" Konvensiyası uşaq hüquqlarının qorunması, uşaqların müdafiəsi, rifahı və inkişafı sahəsində beynəlxalq səviyyədə qəbul edilmiş əsas sənədlərdən biridir. Bu konvensiya uşağın fiziki, psixoloji, mənəvi baxımdan hərtərəfli inkişafını təmin etməyə yönəlmiş universal prinsipləri özündə ehtiva edir. Konvensiya dövlətlər üçün uşaq hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və idarəetmə mexanizmlərinin formalaşdırılması baxımından mühüm istiqamətverici sənəd rolunu oynayır. Konvensiyanın müddəaları uşaqların hüquqlarının hərtərəfli təmininə yönəlmiş yeni normativ-hüquqi aktların hazırlanması, mövcud qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması və institusional mexanizmlərin gücləndirilməsi baxımından baza rolunu oynayır.

Uşaq hüquqlarının təmini, müdafiəsi və inkişafı Azərbaycan dövlətinin prioritet vəzifələri sırasındadır və bu istiqamətdə davamlı olaraq kompleks tədbirlər həyata keçirilməkdədir.

Azərbaycan Respublikası BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının fəal iştirakçısı olmaqla, bu sənəddə təsbit olunmuş müddəaların implementasiyası istiqamətində müvafiq islahatlar həyata keçirmiş, uşaqların müdafiəsinə dair milli qanunvericilik təkmilləşdirilmiş və müvafiq hüquq-müdafiə mexanizmləri yaradılmışdır.

Konvensiyanın tələbləri əsasında qəbul edilən "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu və bu sahədə qəbul olunmuş digər normativ-hüquqi aktlar uşaqların hüquqlarının qorunması, onların sosial müdafiəsinin gücləndirilməsi, təhsil, səhiyyə və digər xidmət sahələrinə bərabər çıxışının təmin olunması üçün hüquqi baza yaratmışdır.

Prezident cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın rəhbərliyi və təşəbbüsü ilə respublikamızda uşaq hüquqlarının təmini sahəsində müntəzəm olaraq genişmiqyaslı islahatlar aparılır, mühüm nailiyyətlər əldə edilir.

Ölkəmizdə uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən dövlət siyasəti çoxşaxəli xarakter daşıyır və bu sahədə müxtəlif sosial proqramlar əsasında sistemli şəkildə tədbirlər icra olunur. Uşaqların bərabər imkanlarla keyfiyyətli təhsilə çıxışı sahəsində ardıcıl tədbirlər həyata keçirilir, bu istiqamətdə məktəbəqədər və ümumi təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirilir, yeni təhsil müəssisələri inşa edilir, tədris mühitinin keyfiyyətinin davamlı olaraq yüksəldilməsi və təhsilin müasir tələblərə uyğunlaşdırılması məqsədilə mühüm addımlar atılır. Təhsildən yayınma, erkən evlilik və uşaq əməyinin istismarı kimi mənfi halların aradan qaldırılması məqsədilə müvafiq qurumların iştirakı ilə genişmiqyaslı maarifləndirmə və nəzarət tədbirləri həyata keçirilir.

Ana və uşaq sağlamlığının mühafizəsinə dair qəbul edilən dövlət proqramları və görülən tədbirlər nəticəsində səhiyyə sahəsində xidmətlərin keyfiyyəti yüksəldilmiş, uşaqlar üçün ixtisaslaşmış tibb müəssisələrinin fəaliyyəti, doğuşayardım və perinatal xidmətlər təkmilləşdirilmiş, profilaktik tədbirlərin əhatə dairəsi genişləndirilmişdir.

Əlilliyi olan uşaqların sosial müdafiəsinin gücləndirilməsi, reabilitasiya imkanlarının genişləndirilməsi və inklüziv təhsilə bərabər çıxışının təmin olunması məqsədilə mühüm institusional və hüquqi islahatlar aparılır. Bakı şəhəri və regionlarda bir sıra məktəblərdə inklüziv siniflərin əhatə dairəsi daha da genişləndirilir.

Sosial müdafiə sahəsində aztəminatlı və risk qrupuna daxil olan uşaqların rifahının yüksəldilməsi, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların ailə əsaslı qayğı sisteminə inteqrasiyası üçün tədbirlər daha da gücləndirilir.

Mədəniyyət və idman sahələrində uşaqların yaradıcılıq potensialının inkişafı üçün geniş imkanlar yaradılmış, uşaq-gənclər inkişaf mərkəzləri, musiqi məktəbləri və idman komplekslərinin fəaliyyəti genişləndirilmişdir.

Bütün uşaqların bərabər hüquqlara malik olduğu ölkəmizdə baxımsız, sosial təhlükəli vəziyyətdə olan uşaqlara göstərilən xidmətlərin kəmiyyət və keyfiyyətinin artırılması istiqamətində zəruri tədbirlər davam etdirilir.

Qeyd olunmalıdır ki, uşaqlara qarşı zorakılıq və istismar hallarının qarşısının alınması istiqamətində maarifləndirmə işləri daha da genişləndirilmiş, hüquqi mexanizmlər təkmilləşdirilmişdir.




Həyata keçirilən bütün tədbirlər uşaqların rifahının yüksəldilməsi, onların sağlam və təhlükəsiz mühitdə böyüməsi, keyfiyyətli təhsil və sosial xidmətlərdən bərabər şəkildə yararlanması, həmçinin cəmiyyətdə fəal və layiqli vətəndaş kimi formalaşması məqsədlərinə yönəlmişdir.

Uşaqların hüquqlarının müdafiəsi və təşviqi sahəsində müstəqil milli insan hüquqları institutu olaraq Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) rolu xüsusi əhəmiyyət kəsb edir. Ombudsman uşaqlarla bağlı daxil olan, eləcə də media subyektlərində və ya sosial şəbəkələrdə yayımlanan hüquq pozuntularının operativ qaydada araşdırılması və bərpasında, maarifləndirmə fəaliyyətinin həyata keçirilməsində, insan hüquqları pozuntularının qarşısının alınmasında, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi prosesinə töhfə verilməsində mühüm rol oynayır.

Ombudsmanın ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzələrində müxtəlif əhali qrupları ilə yanaşı, uşaqların hüquqlarının müdafiəsinə dair çoxsaylı mühüm təkliflər və tövsiyələr irəli sürülmüşdür.

Müvəkkil, həmçinin təsisatda fəaliyyət göstərən Milli Preventiv Qrup və "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsi üzrə Monitorinq qrupu tərəfindən uşaq hüquqlarının təmini vəziyyətinin öyrənilməsi məqsədilə mütəmadi olaraq təhsil, səhiyyə, sosial xidmət müəssisələrinə, yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisəsinə və uşaqların olduğu digər müəssisələrə başçəkmələr həyata keçirilir. Monitorinqlərin nəticələri əsasında aidiyyəti dövlət qurumlarına rəsmi müraciətlər ünvanlanır, aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması məqsədilə müvafiq tövsiyələr verilir. Təkrar başçəkmələr zamanı əvvəlki tövsiyələrin icra vəziyyəti yoxlanılır, müsbət dəyişikliklər qeyd olunur, əlavə tədbirlərin görülməsi zərurəti barədə təkliflər irəli sürülür.

Ombudsman tərəfindən uşaqlarla bağlı maarifləndirmə işinə və təşviqat kampaniyalarının həyata keçirilməsinə xüsusi önəm verilir. Cari ildə ombudsmanın təşəbbüsü ilə 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar uşaqların hüquq və azadlıqları barədə ictimai məlumatlılığın artırılması, onların cəmiyyətdə layiqli və fəal iştirakına töhfə verilməsi məqsədilə sosial maarifləndirici videoçarx hazırlanmışdır. Həmin videoçarxda uşaqların iştirakının təmin edilməsində Azərbaycan Gimnastika Federasiyası, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, "Neftçi" Peşəkar Futbol Klubu, Avropa Azərbaycan Məktəbi və "Birgə və Sağlam" İctimai Birliyi ilə əməkdaşlıq edilmişdir.

Videoçarxda uşaqlara qarşı ayrı-seçkiliyin yolverilməzliyi, uşaqların mənafelərinin üstünlüyü, onların sağlam, təhlükəsiz, qayğı ilə əhatə olunan mühitdə yaşamaq və inkişaf etmək hüququnun təmini, həmçinin uşaqların fikirlərinə hörmətlə yanaşılması kimi mühüm prinsiplərin və bu istiqamətdə birgə fəaliyyətin vacibliyi əks olunmuşdur.

Ombudsman Aparatı tərəfindən müxtəlif kateqoriyadan olan uşaqların hüquqlarının müdafiəsi, onların iştirakçılığının təşviqi və cəmiyyətə inteqrasiyasına yönəlmiş tədbirlərin həyata keçirilməsi daim diqqətdə saxlanılır.

Bu istiqamətdə keçirilən tədbirlərin davamı olaraq, cari ildə təsisat tərəfindən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və "Səssiz Ünsiyyət" Jest Dilinin İnkişafına Dəstək İctimai Birliyi ilə əməkdaşlıqda Bakı şəhəri 2 nömrəli internat tipli xüsusi ümumtəhsil məktəbinin bir qrup şagirdinin Bakı Zooloji Parkına ekskursiyası təşkil olunmuşdur. Bu kimi təşəbbüslər uşaqların asudə vaxtlarının səmərəli təşkilinə, onların cəmiyyətə inteqrasiyasına və inklüzivliyin təşviqinə imkan yaradır.

BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının qəbul olunmasının ildönümü ərəfəsində ombudsman tərəfindən hər il 20 oktyabr - 20 noyabr tarixləri ölkədə ənənəvi olaraq "Uşaq Hüquqları Aylığı" elan olunur. Bu təşəbbüsün əsas məqsədi uşaq hüquqlarının müdafiəsi sahəsində əhalinin məlumatlılığının artırılması, aidiyyəti qurumları səfərbər etməklə cəmiyyətin diqqətinin uşaqların müdafiəsinə cəlb edilməsindən və bu sahədə ictimai fəallığın təşviqindən ibarətdir.

Aylıq çərçivəsində uşaq hüquqlarının təşviqinə və müdafiəsinə yönəlmiş çoxsaylı tədbirlər həyata keçirilir. Hər il dövlət və yerli özünüidarəetmə orqanları, vətəndaş cəmiyyəti institutları, həmkarlar ittifaqları, qeyri-hökumət təşkilatları və digər müvafiq qurumlar ombudsmanın bu təşəbbüsünə qoşularaq uşaqların hüquqlarının təmininə dair həyata keçirilən fəaliyyətə öz töhfələrini verirlər. Sevindirici haldır ki, ildən-ilə uşaq hüquqlarının müdafiəsi və təbliği istiqamətində fəaliyyət göstərən tərəfdaşların sayı artır, müxtəlif sahələrdən olan qurumlar və təşkilatlar bu prosesə daha fəal şəkildə qoşulurlar.

Bu baxımdan, müsbət nümunələrdən biri kimi, aylıq çərçivəsində "Neftçi" Peşəkar Futbol Klubunun (PFK) Ombudsman Aparatı və "Ümid Yeri" Uşaq Sığınacağı ilə birgə əməkdaşlıqda uşaqların hüquqlarının təmininə öz töhfəsini verməsini qeyd etmək olar. Belə ki, 2025-ci il 1 noyabr tarixində keçirilən "Neftçi" PFK - "Kəpəz" oyunu zamanı futbolçular uşaqlar tərəfindən nömrələri rənglənmiş və əl işlərinin təsvir olunduğu xüsusi formalarla meydana çıxmış, oyun zamanı "Neftçi" PFK və uşaqların iştirakı ilə "Hər bir uşağın xoşbəxt gələcəyi naminə həmrəy olaq!" şüarını əks etdirən plakatla cəmiyyətin diqqəti uşaq hüquqlarının qorunmasının əhəmiyyətinə yönəldilərək çağırış edilmişdir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində və antiterror əməliyyatında əldə etdiyimiz qələbə nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa edilməsi işğaldan azad olunmuş ərazilərimizdə də uşaqların hüquqlarının təmininə imkan yaratmışdır ki, bu istiqamətdə də genişmiqyaslı tədbirlərin icrası davam etdirilir.

"Uşaq Hüquqları Aylığı" çərçivəsində Ombudsman Aparatının əməkdaşları tərəfindən işğaldan azad edilmiş ərazilərimizdə yerləşən təhsil müəssisələrində maarifləndirici görüşlər bu il də davam etdirilmişdir. Xankəndi şəhəri Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbi, Xocalı rayonu Ballıca kənd tam orta məktəbi, Xocalı rayonu 1 nömrəli tam orta məktəbi, Ağdam rayonu Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbi və Ağdam rayonu Kəngərli tam orta məktəbində uşaqların və pedaqoji heyətin iştirakı ilə keçirilən tədbirlərdən ümumilikdə 450 nəfərdən artıq şagird, 60 nəfərdən artıq pedaqoji heyət müəyyən bilgilərlə faydalanmışdır.

Bununla yanaşı, Xankəndi şəhəri 1 nömrəli körpələr evi-uşaq bağçasında yaradılmış şərait, ümumilikdə uşaq hüquqlarının təmini vəziyyəti öyrənilmiş, müəssisənin işçi heyəti ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Son dövrlərdə təsisatda uşaq hüquqları üzrə ixtisaslaşmış struktur bölmənin yaradılması, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununa edilmiş dəyişikliklər nəticəsində uşaq hüquqlarının müdafiəsi sahəsində müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi ilə bağlı ombudsmana verilən səlahiyyətlər, "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsi üzrə Monitorinq qrupunun yaradılması bu istiqamətdə fəaliyyətin təşkili baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd olunan islahatlar nəzərə alınaraq, Avropa Uşaq Ombudsmanları Şəbəkəsinin (ENOC) 29-cu Baş Assambleyasında Azərbaycanın Ombudsman təsisatı assosiativ üzvlükdən tam üzvlüyə qəbul edilmişdir. Bununla da Ombudsman təsisatının ENOC-un Nizamnaməsində nəzərdə tutulmuş meyarlara uyğunluğu təsdiqlənmişdir.

Ombudsman xüsusi qayğıya ehtiyacı olan uşaqların hüquqlarının müdafiəsi, onların cəmiyyətə inteqrasiyasına dəstək verilməsinin vacibliyini daim önə çəkərək həmin uşaqlarla mütəmadi görüşlər keçirir, onların hüquqlarının təmini vəziyyətini daim diqqətdə saxlayır. Cari ildə ombudsman tərəfindən müstəqil monitorinq mexanizmi fəaliyyəti çərçivəsində uşaqların hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması məqsədilə Bakı şəhəri 5 nömrəli internat tipli xüsusi ümumtəhsil məktəbinə başçəkmə həyata keçirilmişdir. Müəssisənin yataqxana, yeməkxana, tibb, sinif və digər inzibati otaqlarına baxış keçirilmiş, uşaqların təhsili, asudə vaxtının, qidalanmanın və sənədləşmənin təşkili vəziyyəti öyrənilmişdir. Müvəkkilin təşəbbüsü ilə təsisat tərəfindən görmə qabiliyyəti tam məhdud şəxslər üçün Brayl əlifbası ilə hazırlanmış "İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizm" adlı xüsusi maarifləndirici vəsait və uşaq hüquqlarına dair nəşrlər müəssisəyə təqdim edilmişdir. Müvəkkil şagirdlərlə görüşərək uşaqların fikirlərini dinləmiş, onlara hüquq və vəzifələri, habelə ombudsmana müraciət formaları barədə geniş məlumat vermişdir. Monitorinqin yekunu olaraq ombudsman tərəfindən BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının tələbləri də nəzərə alınmaqla uşaqların hüquqlarının daha səmərəli təmin edilməsi məqsədilə müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmişdir.

Əldə olunan mühüm nailiyyətlərlə yanaşı, uşaq hüquqlarının səmərəli müdafiəsi istiqamətində diqqət yetirilməli məsələlər mövcuddur. Rəqəmsal texnologiyaların sürətlə inkişafı uşaqların hüquqlarının müdafiəsi sahəsində yeni çağırışlar formalaşdırır. İnternet mühitində rast gəlinən kibertəhlükələr, şəxsi məlumatların yayılması və ondan sui-istifadə olunması, sosial şəbəkələrdə kiberzorakılıq və digər istismar halları uşaqların inkişafına birbaşa təsir göstərir. Bu reallıq uşaq hüquqlarının qorunması üzrə həyata keçirilən fəaliyyətlərdə müasir yanaşmaların tətbiqinin təkmilləşdirilməsini zəruri edir. Məhz bu xüsusda dövlət qurumlarının, xüsusilə də təhsil müəssisələrinin, vətəndaş cəmiyyəti institutlarının, medianın, eləcə də cəmiyyətin birgə və koordinasiyalı fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Uşaqların rəqəmsal mühitdə təhlükəsizliyinin təmin olunması, informasiya savadlılığının artırılması istiqamətində kompleks və davamlı işlərin aparılması zəruridir.

Ailədaxili zorakılıq, valideyn məsuliyyətsizliyi və uşaqlara qarşı laqeyd münasibət halları uşaqların fiziki və psixi sağlamlığına mənfi təsir göstərir. Bu hallar həm də Azərbaycan Respublikasının Ailə Məcəlləsində, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda, həmçinin BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasında təsbit olunmuş uşağın müdafiə və qayğı görmək hüququnun həyata keçirilməsinə maneə yaradır. Ailələrin dağılması, boşanma hallarının artması və sosial təcrid uşaqların emosional sabitliyinə, mənəvi inkişafına və təhlükəsizliyinə mənfi təsir göstərir. Bu baxımdan, valideynlər, ümumilikdə uşaqlarla təmasda olan şəxslər bütün hallarda uşaqların mənafelərinin üstünlüyü prinsipinə riayət etməli, onların fiziki və mənəvi inkişafı, təhlükəsizliyi və rifahı naminə vəzifələrini tam şəkildə yerinə yetirməlidirlər.

Uşaqların hərtərəfli qayğı ilə əhatə olunan mühitdə yaşaması hər bir cəmiyyətin inkişaf səviyyəsini müəyyən edən əsas meyarlardandır. Uşaqlarla bağlı verilmiş hər bir qərar və həyata keçirilən fəaliyyət uşaqların maraqlarının üstünlüyü prinsipinə, onların tam inkişafına və layiqli həyat səviyyəsinin təmin edilməsinə əsaslanmalıdır.

Gəlin uşaqların rifahı, təhlükəsizliyi və hüquqlarının təmin olunması naminə səylərimizi birləşdirək, hər bir uşağın xoşbəxt gələcəyi naminə həmrəy olaq!

***Səbinə ƏLİYEVA,***
***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), hüquq üzrə fəlsəfə doktoru***

# İşçi Qrupu 10 aylıq icmalı açıqlayıb

**Bu ilin yanvar-oktyabr ayları ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.**

İşçi Qrupundan AZƏRTAC-a verilən məlumata görə, hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində, ümumilikdə, 7030 cinayət faktı aşkarlanıb. Onlardan 2232-si narkotik vasitələrin qanunsuz satışı, 4611-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 185-i narkotik tərkibli bitkilərin qanunsuz əkilib becərilməsi, 2-si bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

❖ ❖ ❖

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən, ümumilikdə, müsadirə olunmuş 7 ton 263 kiloqram 229,113 qram narkotik vasitələrin və psixotrop maddələrin 6 ton 446 kiloqram 419,462 qramını marixuana, 281 kiloqram 848,682 qramını heroin, 143 kiloqram 956,179 qramını tiryək, 75 kiloqram 167,942 qramını həşiş, 153,551 qramını kokain, 181 kiloqram 415,261 qramını digər narkotik vasitələr və 134 kiloqram 268,036 qramını psixotrop maddələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 10506 ədəd metadon, 18923 ədəd çətənə bitkisi, eləcə də 600,492 qram, 95 həb, 39 kapsul güclü təsir edən maddə qanunsuz dövriyyədən götürülüb.

Hesabat dövründə Daxili İşlər Nazirliyinin təşkilatçılığı və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 1201,5 hektar sahədən yaş kütləsi 304 ton 762 kiloqram olan 2 600 707 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilib.

Qanunsuz dövriyyədən çıxarılmış 7 ton 263 kiloqram 229,113 qram narkotik vasitələrin və psixotrop maddələrin, ümumilikdə, dəyəri 185 milyon 166 min AZN kimi qiymətləndirilir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 4687 nəfər cəlb edilib, onlardan 4545-i kişi, 142-si qadın olub.

Məsuliyyətə cəlb edilmiş 84 xarici ölkə vətəndaşından, ümumilikdə, 936 kiloqram 499,874 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə və 271,772 qram çətənə bitkisi götürülüb.

❖ ❖ ❖

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 212 fakt aşkar edilib, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 3 ton 087 kiloqram 262,033 qram və 10 506 həb metadon narkotik vasitə və psixotrop maddə, 13194 ədəd həb və 5,7 qram güclü təsir edən maddə çıxarılıb.

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 251-i qrup halında törədilib və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 2 ton 348 kiloqram 977,374 qram nakotik vasitə, psixotrop maddə və 36 qram güclü təsir edən maddə müsadirə edilib.

2254 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilib və onlardan 1 ton 854 kiloqram 643,966 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə olunub.

Təhlil göstərir ki, 2024-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə cari ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 1078, qanunsuz satış ilə bağlı faktların sayı 345, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 688, narkotik tərkibli bitkilərin qanunsuz kultivasiya edilməsi faktlarının sayı 41, bu kateqoriyadan olan digər cinayət faktlarının sayı 4 ,qaçaqmalçılıqla bağlı faktların sayı 7, qrup halında olan cinayətlərin sayı 29 fakt, məsuliyyətə cəlb olunmuş şəxslərin sayı 1560 nəfər azalıb. Bununla yanaşı, qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 1 ton 201 kiloqram 410,017 qram artıb.

2024-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə cari ilin müvafiq dövrü ərzində qanunsuz dövriyyədən çıxarılmış güclü təsirə malik narkotik vasitələrin, o cümlədən heroinin çəkisi 230 kiloqram 316,277 qram, tiryəkin çəkisi 10 kiloqram 301,291 qram, psixotrop maddələrin çəkisi 57 kiloqram 476,923 qram azalıb.

❖ ❖ ❖

Müsadirə edilmiş müxtəlif növ narkotik vasitələrin 6 ton 446 kiloqram 414,562 qramını (88,7 faiz) marixuana təşkil edib. Onun da 5 ton 663 kiloqram 874,462 qramı (87,8 faizi) tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş xarici ölkə mənşəli olub. 782 540,1 qram (12,1 faiz) isə iqlim şəraitinə uyğun olaraq ölkə ərazisində istixanalarda, zirzəmilərdə, həyətyanı sahələrlə, meşə ovalıqlarında və çay yataqlarında qanunsuz kultivasiya edilib.

Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə 2025-ci ilin 28 yanvar və 29 may tarixlərində qanunsuz dövriyyədən çıxarılıb və ya müsadirə olunmuş külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiya tərəfindən, ümumilikdə, 2358 məhkəmə qərarına əsasən barəsində məhvetmə qərarı qəbul edilmiş 10 ton 121 kiloqram 801,942 qram müxtəlif növ narkotik vasitə, psixotrop maddə və onların prekursorları, həmçinin 8644 ədəd çətənə bitkisi məhv edilib.

Eyni zamanda hesabat dövründə qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə edilmiş az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiyaların birgə təşkilatçılığı 59 rayon və şəhərdə 2243 məhkəmə hökmü üzrə barəsində məhvetmə qərarı qəbul edilmiş ümumi çəkisi 55 kiloqram 191,252 qram və 21 həb müxtəlif narkotik vasitələrin, psixotrop maddələrin, 4 kapsul güclü təsir edən maddənin və 489 ədəd çətənə bitkisinin məhv olunması təmin edilib.

❖ ❖ ❖

Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 80 min 786 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 4756 nəfərdən 2514 nəfərin istifadəçi olması müəyyən edilib və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin olunub.

Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə (Respublika Narkoloji Mərkəzində 292, QİÇS-lə Mübarizə Mərkəzində 316, Sumqayıt Narkoloji Mərkəzində 126 nəfər) 734 xəstə müalicə alır.

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən, ölkədə narkomanların İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur. 2025-ci ilin oktyabr ayının sonuna kimi aşkarlanmış İİV-ə yoluxmuş Azərbaycan vətəndaşları arasında 50 (4,7 faiz) nəfəri inyekson narkotik istifadəçiləri olub.

"802" qaynar xətt telefon zəng xidmətinə 1026 vətəndaş müraciəti daxil olub ki, onların 118-i narkotik vasitələrin qanunsuz dövriyyəsi, 60-ı narkotik asılılıqdan müalicə, 848-i isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 178 məktub ünvanlanıb.

"802" qaynar xətt zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılıb və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülüb, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilib.

# Möhtəşəm qələbənin sevincli günləri

**30 ilin ağrı-acılarından, doğma vətənində məcburi köçkünə çevrilib dözülməz məhrumiyyətlərdən cana doyan, ancaq heç zaman inamını itirməyən qədim və böyük bir elin üzünə doğan Zəfər günəşi külli Qarabağı və Şərqi Zəngəzuru nura boyadı. Parlaq qələbə illərin dərdini, kədərini unutdurdu. Göz yaşlarının cığır açdığı üzlərə təbəssüm qondu. Torpaqlarımızın azadlığı uğrunda qəhrəmanlıqla döyüşüb şəhid olan oğulların qisası layiqincə alındı. Uzun illər boyu qaysaq bağlamayan yaralarımıza, ürəyimizə və torpaqlarımıza çəkilən çalın-çarpaz dağlara Qələbə ən gözəl məlhəm oldu.**



## Ağ günün mübarək, Ağdam!

İndi Şuşada, Xankəndidə, Ağdamda, Laçında, Kəlbəcərdə... dalğalanan ay-ulduzlu bayrağımız son dərəcə qürurvericidir. Qələbənin töhfələri misilsizdir. Ən qısa bir zaman kəsiyində Şuşa tanınmaz olub. Buludlar arasından sıyrılan günəş kimi nur saçır, yenidən mədəniyyət və turizm mərkəzinə çevrilir. Qələbədən sonra xüsusi zövqlə yenidən qurulan Laçının gözəlliyi göz qamaşdırır. Azadlığa qovuşan Xankəndi doğmalarının isti nəfəsi ilə canlanır. Zəngilan, Laçın və Füzuli aeroportları ölkəmizin ali qonaqlarını qəbul edir. Kəlbəcər istiqamətində keçilməz Ömər aşırımını asanlaşdıran, uzunluğu 11 kilometrdən çox olan tunelin tikintisi başa çatmaq üzrədir.

Ağdamda isə bu gün bayramdır - şəhər günüdür. Bayramın mübarək, doğma Ağdam! Uğrunda şirin canından keçib sənə qurban olan igid övladlarının ruhu bu gün Qarabağın aydın səmasında şadxürrəm dolanır. Hər qarışına şəhid qanı hopan bu müqəddəs torpaq 30 il yağı düşmənin işğalı altında balasını itirmiş ana kimi inlədi. Zülm ərşə dirəndi. İsti yuvalarımız odlara qalandı, ev-eşiyimiz yağmalandı, kəndlərimiz, şəhərlərimiz, yaşı min illərlə hesablanan tarixi abidələrimiz, məscidlərimiz viran edildi.

Heyif ki, bu ədalətsiz savaşda ən çox itirən sən oldun, mənim doğma Ağdamım. Erməni cəlladları sanki bütün bəd niyyətlərini Ağdama yönəltmişdilər. Bölgələr arasında ən çox şəhidi sən verdin. Qəhrəman oğulların sinəsini düşmən gülləsinə sipər edib, göylərə çəkildilər. Kini, qəzəbi selə dönən düşmən bir zamanların möhtəşəm ağ şəhərini qara libasa bürüdü, daşı üstdə daş qalmadı Ağdamın. Çalçağırlı, cah-calallı Ağdam, sözün həqiqi mənasında, ruhlar şəhərinə çevrildi. Arxalı köpək qurd basdı. Dostlarından, havadarlarından, hər cür dəstək, yardım, silah-sursat, hərbi texnika alan Ermənistan 30 il doğma Qarabağımızı işğal altında saxladı. Zaman-zaman haqdan, ədalətdən, demokratiyadan, insan hüquqlarından nağıllar danışan Qərb, Avropa uzun illər boyu bu bəşəri cinayətləri, gerçək soyqırımı görməzdən gəldi...

Belə bir müdrik deyim var: haqq nazilər, amma üzülməz. Biz haqqın qələbə çalacağı anı nə az, nə çox, düz 30 il gözləməli olduq. Bu 30 ildə əl-qolumuzu sallayıb oturmadıq. Umu-küsüləri unudub ölkədə milli həmrəyliyi möhkəmləndirməyə çalışdıq. Dövlət başçısının ətrafında daha sıx birləşdik. Yenilməz birliyimizlə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin gücünə güc qatdıq.

Xalqın xilaskar oğlu İlham Əliyev ən əlverişli bir zamanda orduya hücum əmri verdi. Cəmi 44 gün çəkən müharibə Azərbaycanın tam və qəti qələbəsiylə başa çatdı. Azərbaycan tarixi Zəfərə, Ermənistan isə rüsvayçı kapitulyasiya aktına qol çəkdi. Beş il əvvəl bir payız günündə Qarabağa azadlıq günəşi doğdu. Bu günəşin yurdumuza, elimizə, obamıza, doğma Qarabağımıza əbədi bahar gətirəcəyi indi heç kəsdə şübhə doğurmur.

Çal-çağırlı, toy-büsatlı günlərinə yenidən qovuşan Ağdam vətən sevdalı oğullarının hərarətli əlləri ilə indi yenidən qurulur. Sinəsinə çəkilən çalın-çarpaz dağlar övladlarının doğma və isti nəfəsiylə əriyib yox olur. Ağdamı sürətlə canlanır, hər gün bir qarış yox, min qarış boy atır. Prezident İlham Əliyevin hər bir ölkə vətəndaşına məlum olan istəyi budur ki, Ağdam dünyanın ən gözəl şəhərlərindən biri kimi qursun. Məhz onun - xalqın xilaskar oğlunun tapşırığı ilə hazırlanan şəhərin baş planında Ağdamı Qarabağın incisinə çevirmək üçün hər şey nəzərdə tutulmuşdur. Çox keçməz ki, düşmənin "ruhlar şəhəri"nə çevirdiyi Ağdam tezliklə göz qamaşdıran gözəlliyi ilə ermənilərin gerçək gözdağına çevriləcək.

Bərdə-Ağdam istiqamətində yeni çəkilmiş avtomobil yolu Avropa standartlarından da üstündür. Yenidən bərpa edilmiş dəmiryol xətti Ağdama sürət qatarının qrafik əsasında işləməsini gerçəkləşdirdi. Artıq burada yeni fabrik və zavodlar Ağdam markası ilə məhsullar istehsal edir. Yaraşığı ilə diqqət çəkən Muğam mərkəzində vaxtaşırı maraqlı mədəni tədbirlər keçirilir. Yeni inşa olunan yaşayış məhəllələrin sırası getdikcə sıxlaşır. Gərgin iş qrafikinə baxmayaraq, Prezident İlham Əliyev tez-tez bölgəyə səfərlər edir. Aparılan tikinti-quruculuq işləri ilə tanış olan dövlət başçısı dəyərli məsləhətini verir, yeni layihələrin təməlqoyma mərasimlərində iştirak edir.

Bu günlər rayonda olduq, vətəndaşların qəbulu, müraciətlərə baxılması vəziyyəti ilə maraqlandıq. Görüşdüyümüz, həmsöhbət olduğumuz hər kəsdə böyük Zəfərin ilk yubileyinin yaratdığı xoş ovqatı hiss etdik. Rayon sakinləriylə söhbətlərdən sonra o qənaətə gəldik ki, Ağdam Rayon İcra Hakimiyyəti vətəndaşların müraciətlərinə həssaslıqla baxılmasını, onların qəbulunun təşkilini, qaldırdıqları problemlərin həll olunmasını, onlara vaxtında cavab verilməsini daim diqqət mərkəzində saxlayır, "Yerli İcra Hakimiyyəti orqanlarında vətəndaşların müraciətləri üzrə vahid elektron informasiya sisteminin yaradılması haqqında" Prezident İlham Əliyevin imzaladığı sərəncamın tələblərinə ciddi əməl edir. Öyrəndik ki, cari ilin 10 ayı ərzində rayon icra hakimiyyəti başçısı aparatına 1984 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərin 1177-si, yaxud 59,3 faizi həll olunmuşdur. Hər həftənin 3-cü günü rayon icra hakimiyyəti başçısının qəbuludur. Bu, rəsmi qrafikdir. Əslində isə ara günlərində gələnlər də qəbul olunub, diqqətlə dinlənilir. Çalışılır ki, heç kəs yerli icra orqanından narazı qayıtmasın. Birmənalı demək olar ki, RİH-in başçısı hər kəs üçün əlçatandır. Rayon sakinləri Vaqif Həsənovla yolda, küçədə, el-obanın xeyir-şər məclislərində müxtəlif tədbirlərdə görüşüb dərdlərini, problemlərini deyə bilirlər.

Hər həftənin 5-ci günü rayonun ayrı-ayrı yaşayış məntəqələrində, ayda bir dəfə isə məcburi köçkünlərin sıx məskunlaşdıqları Bakıda səyyar görüş-qəbullar keçirilir. Bu il keçirilmiş 39 səyyar görüş-qəbulda 3387 nəfər vətəndaş iştirak etmişdir. Qaldırılan problemlərin əksəriyyəti müsbət həll edilmiş, rayon icra hakimiyyətinin səlahiyyəti daxilində olmayan məsələlər isə aidiyyəti üzrə müxtəlif mərkəzi icra orqanlarına göndərilmişdir.

Bu gün Ağdamda vətəndaş-məmur münasibətlərinin normal səviyyədə olması xoş ovqatın, yüksək əhvali-ruhiyyənin əsas şərti kimi qəbul edilməlidir. Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənovun bu duruma özünəməxsus yanaşması var. Deyir ki, Prezident İlham Əliyevin sərəncamı ilə vəzifəyə təyin olunmaq hər kəsə müyəssər olmayan bir şərəfdir: "Amma bundan yüz qat artıq məsuliyyətlidir. Dövlət başçısının etimadını doğrultmaq, elinə-obana vicdanla xidmət etmək üçün gərək bütün enerjini sərf edəsən, camaatla qaynayıb-qarışasan, insanların xeyrindən-şərindən qalmayasan".

Bu yaxınlarda Prezident İlham Əliyev bir sıra rayonlara yeni təyin etdiyi icra hakimiyyəti başçılarını qəbul edərkən çox dəyərli fikirlər söylədi. Onlara tapşırıq və tövsiyələrini verdi. Dedi ki, insanlara diqqət göstərmək, onların qayğıları ilə yaşamaq, daim onların arasında olmaq lazımdır. Xüsusi vurğuladı ki, bütün kəndləri bir-bir gəzib orada insanlarla təmasda olmaq mənim sizdən tələbimdir. Dövlət başçısı bu sözləri, əslində, yeni təyin olunan icra başçılarına demirdi. Bu tapşırıqlardan hər bir dövlət məmuru öz payını götürməli, fəaliyyətini məhz bu konkret tələblər əsasında qurmalıdır. Prezidentin istəyi budur ki, hər bir məmur dövlətinə, xalqına vicdanla, şərəflə xidmət etsin. Xalqımızın sınaqlardan çıxmış yenilməz birliyi, dövlətimizin gündən-günə artan qüdrəti üçün bu, çox lazımdır.

Bir daha ağ günün mübarək, Ağdam! Səni azadlığa, bizləri xoş ovqatlı günlərə qovuşduran Ali Baş Komandana və ordumuza əbədi eşq olsun!

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Ağdamın Xıdırlı kəndinə növbəti köç olub





**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Böyük qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıdışı davam edir. Noyabrın 19-da yola salınan növbəti köç karvanı Ağdam rayonunun Xıdırlı kəndinə çatıb.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu mərhələdə Xıdırlı kəndində 73 nəfərdən ibarət 15 ailəyə mənzillərin açarları təqdim olunub.

Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Xıdırlıya köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən, yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

## Sos kəndində daha 20 ailə məskunlaşıb

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, Xocavənd rayonunun Sos kəndinə növbəti köç prosesi gerçəkləşib, yola salınan ailələr doğma yurdlarına qovuşublar. Sos kəndinə çatan ailələrə evlərinin açarları təqdim olunub.**



AZƏRTAC xəbər verir ki, Xocavənd rayonunun Sos kəndinə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək, öz evlərində məskunlaşıblar.

Yaşayış məntəqəsində sakinlərin məskunlaşması üçün lazımi şərait yaradılıb. Yollar abadlaşdırılıb, evlər və kommunikasiya infrastrukturu bərpa edilib.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Qeyd edək ki, bu mərhələdə Sos kəndinə 20 ailə olmaqla 80 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

## Qırımızı Bazarda daha 21 ailəyə evlərinin açarları təqdim olunub

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə növbəti köç prosesi gerçəkləşib, yola salınan ailələr doğma yurdlarına qovuşublar.**




Növbəti köç karvanı ilə Qırmızı Bazar qəsəbəsinə çatan ailələrə evlərinin açarları təqdim olunub. AZƏRTAC xəbər verir ki, Qırımızı Bazara köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək, öz evlərində məskunlaşıblar.

Qəsəbədə sakinlərin məskunlaşması üçün lazımi şərait yaradılıb. Yollar abadlaşdırılıb, evlər və kommunikasiya xətləri bərpa edilib.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Qeyd edək ki, bu mərhələdə Qırmızı Bazar qəsəbəsinə 21 ailə olmaqla, 89 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

### Yetkinlik yaşına çatmayan şəxsin mülkiyyətində olan daşınar və daşınmaz əmlakın üzərində notariat hərəkətlərin aparılmasına dair razılığın verilməsi

*Azərbaycan Respublikasının "Mülki Məcəlləsi"nin 36-cı və Azərbaycan Respublikasının "Ailə Məcəlləsi"nin 55-ci maddələrinin tələbləri nəzərə alınmaqla;*

**Xidmət üzrə tələb olunan sənədlər:**

1. Hər iki valideyn tərəfindən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının adına ərizə;
2. Valideynlər haqqında məlumat (ölüm haqqında şəhadətnamənin, valideynlik hüququndan məhrum edilmə barədə qətnamə və s.)
3. Yetkinlik yaşına çatmayanın doğum haqqında şəhadətnaməsi;
4. Valideynlərin şəxsiyyət vəsiqələri;
5. Nikah haqqında şəhadətnamə;
6. Yaşayış yerindən arayış;
7. Satılan əmlakın sənədləri;
8. 10 yaşından yuxarı uşağın razılıq ərizəsi.

**Ərizə nümunəsi:**

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı
cənab Elxan Allahverdiyevə

______________________________
(vətəndaşın pasport qeydiyyatında olduğu ünvan)

yaşayan ______________________
(soyadı, adı, atasının adı)

tərəfindən
**tel.:** ______________

**Ə R İ Z Ə**

Sizdən xahiş edirəm ki, ______________________________
(qohumluq dərəcəsi) (mülkiyyətçinin soyadı,adı, ata adı)

mülkiyyətində olan ____________________________ məqsədi ilə
(əmlakın növü) (özgəninkiləşdirilməsinin səbəbi)

__________ təvəllüdlü oğlum (qızım) ______________________
(uşağın soyadı, adı, atasının adı)

mülkiyyətində olan hissənin satılmasına (bağışlanmasına və s.) razılıq verəsiniz.

**İmza:**
**Tarix:**
**Ətraflı:** http://binegedi-ih.gov.az/az/xidmetler.html
https://dxr.az/xidmet/25111
https://rih.gov.az/services
https://rih.gov.az/services/detailed/8

### Qəyyumluqda və himayədə olanların əmlakı barədə rəy (icazə) verilməsi

**Azərbaycan Respublikasının "Mülki Məcəlləsi"nin 36-cı və Azərbaycan Respublikasının "Ailə Məcəlləsi"nin 55-ci maddələrinin tələbləri nəzərə alınmaqla;**

**Müraciət edən verilən cavabla (qəbul edilən qərarla) razı olmadıqda müraciətini məhkəmə qaydasında mübahisələndirə bilər.**

**Xidmət üzrə tələb olunan sənədlər:**

1. Qəyyum və ya himayədə olanın şəxsiyyət vəsiqəsi;
2. Qəyyum və ya himayədə olanın doğum haqqında şəhadətnaməsi;
3. Qəyyumluqda və ya himayədə olanın əmlakının sənədləri;
4. Qəyyum və ya himayəçinin qəyyum və ya himayəçi təyin olunmasını təsdiq edən sənəd;
5. Qəyyum və ya himayəçinin şəxsiyyət vəsiqəsi;
6. Ərizə.

**Ərizə nümunəsi:**
Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı
cənab Elxan Allahverdiyevə

______________________________
(vətəndaşın pasport qeydiyyatında olduğu ünvan)
yaşayan ______________________
(soyadı, adı, atasının adı)
tərəfindən
**tel.:** ______________

**Ə R İ Z Ə**

Sizdən xahiş edirəm ki, ___ il təvəllüdlü oğlum (qızım) ____________
(uşağın soyadı, adı, atasının adı)

______ xüsusi mülkiyyətində olan__________________________
(daşınmaz əmlakın ünvanı, daşınar əmlaka dair müvafiq məlumatlar)

______________________________əmlakın (və ya nəqliyyat vasitəsinin və s. özgəninkiləşdirilməsinə (satılması, pay verilməsi, girov qoyulması və s.) razılıq verəsiniz.

**İmza:**
**Tarix:**

**Ətraflı:** http://binegedi-ih.gov.az/az/xidmetler.html
https://dxr.az/xidmet/23324
https://rih.gov.az/services
https://rih.gov.az/services/detailed/6

### On dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayanlar, habelə psixi pozuntuya görə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxslər üzərində qəyyumluq təyin edilməsi

**Xidmət üzrə tələb olunan sənədlər:**

1. Qəyyumluğa götürülən uşağın doğum haqqında şəhadətnaməsinin surəti;
2. Qəyyumluğa götürülənin yaxın qohumlarının notariat qaydasında təsdiq edilmiş razılıq ərizələri;
3. Qəyyumun tərcümeyi-halı;
4. Ağıl zəifliyi və ya ruhi xəstəlik nəticəsində öz hərəkətlərinin mənasını başa düşməyən və ya öz hərəkətlərinə rəhbərlik edə bilməyən şəxslərin fəaliyyət qabiliyyəti olmaması barədə məhkəmənin qətnaməsi;
5. Qəyyum üçün iş yerindən arayış (əməkhaqqı göstərilməklə);
6. Qəyyum üçün iş yerindən xasiyyətnamə (işləyirsə);
7. Qəyyumluğa götürülən uşağın təhsil alması barədə arayış;
8. Qəyyum üçün yaşayış yerindən 2 saylı forma arayış;
9. Valideynlər haqqında məlumat (ölüm haqqında şəhadətnamənin surəti, valideynlik hüququndan məhrum edilmə barədə qətnamənin və s. surətləri);
10. Qəyyum adından rayon icra hakimiyyəti başçısının adına notariat qaydasında təsdiq edilmiş ərizə;
11. 10 yaşından yuxarı uşağın razılıq ərizəsi;
12. Qəyyumun sağlamlığı haqqında əsəb-ruhi, onkoloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən arayışlar;
13. Qəyyumun nikah haqqında şəhadətnaməsinin surəti;
14. Qəyyum götürənin şəxsiyyət vəsiqəsinin surəti.

**Ərizə nümunəsi:**
Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı
cənab Elxan Allahverdiyevə

______________________________
(vətəndaşın pasport qeydiyyatında olduğu ünvan)
yaşayan ______________________
(soyadı, adı, atasının adı)
tərəfindən
**tel.:** ______________

**Ə R İ Z Ə**

Yazıb Sizdən xahiş edirəm ki, mənim__________rayon məhkəməsinin müvafiq qətnaməsinə əsasən fəaliyyət qabiliyyəti olmayan qardaşım (bacım, anam, atam, həyat yoldaşım) ______________________ üzərində qəyyum təyin olunmağıma
(soyadı, adı, atasının adı)
dair müvafiq qərar qəbul edəsiniz.

**İmza:**
**Tarix:**

**Ətraflı:** http://binegedi-ih.gov.az/az/xidmetler.html
https://dxr.az/xidmet/23053
https://rih.gov.az/services
https://rih.gov.az/services/detailed/3

### Mərtəbələrinin sayı 3-dən, hündürlüyü 12 metrdən və aşırımlarının uzunluğu 6 metrdən çox olmayan fərdi yaşayış evlərinin tikintisi ilə bağlı məlumatlandırma icraatı

**Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin tələblərinə uyğun olaraq həyata keçirilir.**

***Qeyd:** Müraciət edən verilən cavabla (qəbul edilən qərarla) razı olmadıqda müraciətini məhkəmə qaydasında mübahisələndirə bilər.*

**Xidmət üzrə tələb olunan sənədlər:**

1. Torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd;
2. Tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi;
3. Tikinti ərazisinin baş planı bölməsi.

**Ərizə nümunəsi:**
Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı
cənab Elxan Allahverdiyevə

______________________________
(vətəndaşın pasport qeydiyyatında olduğu ünvan)
yaşayan ______________________
(soyadı, adı, atasının adı)
tərəfindən

**tel.:** ______________

**Ə R İ Z Ə**

Sizdən xahiş edirəm ki, ______________________ ünvanında istifadəmdə (və ya mülkiyyətimdə) olan torpaq sahəsində təqdim edilən layihə əsasında ____________________________ tikintisinə
(bağ, fərdi yaşayış evinin)

məlumatlandırma icraatının tətbiq olunmasına göstəriş verəsiniz.

**İmza:**
**Tarix:**

**Ətraflı:** http://binegedi-ih.gov.az/az/xidmetler.html
https://dxr.az/xidmet/22704
http://binegedi-ih.gov.az/az/muraciet-formalari.html
https://rih.gov.az/services
https://birpencere.arxkom.gov.az/

# Bakıda TDT-yə üzv dövlətlərin Qızıl Aypara Şəbəkəsinin rəhbərlərinin iclası keçirilib



**Bakıda Türk Dövlətləri Təşkilatına (TDT) üzv olan dövlətlərin Qızıl Aypara Şəbəkəsinin rəhbərlərinin iclası keçirilib.**

Tədbirdən öncə iştirakçılar Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanların xatirəsinə ehtiram əlaməti olaraq Şəhidlər xiyabanını və Türk Şəhidliyini ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, tədbirin açılış mərasimində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti Novruz Aslanov qeyd edib ki, Azərbaycan türk birliyinə sədaqətini sözlə deyil, əməli işləri ilə nümayiş etdirir. "Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan TDT-nin əsas geosiyasi və iqtisadi dayaqlarından birinə çevrilib. Qəbələdə keçirilən son sammit də bunun bariz nümunəsidir. Bu təşəbbüslər mədəni, elmi və humanitar əlaqələrimizi daha da gücləndirir. TDT-yə üzv dövlətlərin Qızıl Aypara cəmiyyətlərinin rəhbərləri tərəfindən "Qırmızı Şəbəkə" platformasının yaradılması haqqında memorandumun imzalanması, vahid humanitar reaksiya mexanizmlərinin formalaşdırılmasına doğru atılan mühüm addımdır. Bu, humanitar diplomatiyanın prinsiplərinə tam uyğun, strateji əhəmiyyət daşıyan bir qərardır. "Qırmızı Şəbəkə" humanitar dəyərlər, həmrəylik və qarşılıqlı dəstək prinsipləri üzərində qurulur. Biz əməkdaşlığımızı daha da gücləndirmək niyyətindəyik. Çünki bizim üçün ən böyük güc insanlığa xidmət etməkdir", - deyə N.Aslanov əlavə edib.

Azərbaycanın xarici işlər nazirinin müavini Samir Şərifov bildirib ki, regionda və beynəlxalq arenada cərəyan edən geosiyasi transformasiyalar fonunda TDT-nin birgə strateji düşüncə və ortaq fəaliyyətinə əsaslanan mexanizmlərin qurulması heç vaxt olmadığı qədər önəm kəsb etməkdədir. "Qısa müddət ərzində əsaslı inkişaf yolu keçmiş TDT-də hazırda 40-dan artıq sahə üzrə müxtəlif əməkdaşlıq formatları mövcuddur. Türk "Qırmızı Şəbəkəsi" TDT məkanında humanitar həmrəyliyin gücləndirilməsi, fövqəladə hallara çevik reaksiya verilməsi və koordinasiyanın təmin olunması məqsədilə formalaşdırılıb. Təsis edildiyi dövrdən etibarən şəbəkənin fəaliyyəti TDT çərçivəsində daim diqqət mərkəzində saxlanılıb. Hesab edirik ki, türk "Qırmızı Şəbəkəsi"nin fəaliyyəti yalnız fövqəladə hallara operativ reaksiya göstərilməsi ilə məhdudlaşdırılmamalıdır, şəbəkə türk dövlətlərinin humanitar hüququnu beynəlxalq səviyyədə nümayiş etdirən vasitə kimi də çıxış edə bilər. TDT-nin sədri kimi Azərbaycan tərəfindən türk "Qırmızı Şəbəkəsi"nin fəaliyyətinə bundan sonra da hərtərəfli dəstək göstəriləcək", - deyə S.Şərifov vurğulayıb.

TDT-nin baş katibi Kubanıçbek Ömüralıyev qeyd edib ki, bu sahədə əsas nailiyyətlərdən biri mülki müdafiə mexanizminin formalaşdırılmasıdır. "Mexanizm fövqəladə hallarda çevik və effektiv reaksiya vermək imkanlarımızı daha da gücləndirir. Biz, eyni zamanda bir çox beynəlxalq təşkilata əməkdaşlıq edirik və bu, gələcək fəaliyyətimizə yeni töhfələr verəcək. Mövcud geosiyasi vəziyyətdə sülh və sabitlik daha da həssas xarakter daşıyır. Üstəlik, iqlim dəyişikliyinin dağıdıcı təsirləri artıq daha açıq şəkildə hiss olunur. Bu şəraitdə "Qırmızı Şəbəkə" platformasının fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Bu fəaliyyət türk xalqlarının əsrlər boyu formalaşmış səxavət və mərhəmət prinsiplərinə tam uyğundur. Ehtiyacı olanlara yardım etmək bizim əcdadlarımızdan miras qalan milli kimliyimizin ayrılmaz hissəsidir. Biz bunu Qarabağ müharibəsi dövründə, eləcə də Türkiyədə baş vermiş zəlzələ zamanı nümayiş etdirdik. Düşünürəm ki, bugünkü tədbir ölkələrimiz arasında humanitar əməkdaşlıqda əsl dönüş nöqtəsi olacaq", - deyə baş katib vurğulayıb.

Türkiyənin Qızıl Aypara Cəmiyyətinin sədri Fatma Meriç Yılmazın sözlərinə görə, birgə təlimlər təşkil edilə, xüsusi mübadilə proqramları həyata keçirilə, sənədli təlim modulları hazırlana və rəqəmsal həllər tətbiq edilə bilər. Bu, əməliyyat potensialını artırmaqla yanaşı, həm də institusional əlaqələri daha da gücləndirəcək: "İqlim dəyişikliyi və rəqəmsallaşma kimi qlobal əhəmiyyətli məsələlər bütün işlərimizə sistemli şəkildə inteqrasiya olunmalıdır. Bu mövzular artıq sadəcə, dəstəkləyici elementlər deyil, əsas fəaliyyətlərimizin ayrılmaz hissələrinə çevrilib. Gələn il Türkiyədə keçiriləcək TDT Dövlət Başçılarının Zirvə Görüşü bizə tarixi bir fürsət təqdim edir. Zirvə görüşü üçün ortaq humanitar mövqenin hazırlanması türk dünyasında humanitar həmrəyliyin gücləndirilməsi, fəlakətlərə birgə hazırlıq aparılması və könüllülüyün təşviq olunması kimi məsələlərin TDT Dövlət Başçılarının Zirvə Bəyannaməsinə daxil edilməsini təmin edəcək. Həmin yanaşma şəbəkəmizin vizyonunu həm regional, həm də qlobal miqyasda görünən edəcək və humanitar dəyərlərimizi ortaq iradə ilə yüksək səviyyəyə çatdırmaqda mühüm rol oynayacaq. Bilirik ki, birlikdə hərəkət etdikdə bu sahədəki effektivliyimizi artırırıq. Bugünkü danışıqlar təkcə 2026-cı il gündəliyimizi deyil, həm də şəbəkəmizin 2026-2030-cu illər mərhələsini formalaşdıracaq strateji istiqaməti müəyyənləşdirəcək".

Qırğızıstan Qızıl Aypara Cəmiyyətinin və türk "Qırmızı Şəbəkəsi"nin prezidenti Çingiz Cakipov isə "Qırmızı Şəbəkə" platformasının yaradılmasının olduqca vacib olduğuna diqqət çəkib: "Bizim qarşılıqlı əməkdaşlığımız, aktiv və davamlı münasibətlərimiz birliyimizin gücünün və bir-birimizə olan sadiqliyin ən bariz göstəricisidir. Bu əməkdaşlıq həm humanitar sahədə, həm də beynəlxalq miqyasda ortaq mövqeyimizin daha da möhkəmləndirilməsinə xidmət edir".

Onun sözlərinə görə, aparılan işlər və əldə olunan nəticələr göstərir ki, bu istiqamətdə səylər daha da artırılmalıdır. "Məhz buna görə "Qırmızı Şəbəkə"nin yaradılması böyük strateji əhəmiyyət daşıyır. Bu şəbəkə bizə həmrəylik prinsipləri əsasında daha koordinasiyalı fəaliyyət göstərməyə, fövqəladə hallarda sürətli və təsirli reaksiya verməyə imkan yaradacaq. Əminəm ki, bu platforma türk dünyasının humanitar dəyərlərinin güclənməsinə, yardımlaşma ənənələrinin davam etdirilməsinə və bütün regionda sabitliyə töhfə verəcək", - deyə Çingiz Cakipov əlavə edib.

Daha sonra iclasda 2025-ci il üzrə fəaliyyətlərin yekun icmalı aparılıb, həmçinin 2026-cı il üçün strateji istiqamətlər müəyyənləşdirilib.

Qeyd edək ki, TDT-yə üzv olan dövlətlərin Qızıl Aypara Şəbəkəsinin rəhbərlərinin iclası çərçivəsində Türk Qızıl Aypara Şəbəkəsi Bəyannaməsi imzalanıb. İmzalanan sənəd üzv ölkələrin Milli Cəmiyyətləri arasında qarşılıqlı əməkdaşlıq və humanitar həmrəyliyi təsdiq edir. Bəyannamə bilik və təcrübə mübadiləsinin genişləndirilməsini, birgə humanitar layihələrin həyata keçirilməsini, fövqəladə hallara koordinasiyalı reaksiya imkanlarının artırılmasını və regional həmrəyliyin daha da möhkəmləndirilməsini nəzərdə tutur.

Onu da bildirək ki, ötən il Bişkek şəhərində keçirilən görüş zamanı türk dövlətlərinin Qızıl Aypara cəmiyyətlərinin qərarı ilə "Qırmızı Şəbəkə" platforması təsis olunub və sədrlik Qırğızıstan Qızıl Aypara Cəmiyyəti tərəfindən həyata keçirilib. Bu il təşkil edilən növbəti görüşdə isə sədrlik Azərbaycan Qızıl Aypara Cəmiyyətinə keçib.

# "AzərEnerji"də qanvermə aksiyası










**Qurumun Mətbuat xidmətinin verdiyi məlumatda bildirilir ki, "Konstitusiya və Suverenlik İli" çərçivəsində Səhiyyə Nazirliyinin Respublika Qan Bankı Publik Hüquqi Şəxsin təşəbbüsü, "AzərEnerji" ASC-nin təşkilatçılığı ilə "Talassemiyasız həyat naminə" devizi altında qanvermə aksiyası keçirilib.**



"AzərEnerji" ASC-nin Baş İdarəetmə, Elm, Tədris və Laboratoriya Kompleksinin binasında keçirilən qanvermə aksiyasında səhmdar cəmiyyətin 120-dən artıq əməkdaşı iştirak edib. Qanvermə aksiyasında toplanan qan talassemiya və hemofiliyalı, eləcə də qana ehtiyacı olan digər xəstələrin qan çatışmazlığının aradan qaldırılması üçün nəzərdə tutulub.

Aksiyada iştirak edən donorlar qanvermədən öncə Respublika Qan Bankı Publik Hüquqi Şəxsin tibbi heyətinin bütün tibbi yoxlanışlarından keçdikdən sonra qan veriblər.

Qeyd edək ki, 2005-ci ilin fevral ayında birinci xanım Mehriban Əliyeva "Talassemiyasız həyat Naminə" proqram layihəsinin başlanmasını elan edəndən sonra "AzərEnerji" ASC də bu layihənin ən fəal davamçılarından birinə çevrilib.

# *Kubanıçbek ÖMÜRALIYEV:* "Azərbaycanın TDT-yə sədrliyi dövründə təşkilatımızın daha da güclənəcəyinə inanıram"

**"Mərkəzi Asiya ilə Azərbaycanın münasibətləri olduqca güclü strateji səviyyədədir. Bir neçə gün əvvəl Daşkənddə keçirilən toplantıda Azərbaycanın Mərkəzi Asiya platformasına üzv qəbul edilməsi də bunun əsas göstəricisidir".**




Bu sözləri AZƏRTAC-a məxsusi müsahibəsində Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbek Ömüralıyev deyib.

O qeyd edib ki, TDT 16 il əvvəl Azərbaycanda, yəni Naxçıvanda yaradılıb. Bu il isə Qəbələ sammitində Azərbaycan təşkilata sədrliyi öz üzərinə götürüb. "Əlbəttə ki, bu sədrlik dövründə təşkilatımızın daha da güclənəcəyinə inanıram. Çünki Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışlarında dəfələrlə türk dünyasının bir ailə olduğunu bildirib. Bu, Azərbaycanın türk dünyasına nə qədər önəm verdiyini, onun üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. Hazırda biz xarici siyasət, iqtisadiyyat, kənd təsərrüfatı, idman, gənclər siyasəti, texnologiya, innovasiya, kosmik sahə və digər istiqamətlər də daxil olmaqla 45-dən çox sahədə əməkdaşlıq edirik. Bu səbəbdən, Azərbaycan sədrliyi dövründə təşkilatımızın daha da güclənəcəyinə inanıram",- deyə baş katib vurğulayıb.

Kubanıçbek Ömüralıyev TDT-də humanitar əməkdaşlığın əsas prioritetlərdən biri olduğunu deyib: "Ötən il Bişkek sammitində təşkilata üzv ölkələr arasında mülki müdafiə mexanizminin yaradılması barədə qərar qəbul edilib. Bu proses davam edir. "Qırmızı Şəbəkə" platforması da məhz Bişkek sammitində yaradılıb. Bu bir il ərzində onlar çox aktiv fəaliyyət göstəriblər, xüsusilə də zəlzələ, daşqın, quraqlıq və digər təbii fəlakətlər zamanı biri-birlərinə yardım ediblər. Bundan başqa, könüllülər üçün təlimlər və düşərgələr də təşkil olunub. Ümid edirəm ki, humanitar sahədəki əməkdaşlığımız yüksələn xətlə davam edəcək".

# Dil itəndə, xalq susur

## Ana dilimizin qorunmasına və yeni terminlərin dilə təsirinə daim diqqət yetirilməlidir

**Müasir dövrün qlobal dalğaları dillər arasındakı sərhədləri getdikcə daha da incəldir. Texnologiya, informasiya axını, sosial şəbəkələr, bütün bu faktorlar dillərin qarşılıqlı təsirini sürətləndirir. Qəribə bir paradoks yaranır: bir tərəfdən dünya dilləri bir-birini zənginləşdirir, digər tərəfdən isə hər bir xalqın öz söz xəzinəsinə, yəni ana dilinə qarşı görünməz təzyiq formalaşır.**




Bu gün ingiliscə terminlər yalnız elmi məqalələrdə deyil, artıq gündəlik danışığımızda da özünə yer tapır: selfi, rəqəmsal dünya, kontent, brend, süni intellekt... Bu sözlər müasir dövrün gerçəkliyini ifadə etsə də, onların idarəsiz şəkildə dilimizə daxil olması milli leksikamızın sarsılmasına, bəzi hallarda isə yox olmasına gətirib çıxarır. Dil sadəcə ünsiyyət vasitəsi deyil, o, millətin yaddaşı, duyğusu və düşüncə tərzidir. Ana dilini itirmək, bir növ, milli mənəvi sütunlarımızdan birini yox etmək deməkdir.

Yeni sözlərin gətirdiyi dəyişiklik: zənginləşmə, yoxsa zəifləmə? Dil canlı bir orqanizmdir, nəfəs alır, dəyişir, yenilənir. Yeni sözlər onun inkişafını göstərən "semantik impulslar" kimidir. Lakin bu impulslar bəzən təbii axını pozur, dilin tarazlığını sarsıdır. Məsələn, "selfi", "virtual aləm", "chatbot", "influencer" kimi sözlər təkcə texnoloji yenilikləri deyil, həm də yeni düşüncə modelini ifadə edir. Bu sözlər yalnız lüğət tərkibinə yox, həm də insanların dünyanı qavrama tərzinə təsir edir. Gənc nəsil artıq "özünü təqdim etmək", "özünüifadə", "şəxsi səhifə" kimi anlayışlardan çox, "selfi çəkmək", "kontent paylaşmaq" deyir. Bu isə dildə sadəcə terminoloji deyil, mədəni oriyentasiya dəyişikliyi deməkdir.

Bu dəyişmənin kökündə bir neçə əsas amil dayanır:

1. Qloballaşma və media təsiri - qlobal dillər, xüsusilə ingiliscə, texnologiyanın və elmin dilinə çevrildikcə, yerli dillər kölgədə qalır.
2. Texnoloji terminlərin artımı - yeni ixtira və anlayışlar üçün milli qarşılıqların gec yaradılması, çox zaman tərcüməsiz işlədilməsi.
3. Gənclər slanqı və sosial trendlər - sosial şəbəkələrdə qısaldılmış, emosional və yad mənşəli sözlər "prestij" göstəricisinə çevrilir.
4. Mədəni asılılıq - xarici dildə danışmaq bəzən "müasirlik" əlaməti sayılır, bu isə ana dilinə olan inamı sarsıdır.

Bütün bunların nəticəsində dildə yad ünsürlər çoxaldıqca, fikrin də təbii axını pozulur. Məsələn, bir zamanlar "təsvir etmək" dediyimiz indi "vizuallaşdırmaq", "danışmaq" əvəzinə "kommunikasiya qurmaq" kimi işlətmək dilimizin emosional və bədii yükünü azaldır. Dil zəiflədikcə, onun arxasındakı mədəni özünüdərk də solur. Axı dil sadəcə söz toplusu deyil, o, bir millətin duyğu xəritəsidir.

### Yeni sözlərin beyinimizə və dilimizə neyrolinqvistik təsiri

Elmi tədqiqatlar sübut edir ki, hər yeni söz beynin fəaliyyətini stimullaşdırır. İnsan beyninin ən maraqlı xüsusiyyətlərindən biri onun "sinir plastisliyi" adlanan çevikliyidir, yəni öyrənilən hər yeni anlayış, hər yeni termin beynin sinir hüceyrələri arasında yeni əlaqələr yaradır. Məsələn, "süni intellekt" və ya "rəqəmsallıq" kimi terminləri öyrənərkən beynin iki əsas bölgəsi, temporal lob (sözün mənasının qavranması) və prefrontal korteks (semantik əlaqələrin qurulması) aktivləşir. Bu proses, bir növ, "beyin məşqi" effekti yaradır: insan daha tez düşünür, anlayır, əlaqə qurur.

Lakin bu prosesin mənfi tərəfi də var. Çoxsaylı və sürətlə dəyişən terminlər yaddaş sisteminə əlavə yük gətirir. Xüsusilə ana dilini tam mənimsəməmiş uşaqlar üçün bu, öyrənmə və ifadə prosesini çətinləşdirir. Uşaq "anlayış" və "məna"nı xarici dildə formalaşdırdıqca, ana dilində onun qarşılığı zəifləyir və beyin iki sistem arasında daimi "tərcümə rejimində" işləməyə məcbur qalır.

Beyin təkcə sözün mənasını deyil, onun emosional tonunu da qavrayır. Məsələn, "canım", "ay bala" kimi milli emosional çalar daşıyan ifadələr beyindəki limbik sistemi, yəni hiss və yaddaş mərkəzini fəallaşdırır. Amma "cool", "cringe" kimi alınma ifadələr bu emosional bağları zəiflədir. Nəticədə dilin duyğu qatları arxa plana keçir, fikrin rasional, lakin soyuq forması önə çıxır. Yeni terminlər beynimizi oyadır, amma eyni zamanda onu yad semantik sistemlərə uyğunlaşdırır. Bu isə düşüncənin "milli kodlaşdırma"sına təsir göstərir.

### Süni intellekt və ana dilinin gələcəyi

Texnologiyanın sürətli inkişafı, xüsusilə süni intellekt (Sİ) sistemlərinin həyatın bütün sahələrinə daxil olması, dilin qarşısında həm yeni imkanlar, həm də ciddi sınaqlar yaradır. Əvvəllər dilin qorunması yalnız lüğət və tədris müstəvisində müzakirə olunurdusa, indi artıq rəqəmsal reallıqda dilin varlığı və təmsil səviyyəsi müzakirə mövzusuna çevrilib.

Süni intellekt texnologiyaları, tərcümə proqramları, səsli köməkçilər, chatbot sistemləri, avtomatik yazı operatorları gündəlik ünsiyyətin ayrılmaz hissəsinə çevrilib. Lakin bu alətlər hansı dildə daha çox məlumatla qidalanırsa, o dil rəqəmsal üstünlüyə malik olur. İngilis dili bu baxımdan qlobal miqyasda dominant vəziyyətdədir. Azərbaycan dili isə bu rəqabətdə öz yerini hələ də tam gücləndirə bilməyib.

Burada əsas təhlükə ondan ibarətdir ki, süni intellekt alqoritmləri çox zaman dilin orijinal strukturunu və mədəni kontekstini nəzərə almır. Nəticədə tərcümələrdə semantik incəliklər, üslubi çalarlar və mədəni metaforalar itir. Məsələn, "ürək yanmaq" ifadəsini sistem "heart burn" kimi fizioloji anlamda tərcümə etdikdə, onun emosional-mənəvi dərinliyi yox olur. Bu, yalnız dil səhvi deyil, mədəniyyətin anlam kodlarının zədələnməsidir.

### Ana dilinin rəqəmsal yaddaşda yaşaması

Süni intellektin dil üzərində yaratdığı ən mühüm reallıq "rəqəmsal yaddaş" anlayışıdır. Yəni bir dil haqqında nə qədər çox məlumat, mətn, səs və kontekst sistemlərə daxil edilirsə, həmin dil süni intellektin "yaddaşında" bir o qədər dərin yer tutur. Bu, Azərbaycan dili üçün həm çağırış, həm də fürsətdir.

Əgər biz dilimizi elmi məqalələrdə, vikipediya mətnlərində, elektron dərsliklərdə, rəsmi sənədlərdə və media platformalarında aktiv şəkildə işlətməsək, süni intellekt sistemləri onu ikinci dərəcəli informasiya dili kimi qəbul edəcək. Nəticədə gələcəkdə virtual mühitlərdə Azərbaycan dilində danışan süni sistemlər, köməkçilər və ya tərcümə platformaları məhdud səviyyədə fəaliyyət göstərəcək.

Azərbaycan dilində işləyən yerli süni intellekt layihələrinin inkişafı xüsusi əhəmiyyət daşıyır. "ASR sistemləri" (Automatic Speech Recognition - səsin tanınması), "NLP modelləri" (Natural Language Processing - təbii dil emalı) və "mətn generasiyası" layihələri milli lüğət bazasına, folklor və ədəbiyyat nümunələrinə əsaslanmalıdır. Məsələn: Azərbaycan dilində danışığı tanıyan sistemlərdə dialekt və şivə fərqləri nəzərə alınmalıdır; poeziya və atalar sözləri bazası süni intellekt modellərinə daxil edilməlidir; terminologiya üzrə milli məlumat bazası yaradılmalıdır ki, "rəqəmsal kainat"da hər yeni anlayışın milli qarşılığı olsun. Beləliklə, süni intellekt təkcə texnologiya deyil, həm də dil siyasətinin yeni mərhələsidir.

Əgər bu gün dilimizi süni intellekt sistemlərində layiqincə təmsil edə bilsək, sabah Azərbaycan dili yalnız dərsliklərdə və poeziyada deyil, həm də rəqəmsal dünyada yaşayan, düşünən və öyrədən bir dil olacaq. Bu, milli kimliyimizin gələcəkdə də dinamik, yaradıcı və intellektual qalmasının əsas təminatıdır.

### Ana dilini qorumaq mənəvi müqavimət formasıdır

Ana dili yalnız ünsiyyət vasitəsi deyil, həm də milli varlığın və düşüncənin genetik kodudur. Onu qorumaq, əslində, mədəni müstəqilliyi qorumaq deməkdir. Bugünkü dünyada dilin saflığını qorumaq, eyni zamanda onu müasir tələblərə uyğun inkişaf etdirmək üçün tənzimlənmiş və yaradıcı strategiyalar zəruridir.

Yerli leksikanın təşviqi: yeni anlayışlar üçün milli qarşılıqlar yaratmaq vacibdir. Məsələn, "metavers" üçün "rəqəmsal kainat", "chatbot" üçün "söhbət proqramı" kimi terminlər işlədildikdə həm anlayış aydınlaşır, həm də milli dil öz elastikliyini nümayiş etdirir. Dil yalnız tərcümə vasitəsi deyil, yaradıcılıq məkanıdır.

Təhsil və maarifləndirmə: məktəblərdə və universitetlərdə dilin semantik və üslubi dərinliyini öyrədən fənlər bərpa edilməli, dərsliklər müasir terminologiyaya uyğunlaşdırılmalıdır. Dil kursları, lüğət yeniləmələri, terminoloji şuralar bu istiqamətdə sistemli fəaliyyət göstərməlidir.

Media və mədəniyyətin rolu: film, televiziya, radio və sosial media platformalarında ana dilində keyfiyyətli məzmun hazırlanmalıdır. Əgər dil gündəlik informasiya mühitində yaşayırsa, o zaman həm populyar, həm də elmi səviyyədə güclənir.

Rəsmi dəstək və dövlət proqramları: dil siyasəti yalnız normativ sənədlərlə məhdudlaşmamalıdır. Hökumət, ali təhsil müəssisələri və mədəni qurumlar milli dilin innovativ tətbiqlərinə, o cümlədən süni intellekt sistemlərinə, avtomatik tərcümə proqramlarına və onlayn platformalara dəstək verməlidir.

Mədəni qürurun gücləndirilməsi: cəmiyyətin hər üzvündə "ana dilim mənim kimliyimdir" duyğusu formalaşdırılmalıdır. Bu, quru şüar deyil, dil sevgisi ailədən başlayır. Uşaq evdə eşitdiyi dildə düşünür, həmin dildə duyur, həmin dildə şəxsiyyətə çevrilir.

### Dil düşüncənin nəfəsidir

Hər bir xalqın gücü onun iqtisadiyyatında və texnologiyasında olduğu qədər, dilində və düşüncəsində də gizlidir. Ana dili yalnız keçmişin yadigarı deyil, həm də gələcəyin daşıyıcısıdır. Biz onu sadəcə öyrətmirik, onunla düşünür, sevinir, yaradır və yaşayırıq. Yeni terminlər, qlobal ünsiyyət formaları və texnoloji dillər, bunların hamısı həyatın bir parçasıdır. Amma bu reallıqlar içində öz dilinin səsini eşitməyən xalq, zamanla öz mədəni kimliyini də itirir. Məsələ yeni sözlərə qarşı olmaqda deyil, məsələ onları milli düşüncənin süzgəcindən keçirərək mənimsəməkdədir.

Dilin gələcəyi sadəcə dilçilərin yox, cəmiyyətin bütün təbəqələrinin məsuliyyətidir. Texnoloji əsrdə dillər yalnız məktəblərdə deyil, həm də internetdə, süni intellektdə, sosial şəbəkələrdə və rəqəmsal aləmdə yaşayır. Ona görə də gələcəyin ana dili həm kitab səhifələrində, həm də kod sətirlərində mövcud olan bir dildir.

Bəlkə də yaxın onilliklərdə Azərbaycan dili süni intellekt sistemlərində, virtual təhsil platformalarında, beynəlxalq məlumat bazalarında aktiv istifadə olunan dillərdən birinə çevriləcək. Bu, artıq xəyal deyil, strateji hədəf olmalıdır.

Hər bir dilin yaşamaq şansı onun rəqəmsal ekosistemdəki görünürlüyündən asılıdır. Əgər biz dilimizi bu mühitə daşımasaq, gələcək nəsillər onu ancaq arxivlərdə və ədəbiyyat dərsliklərində tanıyacaq.

Dilin gələcəyini yalnız qorumaqla yox, onu yaradıcı şəkildə yeniləməklə təmin etmək mümkündür. Bu, iki istiqamətdə baş verə bilər: mədəni dərinlik - xalq yaradıcılığı, atalar sözləri, klassik poeziya və milli təfəkkür elementləri rəqəmsal məzmunlara inteqrasiya edilməlidir; texnoloji çeviklik - Azərbaycan dili proqramlaşdırma, süni intellekt, robot texnologiyaları və elmi kommunikasiya dillərinə çevrilməlidir. Belə olduqda, ana dilimiz yalnız keçmişin daşıyıcısı yox, gələcəyin düşüncə aləti kimi formalaşacaq. Əgər "qələm" bir vaxtlar dilin inkişafını simvolizə edirdisə, indi bu rolu klaviatura və kod oynayır. Bu reallığı dərk etmək dil siyasətinin yeni mərhələsidir.

Ana dilini qorumaq, əslində, bir növ mənəvi müqavimət aktıdır. Bu müqavimət hər birimizdən başlayır, evdə, məktəbdə, universitetdə, mediada. Hər yazdığımız cümlə, söylədiyimiz fikir, paylaşdığımız məzmun dilimizin gücünü ya artırır, ya da azaldır.

Unutmayaq: "Dil itəndə, xalq da susur".

Ona görə də ana dilimizi yaşatmaq, onu gündəlik həyatın, elmin, sənətin və texnologiyanın dili etmək bizim yalnız borcumuz deyil, həm də varlıq məsuliyyətimizdir. Yeni sözlər beynimizi oyadır, amma dilimizin ruhu bizə kim olduğumuzu xatırladır. Bu ruhu qorumaq milli kimliyimizi qorumaq deməkdir.

***Bənövşə MƏMMƏDOVA,***
***filologiya elmləri doktoru, dosent,***
***Azərbaycan Dillər Universitetinin***
***Tərcümə fakültəsinin dekanı***

# Özünüməşğulluq proqramı - işsizlikdən kiçik sahibkarlığa çıxış imkanı

**"Əvvəllər işsiz idim, heç bir peşəm, ixtisasım da yox idi. Özünüməşğulluq proqramının dəstəyi ilə indi artıq mənim kiçik biznesim, qazancım var. Mən və mənim kimi neçə-neçə insan bu proqram vasitəsilə işsizlikdən kiçik sahibkarlığa çıxış imkanı əldə etdik. Dövlətin dəstəyi ilə qurduğumuz təsərrüfatı ailə üzvlərimlə birgə daim böyütməyə çalışıram". Bu sözlər Prezident İlham Əliyevin tapşırığı ilə icra olunan özünüməşğulluq proqramının iştirakçılarının fikirlərini özündə ifadə edir.**






Dövlətimizin başçısının uğurlu sosial-iqtisadi inkişaf strategiyasında əhalinin məşğulluğunun təminatı mühüm yer tutur. Ötən dövrdə xüsusilə də qeyri-neft sektorunun, sahibkarlığın inkişafı, daim genişlənən investisiya layihələri yeni iş yerlərinin yaradılması prosesinin davamlı xarakter almasına səbəb olub. Bu proseslər, eyni zamanda işəgötürənlərlə birgə həyata keçirilən və daim genişlənən aktiv məşğulluq tədbirləri işsiz və işaxtaran şəxslərin məşğulluğunun təminatı istiqamətində mühüm addımların atılmasına imkan verib. 2018-2024-cü illərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 635 min, bu ilin 10 ayında isə 158 min şəxs münasib işlərlə təmin edilib.

Bu gün əhalinin məşğulluğunun təmin edilməsində Prezident İlham Əliyevin tapşırığı ilə icra olunan, mühüm sosial-iqtisadi əhəmiyyəti ilə seçilən özünüməşğulluq proqramı mühüm rola malik olmaqla işsiz və işaxtaran şəxslərin kiçik biznesə çıxışına dəstək verir.

2023-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi zamanı dövlətimizin başçısı özünüməşğulluq proqramından da bəhs edərək demişdir: "Sosial sahə çoxşaxəli sahədir. Məsələn, biz buraya özünüməşğulluq proqramını da əlavə edə bilərik. Bu, həm sosial, həm iqtisadi sahədir. Çünki bu, kiçik biznesi təşviq edən sahədir. Ancaq mən buna daha çox sosial sahə kimi baxıram. Bir neçə il ərzində belə bir təşəbbüs irəli sürüldü. Çox böyük maraq doğurdu və bu gün 60 min ailə özünüməşğulluq proqramına cəlb edilib. Hətta biz beynəlxalq maliyyə institutlarını da bu proqrama cəlb etmişik. Bu, həm sosial, həm iqtisadi, həm iş yerlərini, yəni bütün bu sahələri əhatə edən bir sahədir".

Qeyd edək ki, özünüməşğulluq proqramına cəlb olunanların illik sayı son illərdə təqribən 15 dəfə artırılaraq 16 mini ötüb. Bu ilin 10 ayında daha 16,3 min şəxs kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib. Proqramın icrası nəticəsində işsiz və işaxtaran şəxslər nəinki məşğulluq imkanı, həm də dövlətin dəstəyi ilə kənd təsərrüfatı, istehsal və xidmət yönümlü kiçik təsərrüfat sahibi olmaq imkanı qazanırlar. Ötən dövrdə ümumilikdə 112400 nəfərdən çox işsiz və işaxtaran şəxs özünüməşğulluq proqramına cəlb edilib.

Onlardan biri də Altay Qoşnalızadədir. Özünüməşğulluq proqramı üzrə "Səyyar kofe evləri" layihəsinin iştirakçısı olan Altay Bakıda məcburi köçkün həyatı yaşayarkən barista kimi çalışaraq, ailəsinə maddi cəhətdən dəstək olub. Daha sonra isə Böyük qayıdış proqramı çərçivəsində öz doğma yurduna - Laçına qayıdıb. Burada məşğulluğunun təmin olunması məqsədilə Dövlət Məşğulluq Agentliyinə müraciət edib. Davamını özü qeyd edir: "Laçında da barista kimi işləmək istəyirdim. Ancaq lazım olan avadanlığım yox idi. Bunun üçün agentliyə müraciət etdim. Müraciətimin üzərindən cəmi 2 ayadək vaxt keçdi və məni avadanlıqlarla təmin etdilər. Hazırda burada barista kimi işləyirəm və işlərim də çox yaxşıdır. Laçına çoxlu turistlər gəlir və mən onlara xidmət göstərirəm. Qazancım da, maşallah, yaxşıdır".

Proqramın ilk mərhələsi kimi, yəni aktivlərin verilməsindən əvvəl benefisiarlar təlimlərə cəlb edilirlər. Bu təlimlərdə onlar quracaqları kiçik bizneslərin təşkili və idarə olunması üzrə bilik və bacarıqlara yiyələnirlər. Təlimlərdən sonra isə özünüməşğulluq istiqaməti üzrə biznes planlarına uyğun aktivlərlə təmin olunaraq dövlətin dəstəyi ilə kənd təsərrüfatı, istehsal və xidmət yönümlü kiçik təsərrüfatlarını qururlar.

Beləliklə, bir qədər əvvəl işsiz və işaxtaran olmuş şəxslər bu proqrama cəlb edilərək artıq öz işlərini qurur, zəhmətləri ilə gəlir imkanları qazanır, təsərrüfatlarını daim genişləndirməyə çalışırlar.

Mikro və kiçik sahibkarlığın inkişafını dəstəkləyən özünüməşğulluq proqramı aztəminatlı ailələrin ailə büdcəsinin dayanıqlı gəlir mənbələri hesabına formalaşmasına imkan yaradır. Bununla yanaşı, proqram iştirakçısı üçün vacib hədəf qurduğu kiçik biznesinin dayanıqlığına, inkişafına, genişlənməsinə nail olmaqdır. Qurulan həmin kiçik təsərrüfatların genişlənməsi onlara öz təsərrüfatlarında yeni işçilərin qəbul edilməsinə imkan verir. Özünüməşğulluq proqramının artıq bir çox iştirakçıları buna nail olaraq, qurduqları kiçik biznes sahələrini genişləndirməklə, özlərinə yeni işçilər də götürüblər.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev bu il noyabrın 12-də Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini və bir sıra rayonların icra hakimiyyətlərinə təyin olunan başçıları qəbul edərkən deyib: "Bölgələrdə insanları işlə təmin etmək üçün indi dövlət müxtəlif addımlar atır, müəssisələr yaradılır, sahibkarlara güzəştli kreditlər verilir, özünüməşğulluq proqramı uğurla icra edilir. Artıq on minlərlə insan bu proqramla əhatə olunub".

Son illər özünüməşğulluq proqramına yeni iqtisadi fəaliyyət sahələri əlavə olunub, proqramın əhatə etdiyi iqtisadi fəaliyyət sahələrinin sırası xeyli genişlənib. Ümumilikdə proqram çərçivəsində iştirakçılara kənd təsərrüfatı, istehsal və xidmət yönümlü 32 iqtisadi fəaliyyət sahəsi üzrə aktivlər təqdim edilir.

Onu da vurğulayaq ki, proqram çərçivəsində şəhid ailəsi üzvləri, müharibə iştirakçıları, əlilliyi olan şəxslər, keçmiş məcburi köçkünlər, ünvanlı sosial yardım alanlar və həssas qruplardan olan digər şəxslərə əmək bazarına və layiqli məşğulluğa çıxış imkanları yaradılır. Bu da onların əmək bazarında iştirak səviyyəsinin artırılmasına, onlarda özünəinamın yüksəlməsinə səbəb olur. Yeri gəlmişkən, şanlı tarixi Zəfər əldə etdiyimiz Vətən müharibəsindən sonrakı dövrdə özünüməşğulluq proqramı çərçivəsində şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 13400-dək şəxsin proqrama cəlb olunaraq kiçik bizneslərinin qurulması təmin edilib.

Proqramın iştirakçılarından olan Ramil Atakişiyev şəhid atasıdır. Onun oğlu Toğrul Atakişiyev Vətən müharibəsində şəhidlik zirvəsinə ucalıb. İxtisasca dərzi olan Ramil Atakişiyev Dövlət Məşğulluq Agentliyinə də özünüməşğulluq proqramının "Kiçik dərzi sexi" zərfi üzrə müraciət edib. "Mənim bütün avadanlıqlarımı yenilədilər. Hazırda da həmin avadanlıqları işlədirəm və heç bir problem yoxdur, işlərim də çox yaxşıdır", - deyə şəhid atası bildirir.

Ümumilikdə isə ötən dövrdə 3800 nəfərdən çox şəhid ailəsi üzvü və 10 min nəfərdən çox müharibə iştirakçısı özünüməşğulluq proqramı ilə əhatə olunub.

Özünüməşğulluq proqramı işğaldan azad edilmiş ərazilərimizdə də uğurla icra olunur. Böyük qayıdış proqramı çərçivəsində doğma yurdlarına qayıdan sakinlərlə hələ köçürülməzdən əvvəl Dövlət Məşğulluq Agentliyi məşğulluq imkanlarının qiymətləndirilməsi üçün görüşlər keçirir.

Bu görüşlər zamanı onların hansı aktiv məşğulluq proqramlarına cəlb ediləcəyi müəyyənləşdirilir. Sakinlər belə proqramlardan biri kimi potensiallarına uyğun olaraq özünüməşğulluq proqramına da cəlb edilirlər. Köçürülən sakinlərdən artıq 556 nəfərə mal və materiallar formasında aktivlər verilərək onlar üçün kiçik bizneslər yaradılıb.

Onlardan biri də Xankəndi şəhər sakini Elmir Hümbətovdur. O, özünüməşğulluq proqramının "Avtoyuma" zərfi üzrə iştirakçısıdır. Deyir ki, Dövlət Məşğulluq Agentliyinin təmin etdiyi aktivlər sayəsində 2024-cü ildə doğma Xankəndidə öz kiçik biznesini qura bilib: "Agentliyə müraciət etdikdən sonra məni təlim kursuna cəlb etdilər. Lazımi biliklərə yiyələndim. Sonra isə aktivlərlə təmin olundum. Hazırda doğma torpağımda yaşamağımdan qürur duyduğum kimi, burada öz işimi qurmağımdan da çox məmnunam".

Özünüməşğulluq proqramının qabaqcıl beynəlxalq təcrübə əsasında genişlənməsində və işsiz şəxslərin özünüməşğulluq fəaliyyəti əsasında kiçik biznes imkanlarına sahib olmalarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə 2020-ci ildən icrasına başlanılan "Məşğulluğa Dəstək Layihəsi" önəmli rol oynayır.

Bu layihə işsiz kimi qeydiyyatda olan şəhid ailəsi üzvləri, müharibə iştirakçıları, əlilliyi olan şəxslər, keçmiş məcburi köçkünlər, ünvanlı sosial yardım alanlar, qadınlar, gənclər və həssas qruplardan olan digər şəxslərin istehsal və xidmət sahələri üzrə kiçik biznesə çıxış imkanına yiyələnməsinə dəstək verir. 2020-2025-ci illəri əhatə edən bu layihənin 22 min işsiz şəxsi əhatə etməsi hədəflənsə də, onun uğurlu icrasının nəticəsi kimi bundan daha çox - 25 mindən artıq benefisiarın bu layihəyə cəlb olunması nəzərdə tutulub. Bu ilin oktyabr ayında isə layihə iştirakçılarının sayı artıq 25 mini ötüb.

"Məşğulluğa Dəstək Layihəsi" həmçinin həssas qruplara aid şəxslərin Beynəlxalq Əmək Təşkilatının "Öz biznesini başlat və təkmilləşdir" proqramı əsasında maliyyə savadlılığı, proaktiv sahibkarlıq təfəkkürünün formalaşdırılması və s. üzrə keçirilən təlimlər vasitəsilə kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqlara da yiyələnməsinə şərait yaradır. Təlim və qiymətləndirmə mərhələsini uğurla tamamladıqdan sonra iştirakçılara istehsal və xidmət sahələri üzrə öz işlərini qurmaları üçün avadanlıqlar verilir. Həmçinin layihə üzrə qurduğu kiçik təsərrüfatlarını uğurla inkişaf etdirənlərə bizneslərini genişləndirmək üçün əlavə dəstək göstərilir.

"Məşğulluğa Dəstək Layihəsi"nin uğurla icra olunması beynəlxalq səviyyədə də yüksək qiymətləndirilərək ötən il Dünya Bankının yüksək mükafatına layiq görülüb.

Hazırda özünüməşğulluq proqramının və ona mühüm dəstək olan "Məşğulluğa Dəstək Layihəsi"nin icrası uğurla davam etdikcə, işsiz və işaxtaran şəxslər üçün qurulan kiçik ailə təsərrüfatlarının sayı da daim artır. Onu da bildirək ki, gələn il İşsizlikdən Sığorta Fondunun vəsaiti hesabına 8 min, Dünya Bankı layihəsi çərçivəsində 7 min nəfər olmaqla, ümumilikdə 15 min ailənin özünüməşğulluq proqramına cəlb edilməsi nəzərdə tutulur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***





# Mədəniyyət





**Üzeyir Hacıbəyli - 140**

# Dahi bəstəkarın 63 illik ömrünün 27 ilinin şahidi...

**Azərbaycan xalqı dahi oğlunun - adı, əməlləri ilə hər zaman qürur duyduğu, fəxr etdiyi Üzeyir bəy Hacıbəylinin 140 illik yubileyini qeyd edir. Dövlətimizin başçısı İlham Əliyev fevralın 3-də "Üzeyir Hacıbəylinin 140 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzalayıb.**

Bu il həm də Üzeyir bəy Hacıbəylinin Bakıdakı ev-muzeyinin yaradılmasının 50 illik yubileyidir. Bu muzeyin açılış mərasimi 1975-ci il sentyabrın 20-də baş tutub.



Böyük şəxsiyyətin 63 illik ömrünün 27 ili bu evdə keçib. Üzeyir bəy 1915-1942-ci illərdə burada yaşayıb. 1975-ci ildən bəri isə ev-muzey kimi fəaliyyət göstərir. Yerləşdiyi küçənin adı keçmişdə Verxnyaya Priyutskaya, sonralar Ketsxoveli olub. İndi akademik Şamil Əzizbəyov küçəsi adlanır.

Kiçik həyət, olan bu ev dəhliz, 4 otaq və şüşəbənddən ibarət bu evin əbədi sakini - Üzeyir bəy Hacıbəylinin həyatı və yaradıcılığı ilə tanışlıq elə dəhlizdən başlayır. Stendlərdə Üzeyir bəyin əsərləri, haqqında yazılmış kitablar düzülüb və heykəltaraş Əhməd Salikov tərəfindən hazırlanmış büstü qoyulub.

Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin elmi katibi Nərgiz Qədirovanın bələdçiliyi ilə muzeylə tanışlığa birinci otaqdan - iş otağından başlayırıq. Burada ilk diqqətimizi çəkən Hacıbəylilərin Şuşadakı evinin maketi olur. 1885-ci il sentyabrın 18-də dünyaya gələn Üzeyir bəyin uşaqlıq və ilk gənclik illəri həmin evdə keçib. Dövrünün tanınmış ziyalılarından olan Mirzə Əbdülhüseyn bəylə Qarabağın məşhur nəsillərindən olan Əliverdibəyovların qızı Şirinbəyim xanımın beş övlad - üç oğlan və iki qız böyüdüb, tərbiyə etdikləri o ocaq da 1959-cu ildə muzeyə çevrilib. Təəssüf ki, 1992-ci il mayın 8-də Şuşa şəhəri qəsbkar ermənilərin işğalına məruz qalıb. İşğaldan bir ay əvvəl ev-muzeyindəki əşyaların çoxunu Bakıdakı ev-muzeyinə gətirmək mümkün olsa da, qalanlar ermənilər tərəfindən qarət olunub, ev dağıdılıb.

Müzəffər Azərbaycan Ordusu 2020-ci ildə 44 günlük Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzur ərazilərini Ermənistan silahlı qüvvələrinin işğalından azad etdi. Şuşa şəhərinin düşməndən xilas edildiyi gün - 2020-ci il noyabrın 8-i Azərbaycanın Zəfər Günü kimi tarixə yazıldı. Qısa müddət sonra qala şəhərimizdə də tikinti-quruculuq, bərpa işlərinə başlanıldı. Üzeyir bəy Hacıbəylinin Şuşadakı ev-muzeyi də bərpa olundu.

Üzeyir bəyin Bakıdakı ev-muzeyində Şuşada keçən illərinin yadigarı olan şəkillərlə tanış oluruq. İş otağında divara vurulmuş şəkillərdən biri - balaca Üzeyir bəylə atası Əbdülhüseyn Hacıbəyovun fotoşəkli 1890-cı ildə çəkilib.

Divardakı şəkillər bizə Üzeyir bəyin Qori Seminariyasına qəbul ərəfəsindən, tələbəlik illərindən "danışır". Gənc Üzeyir bəy Hacıbəylini seminariyada təhsil alan qarabağlı tələbələr (1900), Qori Seminariyasının tələbələri (1904), Bibiheybət məktəbinin şagirdləri (1905-1906), "Səadət" məktəbi şagirdləri (1908), "Nicat" mədəni-maarif xeyriyyə cəmiyyətinin üzvləri arasında görürük.

Üzeyir bəy Şuşada poeziya və musiqiyə sevgi ruhunda tərbiyə almışdı. Özünün də gözəl səsi vardı. Xalq mahnılarını, muğamları məharətlə oxuyurdu. Çərçivələnərək divardan asılmış bu sətirlərin müəllifi bəstəkarın özüdür: "İlk musiqi təhsilimi uşaqlıqda Şuşada məşhur xanəndə və tarzənlər arasında almışam. Mənim səsim onlara çox xoş gəlirdi. Onlar mənə muğam və təsnifləri öyrədirdilər".

Nərgiz Qədirova bildirir ki, Üzeyir bəy Qori Seminariyasında oxuyanda simli alətlərdə çalmağı öyrənib: "Royalın üzərindəki bu skripka onun ilk skripkasıdır. Bəstəkar bu musiqi alətini Tiflis dükanlarının birindən alıb. O, Şərqdə ilk operanı - "Leyli və Məcnun" operasını yazanda həm bizim milli üçlükdən - tar, kamança və dəfdən, həm də skripka və alt kimi xarici musiqi alətlərindən istifadə edib".

1913-cü ildə Peterburq Konservatoriyasına daxil olan Üzeyir bəy Hacıbəyli "Arşın mal alan" operasını tələbə ikən tamamlayıb. Əsərlə tanış olan Peterburq Konservatoriyasının rektoru Aleksandr Qlazunovu onun istedadı heyrətləndirib. Muzeyin iş otağında sərgilənən şəkillərdən biri də Aleksandr Qlazunovundur.

Bu evin saysız-hesabsız qonaqlarından olan - rus bəstəkarı Sergey Raxmaninovun da şəkli burada nümayiş olunur.

Dahi bəstəkarın iş zamanı çəkilən şəklindəki "Bekker" markalı royalı da buradadır.



Bu royalda o bir çox ölməz əsərlərini bəstələyib.

İş otağındakı iki dolabda onun şəxsi kitabxanasının bir hissəsi düzülüb. Kitab dolabının üstündə Üzeyir bəyin Azərbaycan Dövlət Musiqi Akademiyasının önündəki, heykəltaraş Tokay Məmmədovun hazırladığı heykəlinin maketi var.

Pəncərə önündə qoyulmuş yazı sağlığında olduğu kimi nümayiş olunur. Muzeyin elmi katibi qeyd edir ki, muzey təsis olunanda Üzeyir bəyin vəfalı ömür-gün yoldaşı Məleykə xanım, onun bacısı oğlu və muzeyin ilk direktoru Ramazan Xəlilovun yaddaşında necə qalmışdısa, əşyalar elə də qoyulub.

Yazı masasının üstündə bəstəkarın tamamlamağa macal tapmadığı "Azərbaycan" simfonik poemasının not yazıları qalır.



Üzeyir bəy Hacıbəyliyə 1945-ci ildə 60 illik yubileyində verilmiş iki hədiyyə - radiokomitə işçilərinin verdiyi radioqəbuledici və Azərbaycan Elmlər Akademiyasının alimlərinin bağışladığı xalça da iş otağındadır.

Divardan asılmış, dəqiq işlədiyinə görə Üzeyir bəyin "ağıllı saatım" dediyi kəfkirli saat üçün zaman 1948-ci il noyabrın 22-dən 23-nə keçən gecə, saat 2-də sahibinin ürəyi dayananda bitib. Saatı Üzeyir bəyin bacısı uşaqları dayandırıblar.

Burada nümayiş olunan Üzeyir bəy Hacıbəylinin 1943-cü ildə naturadan çəkilmiş rəsmi rəssam Mikayıl Abdullayevin ilk işlərindən biridir. Üzeyir bəyin bu otaqdakı büstünün müəllifi isə heykəltaraş Fuad Əbdürrəhmanovdur.

Divarda Üzeyir bəyin "Azərbaycan" qəzetində çalışdığı illəri əks etdirən şəkil, yaxın dostu və bacanağı bəstəkar Müslüm Maqomayevin portreti, bəstəkarın xatirə muzeyinə hədiyyə edilmiş portreti də var.

Üzeyir bəy anasını, bacılarını, dul qalmış bacılarının uşaqlarını öz evində saxlayırdı.

Divarda Üzeyir bəyin, həyat yoldaşı Məleykə xanımın, anası Şirinbəyim xanımın, bacıları Abuhəyat xanım və Sayad xanımın, bacısı uşaqları, qardaşları - Əməkdar incəsənət xadimi Zülfüqar Hacıbəyovun və ictimai-siyasi xadim, publisist, redaktor Ceyhun Hacıbəylinin, onların həyat yoldaşları və övladlarının, ilk musiqi müəllimi olmuş dayısı Ağalar bəy Əliverdibəyovun şəkilləri var.

Əsərlərinə dirijorluq edərkən geyindiyi frakı, iri güzgülü paltar dolabı, küncündəki kiçik dolabın üstündəki ağ çini külqabı, fil fiquru, ağ kətan dəsmal və elektrik alışqanı, içərisində kiçik çəhrayı güldan, üstündə ipək saplarla işlənmiş fransız qobeleni metal çarpayılar, Üzeyir bəyə Məleykə xanımın hədiyyəsi olan Şərq bazarından bir səhnəni əks etdirən zərif əl işi, Almaniyanın "EHRICH&QRAET" firmasında istehsal edilmiş lampa, təraş dəsti, bəstəkarın eynəyi, masaüstü güzgü olan kamod, döşəməyə salınmış kiçik yun xalça, tavandan asılmış bir lampalı qədim qəndil…

Digər otaqlardan fərqlənən üçüncü otaq memorial üslubda bəzədilib. Burada - yaradıcılıq otağında ev sahibinin pedaqoq, alim, ictimai xadim, dramaturq, bəstəkar kimi fəaliyyəti əks olunub.

Yaradıcılıq otağında Üzeyir bəyin əsərlərindən ibarət stend, əsərləri əsasında hazırlanmış tamaşalardan şəkillər, afişalar nümayiş olunur. Vitrindəki eksponatlar arasında bəstəkarın Musiqi nəzəriyyəsi kafedrasının professorluq attestatı, deputat mandatı və nişanı, Lenin ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni, "II Dünya müharibəsi illərində fədakar əməyə görə" medalı və həmin medalın vəsiqəsi, onun tank qüvvələrinə maddi köməyinə görə İosif Stalindən aldığı təşəkkür teleqramı, II dərəcəli Stalin mükafatı laureatı ("Arşın mal alan" filminə görə), SSRİ Xalq artisti diplomu, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvlük bileti var.

Şəkillər, afişalar, proqramlar sayca dördüncü olan - yemək otağında da nümayiş olunur. Fuad Əbdürrəhmanovun müəllifi olduğu dünyaşöhrətli şair Məhəmməd Füzulinin miniatür heykəli, bəstəkar Oqtay Zülfüqarovun hazırladığı xırda muncuqlarla bəzədilmiş dahi bəstəkarın təsviri olan iri güldan da buradadır.

Bu evdə hər şey onun qoyub getdiyi kimidir. Zaman isə dayanmayıb. Heç bu evin sahibi də keçmişdə qalmayıb. Üzeyir bəy Hacıbəyli əsərləri, əməlləri ilə bu günümüzdədir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

**Ədəbiyyat xadimlərimiz**

# Söz dünyasının görkəmli siması

> **Nəbi Xəzri öz şeirlərində xalqımızın həm qəhrəman keçmişini, həm də bugünkü həyatını və sabahını yüksək ustalıqla, fitri sənətkarlıqla tərənnüm edir. Öz şeirlərində və poemalarında şair cəmiyyətimizin inkişafı üçün, indiki nəslin tərbiyəsi üçün birinci dərəcəli əhəmiyyəti olan problemlər qaldırır. Həm də müəllifin mövqeyi həmişə aydın şəkildə bildirilir, onun xalqa bağlılığı, onlara sədaqətlə xidməti nümayiş etdirilir.**
>
> **Heydər ƏLİYEV**



**Dünya xalqlarının ədəbiyyatları içərisində Azərbaycan xalqının ədəbiyyatı həmişə öz zənginliyi və humanist ideyalarının vüsəti ilə seçilmiş və bu fərqlilik indi də davam etməkdədir. Bu zənginliyi yaradan Azərbaycan ədəbiyyatına özünəməxsus naxışlarla iz qoyan ədiblərdən biri də nasir, dramaturq, publisist, tərcüməçi, ssenarist, 1945-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan SSR xalq şairi (1984), SSRİ (1973) və Azərbaycan SSR (1982) Dövlət mükafatları laureatı Nəbi Xəzridir.**

Ömrü poeziyasının ömrü qədər olan şair Nəbi Xəzri yaradıcılığında vətən sevgisi, insanın daxili aləmi və təbiətlə qarşılıqlı əlaqəsi mövzularında dərin fəlsəfi lirika yaradan Xalq şairidir.

Nəbi Xəzri 1924-cü il dekabrın 10-da Bakının Xırdalan kəndində tacir ailəsində anadan olmuşdur. İkinci Dünya müharibəsi dövründə arxa cəbhədə çalışmış, daha sonra "Kommunist" qəzetində korrektor və Azərbaycan radiosunda diktor işləmişdir. 20 yaşında Səməd Vurğunun tövsiyəsi ilə Yazıçılar İttifaqının üzvü seçilmişdir. İlk şeir kitabı "Çiçəklənən arzular" 1950-ci ildə çap olunmuşdur. O, Azərbaycan Dövlət Universitetində, Leninqrad Dövlət Universitetində və Maksim Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almışdır.

Nəbi Xəzri müxtəlif yüksək vəzifələrdə, o cümlədən Azərbaycan Yazıçılar İttifaqının katibi, mədəniyyət nazirinin müavini və Azərbaycan Dövlət Televiziya və Radio Komitəsi sədrinin müavini kimi çalışmışdır. O, poeziyasında fəlsəfi məzmunu, milli koloriti və dərin lirizmi ilə seçilmişdir. Əsərləri insanın mənəvi aləmini və təbiətini incəliklə əks etdirir. Onun şeirlərindən bəstəkarlar ilham almış və əsərləri Azərbaycan musiqisinin incilərinə çevrilmişdir.

Şairin şeirləri və poemaları bir çox dilə tərcümə edilmiş, bədii tərcümələri isə dünya poeziyasını Azərbaycan oxucusuna yaxınlaşdırmışdır. Dram əsərləri teatr səhnələrində uğurla tamaşaya qoyulmuşdur. İctimai xadim kimi Nəbi Xəzri milli mədəniyyətin təbliği istiqamətində çalışmışdır.

"İllər və sahillər", "Ulduz karvanı", "Nəsillər-əsrlər", "Torpaq sənə and içirəm" kimi əsərləri onun zəngin yaradıcılığını əks etdirir.

Şair 2007-ci ildə vəfat etmiş və 1-ci Fəxri xiyabanda dəfn olunmuşdur.

Azərbaycan gerçəkliyinin ictimai-siyasi, mənəvi-psixoloji mənzərəsini, tariximizin bir çox olaylarını, insanlığın duyğu və düşüncələrini əks etdirən N. Xəzri ədəbiyyat və mədəniyyət tariximizdə öz işıqlı düşüncə və əməlləri ilə müasirlərinə və özündən sonrakı nəsillərə əhəmiyyətli dərəcədə təsir etmiş görkəmli sənətkardır. Nəbi Xəzrinin yaradıcılığı sovet və müstəqillik dövrü Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil edir. Altmış ildən artıq ədəbiyyata xidmət etmiş şairin əsərləri mövzu dairəsinin genişliyi və rəngarəngliyi ilə səciyyələnir. İnsanın mənəvi aləmini, düşüncə və axtarışlarını yüksək bədiiliklə əks etdirən və bəşəriliklə milliliyi üzvi şəkildə birləşdirən Nəbi Xəzri poeziyası dünya, insan və təbiət haqqında fəlsəfi məzmunu, yüksək humanizmi, böyük vətəndaşlıq qayəsi və milli koloriti sayəsində geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.

Zərif duyğular, incə hisslər, aylı, günəşli, ulduzlu düşüncələr, sevgililəri öz sahilinə səsləyən mavi dəniz, üstündə mavi səma, bir sözlə, nə varsa, maviliyə bürünmüş bir poeziya örnəyi... Bu, məhəbbətin-işığın-dənizin rəngi idi, ünvanı Nəbi Xəzri şeiriydi. Bu, son illərin, deyərdim ki, bütün zamanların ictimai-siyasi, mənəvi-ruhi burulğanlarından keçəcək mavi tülə bürünmüş Nəbi Xəzri poeziyasının mavi şəfəqləridir...

Şahidi olduğumuz ictimai-siyasi iqlim dəyişdikcə şairlər də dəyişirdilər... Unuduldu ki, şairliyin ən ali mərtəbəsi zamanın axarınca getmək yox, bəlkə zamandan ucada durmaqdadır. Nəbi Xəzri şeiri lap əvvəldən zamanın fövqündə dayana bildi:

*Şeir mənim üçün bir kainatdır,*
*Onun ulduzları, günəşləri var.*
*Şeir mənim üçün sirli həyatdır,*
*Onun öz sevinci, öz kədəri var.*

Nəbi Xəzri poeziyasında zamanın harmoniyası kamil şəkildə əksini tapırdı. Dünən və bu gün, tarixilik və müasirlik, ən ağrılı anlarda gələcəyə nikbin bağlılıq, ölümdə belə ölümsüzlük görmək, kövrək, incə notlar, həssaslıq onun poezyasının ruhunu təşkil edir. Başqa sözlə, Nəbi Xəzri müstəqillik illərinin ağrılı keçid dövründə, ictimai-siyasi kataklizmlərində belə yolundan sapmadı, susqun olub durmadı, yüksək vətənpərvərlik və vətəndaşlıq poeziyasına sadiq qaldı, Səməd Vurğun ədəbi məktəbinin ləyaqətli davamçısı kimi, "Əyilməz vicdanın böyük heykəli!" amalını uca tutdu! Dünya çalxalandı, sistemlər dəyişdi, əbədi-əzəli meyarlar laxladı, ədəbi mühitdə bir çaxnaşma yarandı, amma Nəbi Xəzri poeziyasındakı Çinar obrazı kimi əzəmətini itirmədi, Meydan hərəkatı, 20 Yanvar qırğını, Qarabağ işğalı zamanı qələmi ilə xalqının yanında oldu, haqqa söykəndi, oxucusunu insanla zaman arasındakı əzəli-əbədi harmoniyaya səslədi, disharmoniyaya uymadı və bu gün də, bu poeziya ilə təmasda olanlar bu dinamizmi aydın hiss edirlər...

Vətənimizin ən ağrılı, keşməkeşli günlərində qələmə aldığı "İstiqlal marşı" şeirində Azərbaycanın xoşbəxt, müstəqil gələcəyinə nikbinlik və inamla dolu bu misraları oxuyuruq:

*...Gələcəyə mərd addımla,*
*Uğurla get, Azərbaycan!*
*Şəhidlərin al-qanından,*
*Lalə açmış yollar ilə,*
*İstiqlalın sabahına*
*Qürurla get, Azərbaycan!*

Nəbi Xəzri yaradıcılığında nəzərə çarpan mühüm cəhətlərdən biri də epik-lirik janrda yazılmış ədəbi nümunələrdir. Süjetli lirikanın gözəl nümunələrini yaradan şair, yığcam və mənalı əsərlərində oxucularını düşündürən elə hadisələr seçir ki, biz bunları istedadlı bir şair xəyalının məhsulu kimi qiymətləndiririk. Lakin bu xəyal real və həyatidir. Adi həyat həqiqətləri sənətkar qələmilə yüksək poetik vüsət və məna kəsb edir. Onun poeziyası yüksək lirizmi və dramatik epizmi ilə vəhdətdə olduqca diqqətəlayiq və cazibədardır. Nəbi Xəzri səmimiyyət şairidir, dəniz, səma, torpaq və məhəbbət şairidir...

*Ayrıldıq qəribə hədiyyələrlə,*
*Göylər eşqim kimi mənə əzizdir.*
*Ayrıldıq dənizlə, ağ ləpələrlə,*
*Necə aparasan? Dəniz dənizdir.*

*Dənizi verdim ki, sənə hədiyyə,*
*Gəldiyim sahilə gələsən bir də.*
*Məni görməyəndə o mənəm - deyə,*
*Mənimlə danışıb, gülə sən bir də.*

Şeir ayrılıq haqqında olsa da, o, kədərin deyil, mənəvi dərinliyin ifadəsidir. İlk bənddə "Ayrıldıq qəribə hədiyyələrlə" deyən şair, sanki ayrılığı bir itki yox, bir təcrübə, bir miras kimi təqdim edir. Bu "qəribə hədiyyələr" - yaddaşda qalan xatirələr, dənizin səsi, göylərin rəngi kimi simvolik dəyərlərdir.

"Göylər eşqim kimi mənə əzizdir" - burada göylər təkcə ucalığın yox, həm də sevgidəki saf və əbədi duyğunun rəmzidir. Göy sonsuzdur, sevgi də onun kimi - görünməz, amma var olan bir genişlikdir.

Dəniz - dərinlik, yaddaş, dəyişməzlik və eyni zamanda ayrılıq dalğasıdır.

Göy - ucalıq, təmizlik, əbədi sevgi ideyasıdır.

Sahil - qovuşmanın, həm də başlanğıcın yeridir; insanın özünə dönüş nöqtəsidir.

Bu simvollar vasitəsilə şair sevginin məkanını və zamansızlığını ifadə edir.

İnsan o vaxt xatırlanır ki, özündən sonra bir iz qoyub gedir. Nəbi Xəzri Azərbaycan ədəbiyyatında yüz illərlə yaşayacaq iz qoyub gedib. Fəlsəfi məzmunlu əsərləri ilə ədəbi aləmimizə özünəməxsus bir gözəllik bəxş edib...

*Dənizi hədiyyə verirəm sənə,*
*Mən dedim, sən baxdın, sən gülümsədin,*
*Göylərin şəfəqi düşdü üzünə,*
*Mən isə göyləri verirəm dedin.*
*Ayrıldıq qəribə hədiyyələrlə*
*Göylər eşqim qədər mənə əzizdir.*
*Ayrıldıq dənizlə ağ ləpələrlə*
*Necə aparasan, dəniz dənizdir,*
*Dənizi verdim ki, sənə hədiyyə...*

Nəbi Xəzri geniş və hərarətli yaradıcılıq yolu keçib. O, bir şair olmaqla bərabər, nasir, dramaturq, publisist və tərcüməçi kimi də şöhrət qazanıb. Yaradıcı əməyi yüksək qiymətləndirilib. Bir çox orden və medala, dövlət mükafatlarına, Azərbaycan Əməkdar incəsənət xadimi, Xalq şairi fəxri adlarına, Azərbaycan Respublikasının ali dövlət təltiflərinə - "Şöhrət", "İstiqlal" ordenlərinə layiq görülüb. Xalq şairi Nəbi Xəzri poeziyası daim oxunacaq və yaşayacaq...

***Aynur ƏLİYEVA,***
***"Göy Qurşağı" jurnalının redaktoru***

# "Dövlətimizi necə qoruyuruqsa, dilimizi də elə qorumalıyıq"

**"Biz nəinki dilimizin saflığını, ilk növbədə, onun özünü qorumalıyıq. Çünki son illərdə, xüsusilə müstəqillik əldə edildikdən sonra Azərbaycan dili tədricən ciddi risklərlə üz-üzə qalıb. Bu, həm bizdən asılı olan, həm də bizdən kənar amillərin təsiri ilə formalaşan bir prosesdir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyoru, Əməkdar artist Elşən Rüstəmov bildirib.

Onun sözlərinə görə, dünya dəyişdikcə dil də dəyişir, texnologiyaların inkişafı ilə birlikdə yeni terminlər dilə daxil olur ki, bu, təbii prosesdir. Lakin bununla yanaşı, dilin daxili quruluşunda da müəyyən dəyişikliklərin baş verməsi narahatlıq doğurur: "İnformasiya bolluğu, nəzarətin kifayət qədər güclü olmaması və digər səbəblər dilimizdə qarışıqlıq yaradıb. Biz dilə də elə yanaşmalıyıq ki, necə dövlətimizi və xalqımızı qoruyuruqsa, onu da eyni diqqətlə qorumalıyıq. Dil bizim üçün Vətən qədər əhəmiyyətli, dövlətçilik qədər vacib bir anlayışdır".



Elşən Rüstəmov bildirib ki, Azərbaycan dilinin bütün xüsusiyyətləri dublyaj sahəsində aydın görünür: "Dublyajın əsası tərcümədir. Tərcümə zəif olanda qulaq yoran sözlər və tamaşaçını narahat edən cümlələr ortaya çıxır, bu isə ümumi səviyyəni aşağı salır. Təəssüf ki, tərcümələrin böyük əksəriyyəti - təxminən 90 faizi ciddi redaktəyə ehtiyac duyur. Biz çalışırıq ki, bu çatışmazlıqlar efirdə hiss olunmasın, amma mövcud problemlər hələ də qalır".

Elşən Rüstəmov media qurumlarının, xüsusilə televiziya kanallarının üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb: "Xəbər aparıcıları rəsmi danışıq üslubuna ciddi əməl etməlidirlər. Buna baxmayaraq, efirdə tez-tez "bizlə", "sizlə", "mənlə", "sənlə" kimi danışıq dili formalarına rast gəlirik. Halbuki rəsmi nitqdə "bizimlə", "sizinlə", "mənimlə", "səninlə" işlənməlidir".

O hesab edir ki, televiziya aparıcılarının nitqinin normallaşdırılması üçün proses kökündən yenidən qurulmalı və bu sahəyə yalnız peşəkar mütəxəssislər cəlb edilməlidir.

# Bakı şəhərində qışa hazırlıq tədbirləri görülür

**Bakı şəhərinin bütün rayonlarında təsdiq edilmiş tədbirlər planlarına uyğun qış mövsümündə qarlı havalara hazırlıq tədbirləri davam edir. Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən verilən məlumata görə, ilk növbədə şəhər və rayon kommunal xidmətlərinin xüsusi təyinatlı texnikaları hazır vəziyyətə gətirilib, bir sıra yaşayış və qeyri-yaşayış binalarında təmir işləri aparılıb, əlavə tədbirlər görülüb.**



Görülən işlərə nəzarət məqsədilə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən hər bir rayona cavabdeh şəxs təyin edilib, həmin şəxslər yerli icra hakimiyyətlərinin nümayəndələri ilə birgə mütəmadi olaraq rayonlarda qarlı havalara hazırlıq tədbirlərinin keçirilməsini təmin edir, verilən tapşırıqların və görülən işlərin icra vəziyyətini yoxlayırlar.

Bu işlər çərçivəsində paytaxtın Binəqədi, Yasamal və Nərimanov rayonlarında qışın qarlı havalarına hazırlıq tədbirlərinin müzakirəsi məqsədilə Bakı Şəhər İcra Hakimiyyətinin məsul şəxslərinin, rayon rəhbərliyinin, kommunal-təsərrüfat, idarə və təşkilatlarının, təhsil müəssisələrinin və digər aidiyyəti qurumların rəhbərlərinin, həmçinin özəl sektorun nümayəndələrinin iştirakı ilə operativ müşavirələr keçirilib. Müşavirələrdə hər bir sahənin rəhbərinin hesabatı dinlənilib.

Qeyd olunub ki, rayonlardakı hər bir qurum qış aylarında üzərilərinə düşən vəzifələri dəqiq bilməli, yarana biləcək problemləri operativ şəkildə aradan qaldırmağı bacarmalıdır və yerlərdə kifayət qədər duz və lazımi invertar ehtiyatı yaradılmalıdır. Bildirilib ki, hər bir təşkilat mövsümə hazırlıq tədbirlərinin həyata keçirilməsində fəal iştirak etməli və yağıntılar zamanı bitişik ərazinin qardan və buzdan təmizlənməsi üçün müvafiq tədbirlər görməlidirlər. Qarın təmizlənməsi işlərinə kommunal qurumların texnikası ilə yanaşı, idarə, təşkilat, bələdiyyə və özəl qurumların da mövcud texnikalarının cəlb edilməsi qərara alınıb.

Müşavirələrdə rayonlardakı qurumlar arasında konkret vəzifə bölgüsü müəyyənləşdirilib, cavabdeh şəxslərə tapşırıqlar verilib. Eyni zamanda həm də ictimai iaşə müəssisələrinin, özəl qurumların rəhbərlərinə, ictimaiyyət nümayəndələrinə qarlı günlərdə Avropa ölkələrində də qəbul edilən qaydalara uyğun özlərinə aid ərazilərin təmizlənməsində yaxından iştirak etməyə çağırış edilib.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# Avropa "hərbi Şengen" yaradır

## Brüsselin təklifi hərbi səfərbərliyi sürətləndirməyə yönəlib

**Avropa Komissiyasının yeni "hərbi Şengen" təklifinə əsasən, Aİ-yə üzv dövlətlər qitənin digər ölkələrinin hərbi qoşunlarının və texnikalarının sülh dövründə cəmi 3 gün, fövqəladə hallarda isə 6 saat ərzində sərhədlərini keçməsinə icazə verə biləcəklər. Bu təklif blok daxilində hərbi mobilliyi əhəmiyyətli dərəcədə yaxşılaşdırmağı hədəfləyir.**



"Təəssüf ki, bu gün hərbi texnikanın və qoşunların, məsələn, qərbdən şərqə daşınması aylarla vaxt aparır. Biz bunu bir neçə gün ərzində reallaşdırmaq istəyirik" - deyə davamlı nəqliyyat və turizm üzrə Avropa komissarı Apostolos Sitsikostas bildirib. O, "Euronews" və digər media qurumlarının iştirak etdiyi brifinqdə deyib: "Qitədə hərəkət edə bilmirsinizsə, onu müdafiə edə bilməzsiniz. Bu, tamamilə aydındır. Buna görə də biz bu "hərbi Şengen"i yaradırıq".

"Hərbi mobillik" adlanan paket çərşənbə günü rəsmi olaraq təqdim olunub. Bu, Avropa Komissiyası tərəfindən onilliyin sonuna qədər Aİ müdafiəsini əhəmiyyətli dərəcədə gücləndirmək üçün ilin əvvəlindən bəri açıqlanan bir sıra planların sonuncusudur. Bəzi kəşfiyyat orqanlarının fikrincə, bu vaxta qədər Rusiyanın başqa bir Avropa ölkəsinə hücum etmək üçün vasitələri ola bilər.

Əsas tədbirlərdən biri sərhədyanı hərbi mobillik üçün icazələrin verilməsini sürətləndirməklə olacaq. Hazırda Aİ-yə üzv olan 27 dövlətin qaydası bir-birinə uyğunlaşdırılmayıb və bəzilərinə qoşun, yaxud avadanlıqların ölkə ərazisi üzərindən daşınması ilə bağlı digər dövlətin sorğusuna cavab vermək üçün bir neçə həftə tələb olunur. Avropa Komissiyası bu müddəti sülh dövründə maksimum 3 günə, fövqəladə hallarda isə cəmi 6 saata endirmək istəyir, özü də sonuncu halda tələbin təmin ediləcəyi güman olunur.

Plan, üzv dövlətlərə təbii və ya texnogen fəlakətlər zamanı tez bir zamanda yardım almağa imkan verən Aİ Mülki Müdafiə Mexanizmi modelinə əsaslanan yeni bir Avropa gücləndirilmiş cavab sisteminin yaradılmasını nəzərdə tutur. Buraya üzv dövlətlərin digər ölkələrin istifadəsi üçün aktivləri - məsələn, qatarlar, bərə və ya strateji hava daşımaları, eləcə də həlli bilən mülki şirkətlərdən ikili təyinatlı nəqliyyat və logistika aktivlərini sadalayan hərbi mobillik kataloqu daxil olacaq.

Bütün bu işlər hər bir Aİ üzv dövlətindən milli koordinatorlardan ibarət yeni hərbi mobillik nəqliyyat qrupu tərəfindən əlaqələndiriləcək. Onlar həmçinin yerləri hələ açıqlanmayan 4 razılaşdırılmış hərbi dəhlizin təkmilləşdirilməsi üçün zəruri hesab edilən 500 infrastruktur layihəsinin maliyyələşdirilməsinə üstünlük verəcəklər. Məqsəd hərbi texnikanın çəkisini və ölçüsünü dəstəkləmək üçün yolları, dəmir yolu xətlərini, limanları, hava limanlarını, tunelləri və körpüləri təkmilləşdirməkdir.

"Etibarlı logistika şəbəkələri müharibədə qalib gəlmək və məğlub olmaq arasında fərq yaradır", - deyən Sitsikostas onu da bildirib ki, diqqət gücü sürətlə artırmaq üçün qısamüddətli, sürətli investisiyalara yönəlib. Komissar bu vəzifəni yerinə yetirmək üçün 100 milyard avro lazım olacağını təxmin edir, lakin Aİ 2027-ci ildə başa çatan cari çoxillik büdcədə hərbi mobillik üçün yalnız 1,7 milyard avro ayırıb. Düzdür, 2028-ci ildə başlayan növbəti yeddiillik büdcə üçün təxminən 18 milyard avro vəsait ayırmaq təklif olunur ki, bu da 10 dəfə artım deməkdir. Lakin bu rəqəm yenə də lazım olandan çox uzaqdır.

Bununla belə, Sitsikostanın sözlərinə görə, məsələ yalnız pulla bağlı deyil: "Dünyadakı geosiyasi vəziyyət hazırda çəkindir, ona görə də daha sürətli hərəkət etməyi, daha çox işləməyi və gözləniləndən daha tez nəticə verməyi öyrənməliyik".

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Beyini gənc saxlamağın yolu

## Xarici dil öyrənmək zehni qocalmanı ləngidir

**Müasir dünyanın qloballaşan ritmində xarici dil bilmək gündəlik həyatın, peşə inkişafının və şəxsi tərəqqinin ən vacib şərtlərindən birinə çevrilib. Mütəxəssislər dil öyrənməyin təkcə sosial və peşə üstünlüyü yaratmadığını, eyni zamanda beyinin yaşlanmasını yavaşlatdığını, zehni çevikliyi artırdığını bildirirlər. Yeni elmi araşdırmalar isə bu fikri daha möhkəm şəkildə təsdiqləyir.**



"Nature Aging" jurnalında dərc olunmuş genişmiqyaslı araşdırma çox dil bilməyin insan beyninə təsirini yenidən gündəmə gətirib. Elm adamları Avropanın 27 ölkəsində 51-90 yaş aralığında olan 86 min nəfərin məlumatını təhlil ediblər. Nəticə isə olduqca maraqlıdır. Məlum olub ki, yalnız bir dildə danışan insanlar çoxdillilərə nisbətən iki dəfə daha tez zehni qocalma əlamətləri göstərirlər. Ən azı iki dil bilənlərdə isə bu risk yarıbayarı azalır. Öyrənilən hər əlavə dil isə beyinin qorunmasına daha çox töhfə verir.

Bu fakt dəfələrlə gündəmə gəlsə də, son araşdırmaların nəticələri onu daha etibarlı edir. Üstəlik, çoxdilliliyin təsiri yaş, təhsil, ümumi sağlamlıq, həyat tərzi dəyişəndən sonra belə, güclü olaraq qalır. Bu isə dil bilməyin mədəni üstünlükdən daha artıq, sağlamlıq faydası daşıdığını göstərir.

### Dillər arasında keçidin gücü

Mütəxəssislərin açıqlamalarına görə, çoxdilli insanlar daim lüğətlər, qrammatik sistemlər və mədəni kontekstlər arasında keçid edirlər. Bu proses beyinin əsas funksiyalarını, yaddaşı, diqqəti, qərarvermənı və informasiya emalını işə salır. Bütün bunlar beyində, xüsusən də prefrontal korteksdə "idman effekti" yaradır. Müntəzəm fiziki hərəkət bədəni formada saxladığı kimi, davamlı zehni məşq də beyinə oxşar təsir göstərir.

Fizioloji olaraq beyinin yeni sinaptik əlaqələr yaratmaq qabiliyyəti - neyroplastiklik yaş ötdükcə zəifləyir. Amma dil öyrənmək bu zəifləmənin qarşısını alan nadir məşqlərdəndir. Araşdırmalar göstərir ki, yaşından asılı olmayaraq yeni söz öyrənmək, qrammatika sınaqları etmək, danışıq təcrübəsi keçmək beyin hüceyrələrini aktivləşdirir və onları daha davamlı edir. Bu, yaşla bağlı zehni geriləməni də ciddi şəkildə ləngidir.

Son illər altsheymer və digər demensiya növlərinin artması ilə bağlı narahatlıq çoxalıb. Elmi tədqiqatlar göstərir ki, ən azı iki dil bilən insanlarda demans simptomları orta hesabla 4-5 il gec ortaya çıxır. Bunun səbəbi beyində yaranan ehtiyat gücüdür. Dillər arasında keçid bu ehtiyatı gücləndirir, beyini ətraf mühit dəyişikliklərinə daha dayanıqlı edir.

Tədqiqatçılar bildirirlər ki, dil öyrənmək təkcə gənclik illərində deyil, yetkin yaşlarda da eyni dərəcədə faydalıdır. Hətta 60 yaşdan sonra belə, yeni dil öyrənməyə başlayanlarda yaddaş testlərinin nəticələri əhəmiyyətli dərəcədə yaxşılaşıb.

### Əsas şərt düzgün metod və motivasiyadır

Günümüzdə xarici dil bir çox sahədə açar rolunu oynayır. Qloballaşma dövründə fərqli ölkələrlə əməkdaşlıq edən şirkətlər çoxaldığı üçün işəgötürənlərin əksəriyyəti namizədlərdən ən azı bir xarici dil bilməyi tələb edir. Xarici dil bilən şəxslər çoxmillətli şirkətlərdə daha yüksək maaşlı və məsuliyyətli vəzifələrə keçə bilirlər. Elmi məqalələrin böyük hissəsi ingilis dilində yazıldığı üçün bu dili bilmək araşdırma aparmaq imkanlarını genişləndirir. Jurnalistika, media və informasiya sahələrində ingilisdilli mənbələr informasiya bankının əsas hissəsini təşkil edir. Xarici dil yeni dostluqlar, beynəlxalq əlaqələr və fərqli təcrübələr qazanmağa imkan yaradır.

Dilçilik üzrə mütəxəssislər dünya dillərini çətinlik səviyyəsinə görə sıraladıqda ilk yerlərdə ərəb, mandarin (Çin), yapon, koreya, rus, fin və macar dilləri dayanır. Bunların hər biri mürəkkəb qrammatikaya, fərqli yazı sisteminə və geniş lüğətə malikdir. Lakin ən çətin dillər belə öyrənilə bilər. Əsas şərt düzgün metod və motivasiyadır.

Psixoloqlar bildirirlər ki, insan motivasiyası xarici dil öyrənmənin yarısını təşkil edir. Maraqlı kontentlər, seriallar, gündəlik danışıq praktikası və müntəzəm öyrənmə sistemi prosesi həm sürətləndirir, həm də daha effektiv edir.

Araşdırmalar bir daha sübut edir ki, dil öyrənmək təkcə sosial üstünlük deyil, bu həm də beyini cavan saxlayan, yaşlanmanı ləngidən, demans riskini azaldan bir növ zehni terapiyadır. Dil öyrənmək həm şəxsi inkişaf, həm də mədəni irsin qorunması baxımından böyük əhəmiyyət daşıyır.

Müasir dövrdə texnologiyanın sürətlə inkişafı dil öyrənmə prosesini daha əlçatan edib. Artıq hər kəs smartfon və ya kompüter vasitəsilə dünyanın istənilən dilində dərs, audio, video və interaktiv təlbiqlərə çıxış əldə edə bilir. Mütəxəssislər hesab edirlər ki, yeni dillərin öyrənilməsi gələcəyin əsas bacarıqları siyahısında lider mövqedə qalmağa davam edəcək. Süni intellektin inkişaf etdiyi bir zamanda insanlar arasında fərqi yaradacaq ən mühüm xüsusiyyət emosional zəka, ünsiyyət və mədəni anlaşma bacarıqları olacaq. Xarici dil isə bu bacarıqların açarıdır: o, insanı yalnız qrammatika və söz yaddaşı ilə deyil, düşüncə tərzi, ünsiyyət üslubu və davranış modeli ilə də zənginləşdirir. Hər yeni dil yeni baxış bucağı deməkdir. Dil öyrənənlər fərqli mədəniyyətlərin düşüncə strukturlarını anladıqca həm empati qabiliyyəti artır, həm də özünüifadə gücü genişlənir. Bu isə yalnız şəxsi inkişaf deyil, peşəkar aləmdə adaptasiya və problem həlletmə bacarıqlarını da gücləndirir. Üstəlik, araşdırmalar göstərir ki, multikultural şəraitdə böyüyən və ya müxtəlif dilləri aktiv istifadə edən insanlar daha yaradıcı olur, yeni ideyalar irəli sürməkdə daha cəsarətli davranırlar.

*Ü.XASPOLADOVA, "Azərbaycan"*

# Hava əsasən yağmursuz olacaq

**Azərbaycan ərazisində noyabrın 20-nə gözlənilən hava şəraiti açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər yarımadanın bəzi şəhərətrafı ərazilərində az çiskinli olacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 10-14, gündüz 17-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 768 millimetr civə sütunu, nisbi rütubət gecə 80-85 , gündüz 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10, gündüz 17-21, dağlarda gecə 1-5, gündüz 7-12 dərəcə isti olacağı bildirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanova atası

**FAMİL DÖVLƏTXANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyəti üzvləri, Memarlar İttifaqının İdarə Heyətinin üzvü, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanova atası

**FAMİL DÖVLƏTXANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanova atası

**FAMİL DÖVLƏTXANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4077
Sifariş 2345

Qiyməti 60 qəpik